Xalqın qəzeti!
# Xalq qəzeti
№ 250 (30366) 17 noyabr 2023-cü il, cümə
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti
xalqqazeti.az

# 20 il: milli dövlətçiliyin yeni mərhələsinə doğru



V məqalə

## Strateji və siyasi proqnozlaşdırma: bir sıra sinergetik məqamlar

IV məqalədə ifadə etdiyimiz sonuncu tezisdən başlayaq. Orada Azərbaycan Prezidentinin yeni lider kimi strateji proqnozlaşdırmaq qabiliyyətinin yüksək olduğu fikri irəli sürülmüşdür. Müstəqil dövlətin başçısı kimi liderin bu kimi keyfiyyətə malik olması zəkavi ilə yanaşı, həm də ciddi siyasi qabiliyyətdir. Xüsusilə hazırkı mərhələdə mürəkkəb bir geosiyasi regionda Prezident-Liderin strateji proqnozlaşdırmaq qabiliyyəti uğurlu liderlik üçün əsas şərtlərdən biri sayılır.

Prezidentin strateji və siyasi proqnozlaşdırma qüdrətinin konkret nümunələrinə keçməzdən öncə, bir sıra vacib saydığımız nəzəri faktorları vurğulamaq istərdik. Çünki o halda milli liderin uğurlu proqnozlaşdırma qüdrəti ilə praktiki siyasi-diplomatik məharəti arasında vəhdəti aydın təsəvvür etmək imkanı yaranır.

(ardı 4-cü səhifədə)




**Düz 35 il əvvəl unudulmaz noyabr günlərində Bakının Azadlıq meydanını o vaxta qədər görünməmiş böyük bir izdiham bürümüşdü. Buraya toplaşan insan seli Qarabağda erməni separatçılarını himayə edən sovet imperiyasına qəti surətdə etiraz edirdi. Bu, milli istiqlal savaşı idi! Xalq onillər boyu həsrətində olduğu azadlıq mücadiləsinə qalxmışdı!**

Yadımdadır, o həyəcanlı hadisələr zamanı dəyərli ziyalılarımız – məşhur alim, şair və yazıçılar meydanda bir-bir tribunaya çıxır, xalqı birliyə, həmrəyliyə çağırır, eyni zamanda, kütləni ayıq-sayıq olmağa, hər cür şərə, fitnə və təxribatlara uymamağa səsləyirdilər. Azərbaycan vətəndaşlarını o gərgin günlərdə qədim və gözəl torpağımız Qarabağı qorumaq amalı birləşdirmişdir.

(ardı 6-cı səhifədə)

# Milli maraqlarımıza qəsd cavabını alacaq

**Azərbaycanın XİN noyabrın 15-də ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Braynın Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinin Avropa üzrə alt komitəsinin dinləmələrində səsləndirdiyi fikirləri birtərəfli, qərəzli, səmərəsiz, əsassız və qəbuledilməz adlandırıb.**



Açıqlamada qeyd olunub: "Dinləmələri və səsləndirilən çıxışları Azərbaycan ilə ABŞ arasında ikitərəfli və çoxtərəfli formatlarda münasibətlərə zərbə kimi qiymətləndiririk. Azərbaycana qarşı səslənən ittihamlar əsassız olmaqla yanaşı, regionda sülh və təhlükəsizliyi sarsıdır.

Sentyabrın 19-20-də Azərbaycanın antiterror tədbirlərinə gətirib çıxaran son vəziyyət və hadisələrə münasibət bildirən Dövlət Departamentinin nümayəndəsi Azərbaycanın bu addımlarına səbəb olan əsas problemin, yəni, beynəlxalq hüququn norma və prinsiplərinə, habelə 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd olaraq ərazilərimizdə erməni silahlı qüvvələrinin 10 mindən çox üzvünün qanunsuz mövcudluğu məsələsinə etinasız yanaşıb. Üstəlik, Azərbaycan tərəfi bütün, o cümlədən ABŞ-la keçirilmiş görüşlərdə sözügedən qüvvələrin bölgədə təhlükə mənbəyi olduğunu dəfələrlə vurğulayıb və onların dərhal çıxarılmasına çağırış edib.

Bundan əlavə, ABŞ tərəfi sülh prosesinin irəliləməsinin vacibliyindən bəhs edərkən Ermənistanın artıq iki aydan çoxdur ki, Azərbaycanın sülh sazişi ilə bağlı təkliflərinə cavab verməyərək prosesi ləngitdiyini unudur. Baza prinsiplər, habelə sülh sazişinin imzalanması, o cümlədən sərhədlərin demarkasiyası və delimitasiyası, kommunikasiya xətlərinin açılması əsasında sülh prosesini başladan tərəfin Azərbaycan olmasına baxmayaraq, Dövlət katibinin köməkçisi son 3 il ərzində bu istiqamətlər üzrə göstərilən səylərin Ermənistan tərəfindən sarsıldığını və maneə törədildiyini vurğulamaqdan çəkinib. Ermənistandan fərqli olaraq, Azərbaycan ötən il oktyabrın 6-da Praqada keçirilən görüş zamanı da bir daha təsdiqləndiyi kimi, hər zaman Ermənistanın suverenliyinə və ərazi bütövlüyünə hörmət edib.

(ardı 2-ci səhifədə)

# ABŞ-ın "51-ci ştat"ı – Ermənistan

## Qərb–İrəvan "izdivacı" və Cənubi Qafqazda qlobal maraqlar

### Yaxud amerikan-erməni siyasi məsləhətləşmərinə və O'Braynın pozucu manifestinə sözardı



Yalnız o qaldı ki, Ermənistanda referendum keçirilsin və ölkə rəsmən ABŞ-ın tərkibinə qatılsın. Hazırda Amerikanın ştatlarının sayı 50-dir. Hər birinin öz bayrağı və çox güman, başqa atributları da var. Ermənistan isə faktiki olaraq 51-ci ştatdır. Amerika leksikonuna uyğunlaşdırılması üçün ölkənin adını kiçiltmək də olar. Məsələn, "Ermos" dilə daha yatımlıdır. Erməni alimləri də elmi icadlar uydurarlar ki, bəs, sən demə "Ermos" Amerikada hindulardan əvvəl yaşayıb.

Mövzuya məhz belə başlanğıc etməyimiz heç də təsadüfi deyil. ABŞ–Ermənistan hökumətlərarası məsləhətləşmələrində əldə edilmiş razılaşmaları başqa cür qiymətləndirmək, sadəcə, mümkünsüzdür. Bəli, Vaşinqton İrəvanı himayəsinə götürür. Əlbəttə, baş nazir Nikol Paşinyan administrasiyasının Qərbpərəst olduğu məlum idi. Amma hesab edirik ki, sözügedən məsləhətləşmələr sonrası çıxarılmış qərarlar yalnız aşkar tərəfkeşlik göstəricisi yox, eyni zamanda, ABŞ-la Ermənistan arasında siyasi kəbinin bəndləridir. Həmin qərarlarla bağlı ayrı-ayrı müddəalar isə el dilində desək, süd puludur. ABŞ-ın Azərbaycandakı səfirliyindəkilər "süd pulu" ifadəsindən bir şey anlamasalar, orada çalışan azərbaycanlılardan soruşsunlar. Güman edirik ki, ikincilər birincilərin izahına qulaq asa-asa Ermənistanın "zifaf gecəsi"nin təsəvvürünü canlandıracaqlar.

Bəli, ABŞ və Ermənistan arasındakı yüksək səviyyəli məsləhətləşmələr nəticəsində çıxarılan qərarlar qəti şəkildə onu deməyə əsas verir ki, İrəvan nəinki anti-Rusiya kursunu davam etdirir, habelə bu kursun perspektivi baxımından son dərəcə ciddi impuls qazanır. Əlbəttə, bizim üçün maraqlı olan heç də bilavasitə Rusiya-Ermənistan münasibətləri deyil. Başlıca məqam İrəvanın Birləşmiş Ştatlardan qazandığı dividenddən Azərbaycan əleyhinə bəhrələnməsidir. Bunu isə yüz faiz edəcək. Artıq ABŞ rəsmilərinin mövcud istiqamətdə ürəkləndirici çıxışları da var ki, yazımızda həm bu barədə, həm də ümumən Birləşmiş Ştatların Ermənistanı himayəyə götürməsinin Cənubi Qafqaz bölgəsinə neqativ təsirlərindən söz açacağıq.

(ardı 3-cü səhifədə)

# Azərbaycan UNESCO Proqramı Şurasına üzv seçilib

Səhifə ⇨ 11

# Futbol millimiz millətimizi sevindirdi



Səhifə ⇨ 12

# Növbəti hədəfimiz yüksək gəlirli ölkələr qrupuna daxil olmaqdır

**Azərbaycanın Milli Prioritetlərində və 2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf strategiyasında qeyri-neft-qaz iqtisadiyyatını daha da inkişaf etdirmək, insan kapitalının inkişafı nəticəsində dünya iqtisadiyyatında mövqeyi gücləndirmək, yüksək gəlirli ölkələr qrupuna daxil olmaq hədəflənir.**

(ardı 7-ci səhifədə)



# Qəlpə yaralarının qəlb yarası

Səhifə ⇨ 10

## Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin fəaliyyəti ilə bağlı bəzi məsələlərin tənzimlənməsi və “Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin tabeliyində “Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 681 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin tabeliyində “Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti ləğv edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Fərmanın 1-ci hissəsinin icrası ilə əlaqədar üç ay müddətində:

2.1.1. normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq, “Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin əmlakı və digər məsələlərin həlli ilə bağlı tədbirlər görülməsini təmin etsin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görülməsini təmin etsin.

**4.** “Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin tabeliyində “Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 681 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 690; 2019, № 5, maddə 817; 2020, № 5, maddə 545; 2022, № 8, maddə 866) 2-ci, 4-cü və 5-ci hissələri ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 noyabr 2023-cü il**

# Milli Məclisin Sədri Qırğızıstanda

**Milli Məclisin Sədri Sahibə Qafarova Qırğızıstan Respublikasına işgüzar səfəri çərçivəsində Bişkekdə Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenko ilə görüşüb.**



Görüşdə Azərbaycan ilə Rusiya Federasiyası arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıq əlaqələri, habelə qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Valentina Matviyenko ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin əhəmiyyətini vurğulayaraq böyük infrastruktur layihələrinin reallaşdırılmasının müzakirə edildiyini qeyd edib. O, iki ölkə arasında münasibətlərin inkişafında qanunverici orqanların da rolunu diqqətə çatdırıb.

Parlamentin Sədri S. Qafarova regionda mövcud olan vəziyyət barədə geniş məlumat verib. O, 2020-ci ildə Azərbaycanın öz ərazilərini işğaldan azad etdikdən sonra Ermənistana sülh müqaviləsi imzalanmasını təklif etdiyini xatırladaraq deyib ki, Ermənistan bu müqaviləni imzalamaqdan boyun qaçırmaq üçün bütün vasitələrə əl atıb,

siyasi və hərbi təxribatlar törədib. Bunlara cavab olaraq, Azərbaycan bu ilin sentyabr ayında 24 saatdan az davam edən lokal antiterror tədbirləri həyata keçirib və özünün suverenliyini bərpa edib.

S. Qafarova qanunverici orqanlarımız arasında münasibətlərin mövcud vəziyyəti barədə də fikirlərini ifadə edib və bu işdə qarşılıqlı səfərlərin əhəmiyyətini diqqətə çatdırıb.

***Ə.BƏDƏLOV***
***XQ***

# Avrasiya Patent İdarəsinin prezidenti ölkəmizdə



**Noyabrın 16-da xarici işlər naziri Ceyhun Bayramov Avrasiya Patent İdarəsinin prezidenti Qriqori İvliyev ilə görüşüb.**

Görüş zamanı Azərbaycanda əqli mülkiyyət institutunun inkişafının ölkə rəhbərliyinin diqqət mərkəzində saxlanıldığı, sözügedən sahədə genişmiqyaslı struktur islahatlarının aparıldığı, idarəçiliyin optimallaşdırıldığı qarşı tərəfin diqqətinə çatdırılıb.

“Azərbaycan 2020: gələcəyə baxış inkişaf konsepsiyası”, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər” və “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası” kimi dövlət əhəmiyyətli sənədlərdə əqli mülkiyyət sahəsinin inkişafı istiqamətlərinə ayrıca yer verildiyi vurğulanıb.

APİ-nin prezidenti Qriqoriy İvliyev qeyd edilənlərlə həmfikir olduğunu deyib, əqli mülkiyyət sahəsində mümkün əməkdaşlığın müvafiq kadrların hazırlanması, patentlərin rəsmiləşdirilməsi, vahid standartların tətbiqi kimi geniş əhatə dairəsinə malik olduğunu diqqətə çatdırıb.

***XQ***

# Milli maraqlarımıza qəsd cavabını alacaq

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan nəinki 2020-ci ilin 44 günlük müharibəsindən sonra, hətta ərazilərinin işğal altında olduğu 30 ilə yaxın müddət ərzində də beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən sülh prosesinə sadiq olub. Əksinə, vasitəçilərdən biri olan ABŞ tərəfi, təcavüzkar və regionda sabitliyin pozulmasına səbəb olan Ermənistana beynəlxalq hüquqa uyğun davranması, heç vaxt çağırış etməməklə bağlı da məsuliyyət daşıyır. Bundan əlavə, ABŞ separatçı rejimi dəstəkləyən tərəf kimi sözügedən rejimi rəsmən maliyyələşdirən və müntəzəm şəkildə onların ABŞ-a səyahətlərini, bu ölkənin rəsmiləri ilə görüşlərini təşkil edən yeganə dövlət olmaqla, ikili standart yanaşmasının qarşısını almamağa görə də cavabdehdir.

Qeyd edilib ki, region ölkəsi olmayan ABŞ öz addımları və bəyanatları ilə bölgə ölkələrinin nəqliyyat təhlükəsizliyi səylərinə zərbə vurur. ABŞ tərəfinə yaxşı məlumdur ki, Ermənistanın 2020-ci il üçtərəfli Bəyanatın 9-cu bəndindən irəli gələn öhdəliklərini yerinə yetirməməsi Azərbaycanı alternativ yolların tikintisi ilə bağlı qərar verməyə sövq edib. Qonşu dövlətlərlə kommunikasiya xətlərinin çəkilməsi qaydasının razılaşdırılması, o cümlədən İranla Naxçıvan Muxtar Respublikasına marşrutla bağlı müqavilə Azərbaycanın suveren hüququdur. Bunun fonunda Azərbaycan da regionun təhlükəsizliyi üçün “3+2” formatının (Azərbaycan-Ermənistan-Türkiyə-Rusiya-İran) prioritet olduğunu bir daha təsdiqləyir. Bu istiqamətdə sözügedən səylərə xələl gətirən hər hansı bir şərh yersizdir.

Ceyms O’Braynın 907-ci düzəlişin icrasının müvəqqəti dayandırılması



məsələsi ilə bağlı şərhinə gəlincə, belə görünür ki, ABŞ tərəfi 1992-ci ildə təcavüzə və işğala məruz qalmış dövlət olmasına baxmayaraq, bu düzəlişlə sanksiyaya məruz qalan Azərbaycana qarşı etdiyi səhvi yenidən təkrarlayır. 2001-ci il 11 Sentyabr hücumlarından sonra Azərbaycan ABŞ-ın terrorla mübarizə səylərini dəstəklədiyi zaman həmin il 907-ci düzəlişin icrasının müvəqqəti dayandırılması qərarını verən də ABŞ tərəfi olub. Məhz Azərbaycan hava məkanı marşrutlarını və logistika imkanlarını, Şimal Paylayıcı Şəbəkəsini açmaqla ABŞ tərəfinə öz yardım əlini uzadıb. Əfqanıstanda ABŞ tərəfi ilə çiyin-çiyinə mübarizə aparan ilk dövlətlərdən biri də məhz Azərbaycan olub. Azərbaycan, eyni zamanda, Əfqanıstanı tərk edən sonuncu tərəfdaş ölkə idi. Lakin belə çıxır ki, ABŞ tərəfi həmişə Azərbaycanın dəstəyini müvəqqəti hesab edib. Amma unudulmamalıdır ki, tarix təkrarlana bilər. ABŞ tərəfinin 907-ci düzəlişin icrasının müvəqqəti dayandırılması məsələsi ilə bağlı belə laqeyd hərəkəti Azərbaycana qarşı bədxah addımdır.

Bundan əlavə, “Azərbaycanın gücdən istifadə etməsi etimadı sarsıdıb və Bakının Ermənistanla hərtərəfli sülhə sadiqliyinə şübhələr yaradıb” ifadəsi 30 ilə yaxın təcavüzün və gücdən istifadənin qurbanının məhz Azərbaycan olduğunu nəzərə alaraq heç bir dəyər daşımır. Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə əsasən suverenliyini və ərazi bütövlüyünü müdafiə etmək üçün gücdən istifadə etməklə bağlı legitim hüququ olduğunu bir daha vurğulayır.

Vaşinqtonun Azərbaycana münasibətdə ABŞ-ın təşəbbüsü ilə keçirilən yüksək səviyyəli ikitərəfli görüş və təmasları təxirə salması və “ikitərəfli münasibətlərimizdə “əvvəlki kimi” ola bilməz” bəyanatına gəlincə, qeyd etmək lazımdır ki, münasibətlər birtərəfli ola bilməz. Beləliklə, eyni yanaşma Azərbaycan tərəfindən də bərabər şəkildə tətbiq olunacaq. Belə bir şəraitdə ABŞ-ın Azərbaycana yüksək səviyyəli səfərlərinin mümkünlüyünü də yersiz hesab edirik.

Üstəlik, ABŞ-ın belə birtərəfli yanaşması onun vasitəçilik rolunu itirməsinə gətirib çıxara bilər. Bu şərtlər altında 2023-cü il noyabrın 20-də Vaşinqtonda Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri səviyyəsində keçirilməsi təklif olunan görüşün baş tutmasını mümkün hesab etmədiyimizi vurğulamaq vacibdir.

Diqqətə çatdırılıb ki, beynəlxalq hüququn norma və prinsipləri Azərbaycanın xarici siyasətində həmişə prioritet olub. Azərbaycan həmişə beynəlxalq öhdəliklərinə uyğun hərəkət edəcək. Eyni zamanda, Azərbaycan öz milli maraqlarına zidd olan bütün mənfi addımları qətiyyətlə və adekvat şəkildə cavablandıracaq.

***XQ***

# Baş nazirin “Rosselxoznadzor”un rəhbəri ilə görüşü

**Noyabrın 16-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyasının Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidmətinin (“Rosselxoznadzor”) rəhbəri Sergey Dankvertlə görüşüb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Azərbaycan-Rusiya qarşılıqlı münasibətlərinin hərtərəfli inkişafı, xüsusilə iqtisadi-ticari əməkdaşlığın genişləndirilməsi qeyd olunub.

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi ilə “Rosselxoznadzor” arasında ikitərəfli əməkdaşlığın yüksək səviyyədə olduğu məmnunluqla vurğulanıb.

Bildirilib ki, ötən dövrdə ticarət axını üzrə effektiv nəzarət sisteminin qurulması sahəsində bir sıra ciddi vəzifələrin konstruktiv həlli ilə əlamətdar olub ki, bu da qarşılıqlı ticarətin artmasına imkan verib. Cari ilin 10 ayı ərzində qarşılıqlı ticarətin həcminin 20 faizdən çox artması müsbət qiymətləndirilib.

Məmnunluqla qeyd edilib ki, 2023-cü ildə Azərbaycandan Rusiyaya kənd təsərrüfatı məhsulları və onların emalı məhsullarının ixracı 2022-ci illə müqayisədə dəyər ifadəsində 15 faizdən çox artıb. Qarşılıqlı tədarük zamanı nəzarət proseslərinin optimallaşdırılması üzrə birgə addımlar müsbət qiymətləndirilib.

Xüsusilə tərəflər Azərbaycandan Rusiyaya bir sıra kənd təsərrüfatı məhsullarının idxalına girişdə nəzarət prosedurlarının sadələşdirilməsinə dair razılaşmanı alqışlayıblar. Bu, ötən illərlə müqayisədə cari ildə Rusiyaya ixrac edilən məhsullarda aşkarlanan zərərvericilərin sayının xeyli azalmasına gətirib çıxaran birgə tədbirlər sayəsində mümkün olub.

Tərəflər hər iki ölkədə nəzarət sisteminin ekvivalentliyinin tanınması prosesində əldə olunan irəliləyişdən məmnunluq ifadə ediblər. Görüşdə, həmçinin heyvanlarda transsərhəd xəstəliklərlə mübarizə və onların profilaktikası üzrə əməkdaşlıq məsələləri müzakirə olunub.

Qida Təhlükəsizliyi Agentliyi ilə “Rosselxoznadzor” arasında heyvanlarda transsərhəd xəstəliklərlə mübarizə üzrə birgə tədbirlərə dair Protokolun imzalanmasının əhəmiyyəti qeyd olunub.

Görüşdə Rusiya Federasiyasının Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimov da iştirak edib.

***XQ***

# Ulu öndərin 100 illiyinə həsr olunmuş konfrans

**Noyabrın 16-da Şamaxıda ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilib.**



Konfransda Şamaxı, Ağsu, İsmayıllı və Qobustan rayon prokurorluqlarının əməkdaşları, hüquq mühafizə və digər dövlət hakimiyyəti orqanlarının nümayəndələri iştirak edib.

Tədbirdə Şamaxı rayon prokuroru Müşfiq Səfərov ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri, hüquqi dövlət quruculuğu mövzusunda çıxış edib. Konfransda həmçinin, Şamaxı rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov ulu öndərin zəngin siyasi və dövlət quruculuğu sahəsində əvəzolunmaz fəaliyyəti mövzularında çıxış edib.

***XQ***

# Prezidentin səlahiyyətli nümayəndəsi Şərurda



**Dünən Şərur şəhərinə gedən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli əvvəlcə burada salınan yaşayış komplekslərinin layihələri və inşaat işləri ilə maraqlanıb.**

Məlumat verilib ki, “NN Residence” tikinti şirkəti tərəfindən şəhərin Səməd Vurğun və Nizami küçələrində geniş əraziləri əhatə edən yeni yaşayış kompleksləri inşa olunacaq. Səlahiyyətli nümayəndə Heydər Əliyev prospektində inşası davam etdirilən yaşayış kompleksi ilə də tanış olub. Burada 6 mərtəbəli 6 yaşayış binası və 120 yerlik uşaq bağçası inşa olunur. Binalarda birotaqlı, ikiotaqlı, üçotaqlı və dördotaqlı olmaqla, ümumilikdə 240 mənzil istifadəyə veriləcək.

***

**Həmin gün Fuad Nəcəfli Şərur şəhərində yeni “Yaşıl bazar” ticarət kompleksinin açılışında da iştirak edib. O, kompleksdə yaradılan şəraitlə tanış olub.**

Kompleksə 132 mağaza, 18 rəfdən ibarət meyvə-tərəvəz satış məntəqəsi, kafe, eləcə də 6 texniki otaq daxildir. Yüzlərlə sakinin işlə təmin olunmasına hesablanmış yeni ticarət kompleksinin tikilib istifadəyə verilməsi Şərur rayonunda məşğulluq probleminin həllinə mühüm töhfədir.

Fuad Nəcəfli satışa çıxarılan təbii məhsulların qablaşdırılması və “Orqanik Naxçıvan” brendi adı altında geniş tanıdılmasının vacibliyini vurğulayaraq, bazarda fəaliyyətə başlayacaq hər bir sahibkara uğurlar arzulayıb.

***

**Sonda səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə Şərurda tikintisi nəzərdə tutulan şəhidlər memorial-abidə kompleksinin layihəsi təqdim olunub.**

Bildirilib ki, 1135 kvadratmetr ərazini əhatə edəcək kompleks üçün şəhər mərkəzində uyğun yer müəyyənləşdirilərək, qısa zamanda inşasına başlanılacaq. Kompleksin mərkəzində səkkizguşəli ulduz formasında abidə ucaldılacaq və ətrafında qövsvari memorial lövhələrdə torpaqlarımızın azadlığı uğrunda şücaət göstərmiş qəhrəman Şərur şəhidlərinin fotoları və onlar haqqında məlumatlar öz əksini tapacaq.

***Səbuhi HƏSƏNOV***
***XQ***

**Naxçıvan**

# ABŞ-ın "51-ci ştat"ı – Ermənistan

## Qərb–İrəvan "izdivacı" və Cənubi Qafqazda qlobal maraqlar

**(əvvəli 1-ci səhifədə)**

Nə Ermənistan dövləti, nə də cəmiyyəti o şüur və təfəkkür səviyyəsində deyil ki, Azərbaycanla, o cümlədən digər qonşularla normal münasibət saxlasın. Bunu amerikalılar yaxşı bilirlər. Türkiyəni, İranı, Rusiyanı bir kənara qoyaq, hətta Gürcüstan belə erməni avantürizmindən sığortalanmayıb. ABŞ-ın "dəstək aksiyası" isə heç şübhəsiz, erməni avantürizmini körükləyəcək. Vaşinqtonda bunu düşünməlidirlər. Düşünməli və sual etməlidirlər: Cənubi Qafqazda sülh yaranacaqmı?

Yeri gəlmişkən, Birləşmiş Ştatlar Ermənistana dəstək aksiyası ilə eyni zamanda ölkəni Fransanın himayəsindən qoparmış durumdadır. Vaşinqton Parisin indiyədək gerçəkləşdirdiyi ermənipərəstlik siyasətinə də kökündən zərbə vurur. Axı, Ağ ev Prezident Emmanuel Makron administrasiyasının təəssübkeşliyindəki mənasızlığın yerini əməli addımlarla doldurmaq əzmini nümayiş etdirir. Bir sözlə, Ermənistanı Fransanın "güllü ətəyindən" götürüb öz qucağına qoyur. Əlbəttə, məsələ böyük iddialarda olan Makronu düşündürməlidir və düşündürəcək də.

### İrəvanın Moskvadan "müdafiə çətiri" və ya Qərbin Ermənistan üçün Gürcüstan ssenarisi

Bəli, ABŞ-Ermənistan hökumətlərarası məsləhətləşmələri nəticəsində verilmiş qərarlar ikincinin Rusiyadan "müdafiə çətiri"dir. Amma ilk baxışdan. Həmin qərarlara diqqət yetirək. Preambula belədir ki, Rusiya Ermənistana təzyiq göstərərsə və ya embarqo tətbiq edərsə, ABŞ Ermənistana güclü dəstək verəcək. Razılaşmalara əsasən söhbət aşağıdakı məsələlərdən gedir:

1. Ermənistanın dizel yanacağı və lazımi enerjidaşıyıcılarla təminatı;

2. "Metsamor" Atom Elektrik Stansiyasının Rusiyadan alternativ nüvə yanacağı ilə təmin edilməsi (hazırda bu təminata "Rosatom" cavabdehdir). Birləşmiş Ştatlar, həmçinin, AES-in idarə edilməsi və istismarının təmin edilməsi üçün Ermənistana bütün lazımi texniki dəstəyi göstərməyə hazırdır;

3. Rusiya Federasiyasından buğda və buğda unu idxal edən Ermənistanın müvafiq alternativ təchizatla təminatı;

4. Ehtiyac yaranacağı təqdirdə, Ermənistanın internet provayderləri ABŞ-nin peyk interneti ilə təmin olunacaqlar;

5. Rusiyanın mümkün kəskin sanksiyaları nəticəsində xarici valyuta kəsiri yaranarsa, Birləşmiş Ştatlar Ermənistanda valyutanın mümkün defisitini qarşılamağa hazırdır;

6. Ermənistan ordusu lazımi hərbi texnika, uniforma və silahlarla təmin olunacaq, ölkənin təhlükəsizlik orqanları, o cümlədən polisi lazımi texniki dəstək alacaq.

Qeyd edək ki, Birləşmiş Ştatlar İrəvanın bütün yuxarıda göstərilmiş bəndlər üzrə, hətta artıqlaması ilə Vaşinqtondan dəstək alacağına zəmanət verir. Yəqin, təsəvvür edirsiniz ki, Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında, Avrasiya İqtisadi İttifaqında təmsil olunan Ermənistanın ABŞ-dan bu qədər genişmiqyaslı yardım paketindən bəhrələnməsi nə deməkdir. Deməli, Paşinyan özünün anti-Rusiya xəttini heç bir diskomfort hiss etmədən davam etdirə biləcək. Düşünməyəcək ki, Moskva onu hansısa formada sıxa bilər.

Bəs, Ermənistan bundan sonra Rusiyaya qarşı hansı konkret addımları atacaq? Əlbəttə, adını çəkdiyimiz bloklardan uzaqlaşmaq əsasdır. Ən əsas məsələ isə Ermənistandakı 102-ci Rusiya hərbi bazasının ərazidən çıxarılmasıdır. Heç şübhəsiz, Paşinyan bununla bağlı ara-sıra etdiyi zümzümələri açıq fazaya keçirəcək. Necə ki, Qarabağdakı Rusiya sülhməramlılarının lazımsızlığını bildirirdi, eyni ritorikanı Gümrüdəki hərbi bazanın üzərinə daşıyacaq.

Digər məqama diqqət yetirərək Rusiyanın hazırkı durumda Ermənistana qarşı hansı addımlar ata biləcəyi üzərində dayanaq. Yada salaq ki, rəsmi Moskvanın nümayəndələri son zamanlar çox tez-tez Ermənistanın iqtisadi baxımdan güclü inkişaf etdiyinə dair fikirlər səsləndirməkdə idilər. Bunu Prezident Vladimir Putin də dilə gətirmişdi. Son dəfə isə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov məsələyə kifayət qədər ciddi vurğu qoymuş və bildirmişdi ki, dünyada heç bir ölkə Ermənistan qədər iqtisadi inkişaf tempinə malik deyil. İlk baxışdan Kreml təmsilçilərinin belə fikirlər söyləməsi qəribə görünürdü. Amma indi hər şey üzə çıxır. Məlum olur ki, Paşinyan və komandasının haqqında fəxrlə danışdıqları iqtisadi artım Şimaldan gələn maliyyə axını və güzəştli Rusiya xammalı üzərində qurulub. Əlbəttə, Kremldə bunu çox yaxşı görürlər və ona görə də istər Putinin, istər Peskovun, istərsə də digərlərinin xatırlatmaları erməni iqtidarına eyhamlar idi. Təxminən belə: Ermənistana yaxşı dolanışıq lazımdırsa, onu təmin edirik. Ölkə heç yerə boylanmasın. Yeri gəlmişkən, Putin və komandası zamanında Qarabağla bağlı da İrəvana xoş mesaj göndərmişdi. Amma görünən budur ki, Paşinyan nəticə çıxarmadı.

Hazırda Ermənistanın nəticə çıxarmadığının ən böyük göstəricisi ABŞ-la məlum sövdələşmələrin aparılmasıdır. Belə olan halda Rusiya hansı addımları atacaq? Nəzərə alaq ki, Vaşinqton sözügedən sövdələşmələrlə, faktiki olaraq, Moskvanın İrəvana bütün mümkün təzyiq rıçaqlarını heçə endirməkdədir. Bu yerdə rus telekanallarındakı siyasi tok-şouların anti-Paşinyan məntiqi heç nəyə yaramır. Reallığa əsaslanıb sual verək: Ermənistan malları üçün Rusiya bazarları tam şəkildə bağlanacaqmı?

Vaşinqton-İrəvan məsləhətləşmələrindəki taxıl məsələsinə gəlincə, Azərbaycanın ərazilərini işğaldan azad etməsindən sonra Ermənistanın ərzaq təhlükəsizliyi problemi xüsusilə kəskinləşib. Məlum olduğu kimi, Qarabağdakı separatçı rejim ərazilərimizdə qeyri-qanuni şəkildə taxıl yetişdirilməsi ilə məşğul olurdu. Təsəvvür edin, Ermənistanın taxıl tələbatının 80 faizini işğal edilmiş ərazilər ödəyirdi. Sonra İrəvan boşluğu Rusiyanın hesabına doldurmağa başladı. Bəs indi?

Hesab etmirik ki, hazırkı durumda Kreml emosiyalara qapılıb qeyri-rasional addımlar atacaq. Amma nə isə etməlidir. Əks halda, "Ermənistan qatarı"nın ondan sürətlə uzaqlaşmasının qarşısını almaq mümkünsüzə çevriləcək. Ümumən, Rusiya Ermənistan vasitəsilə ona Cənubi Qafqazda vurulan zərbəni aradan qaldırmağa, sadəcə, məcbur durumdadır. Necə ki, Ukrayna ilə müharibəyə girişmək məcburiyyətində qaldı, indi də oxşar vəziyyət yaşanmaqdadır. Ancaq Ukraynadan fərqli olaraq, Cənubi Qafqaz müstəvisində bir çox amillər Kremlin xeyrinə kimi görünür. Yəni silahları dindirməyə ehtiyac yoxdur. Yəni Qərbin bölgədə İrəvana fokuslanaraq geosiyasəti dəyişmək cəhdinə qarşı təbii müqavimət var.

Haşiyə çıxaq ki, Qərb vaxtilə Gürcüstanda Mixeil Saakaşvilini hakimiyyətə gətirməklə həyata keçirdiyi fəaliyyəti, indi Ermənistan üzərinə kökləyib. O zaman da gürcü polislərinin maaşını ABŞ Dövlət Departamenti ödəyirdi, indi də təxminən elə bir gözlənti var. O zaman da ABŞ uniformasında olan gürcü ordusu Rusiyanı yenəcəyini düşünmüşdü, indi də durum aşağı-yuxarı eynidir.

Hazırda Ermənistan Azərbaycana qarşı müharibəyə hazırlaşmaqda, silah-sursat toplamaqdadır. Yəni, ölkənin hədəfi bəllidir. Görəsən, Birləşmiş Ştatlar bunu düşünürmü? Yoxsa, kollektiv Qərb özünün qlobal neft-qaz, enerji maraqlarını da Ermənistanın işğalçılıq niyyəti ilə gerçəkləşdirməyə girişib? Çox güman, ABŞ-da İrəvanı hansı oyuna saldıqlarının fərqindədirlər. Vaşinqtonun oyununun incəliklərinə gəlincə, bununla bağlı artıq bəzi məqamlar səslənməkdədir.

### Qərbin anti-Azərbaycan kursu və Cənubi Qafqazda siyasi şəkillənmə

"Biz açıq şəkildə dedik ki, sentyabrın 19-dan sonra sülhün bərqərar olması istiqamətində irəliləyiş görməyincə, Azərbaycanda heç bir şey normal davam etməyəcək". Belə bir "siyasi ekstravaqantizmə" söykənmiş açıqlamanın müəllifi ABŞ Dövlət Departamenti rəhbərinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayndır. Bu şəxsin başqa nələrdən söz açmasına diqqət yetirəcəyik. Hələlik isə onu bildirək ki, Azərbaycanın sentyabrın 19-da keçirdiyi uğurlu antiterror tədbirləri ilə suverenliyinə qovuşması kollektiv Qərbin, loru dildə desək, kürkünə birə salıb. Belə görünür, "qaşınanlardan" biri də C.O'Brayndır. O, əslində yuxarıdakı fikri ilə bir sıra mətləblərə aydınlıq gətirir. Məlum olur ki, Avropa İttifaqının himayəsi ilə kollektiv Qərbin antiterror tədbirlərinədək Azərbaycan-Ermənistan nizamlamasındakı istəyi Qarabağdakı status-kvonu – separatçılığı saxlamağa xidmət edirmiş. Deməli, Azərbaycanın qətiyyəti maskaların yırtılmasına səbəb olub. İstər O'Braynın fikirləri, istərsə də Aİ-nin təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Jozep Borrelin üç gün əvvəl açıq tekstlə Bakıya hədə-qorxu gəlməsi bunun göstəricisidir. Əslində, ikinci kimi birinci də hədə-qorxu gəlməklə məşğuldur.

Qeyd edək ki, Birləşmiş Ştatlar rəsmisi fikirlərini ölkə Konqresinin Nümayəndələr Palatasında Qarabağla bağlı keçirilmiş dinləmələr zamanı açıqlayıb. Onun sözlərindən biri bu olub ki, ABŞ və Avropa Ermənistanı transatlantik birliyə yaxınlaşdırmaq üçün birgə plan hazırlayır. Heç şübhəsiz, bu plan İrəvanı hərbi baxımdan gücləndirmək niyyətidir. Yəni, faktiki olaraq ABŞ–Ermənistan məsləhətləşmələrində nəzərdə tutulanlardan biri də budur. Həm də ona görə budur ki, O'Braynın İrəvanı transatlantik məkana yaxınlaşdırmaq məntiqi Avropa İttifaqının ticarət və iqtisadi əməkdaşlıq üstünlüklərinin Ermənistan naminə səfərbərliyini nəzərdə tutur. Beləliklə, İrəvan üçün Avropa bazarı Rusiya bazarına alternativ kimi irəli sürülür. Birləşmiş Ştatlar rəsmisi ABŞ-ın və Avropanın Ermənistanın təhlükəsizliyinin təminatı baxımından əlavə tədbirlər üzərində işlədiyini təsadüfən bildirmir. Axı, siyasi müstəqillik yolu iqtisadi müstəqillikdən keçir. O'Braynın təbirincə desək, erməni xalqına çətin vəziyyətdən çıxmağa, onun cəsarətlə qəbul etdiyi qərarların daha təhlükəsiz və firavan gələcək qurmasına kömək lazımdır. Daha doğrusu, Ermənistana Rusiyadan ayrılmanın mükafatı verilməlidir. Bu mükafat nə vaxtadək veriləcək, ölkə haçanacan mataha çevrilib Avropanın artıq-urtuğu ilə doyuzdurulacaq, bunu zaman göstərəcək...



Bəli, qeyd etdiklərimiz Konqresdəki Qarabağ dinləmələri fonunda ortaya çıxan reallıqlardır. Deməli, Vaşinqtonda Ermənistan amili Qarabağ kimi assosiasiya olunur ki, heç şübhəsiz bu, bölgənin suveren Azərbaycan ərazisi qismində qəbullanmasına və dünyanın ictimai şüurunda özünə yer tapmasına maneçilik törədən ciddi faktorlardandır. Sən demə, Qarabağ və Ermənistan müzakirəsinin sanksiya məntiqi də var imiş. Sanksiyanın hədəfi isə şübhəsiz ki, Azərbaycandır. Doğrudur, O'Brayn mövcud istiqamətdəki suala bir qədər yayğın cavab verib. Amma cəza şəklində sanksiya tədbirinə əl atılacağını istisna etməyib. "Biz bütün mövcud vasitələrə baxırıq. Mümkün sanksiyalarla bağlı proqnozlar verməyəcəyəm, lakin bu, əlbəttə ki, bizim arsenalımızın elementidir", - deyən Birləşmiş Ştatlar rəsmisi onu da bildirib ki, ABŞ dövlət katibinin göstərişi ilə Qarabağda təkcə bu günlərdə deyil, həm də bundan əvvəlki aylarda baş verənlərin dərin, hərtərəfli şəffaf hesabatı hazırlanır və prosesə beynəlxalq qeyri-hökumət təşkilatları və müstəqil ekspertlər cəlb olunub. Sənədin yaxın günlərdə dərci gözlənilir. Belə qənaətə gəlirik ki, Ermənistana Rusiyadan ayrılmanın mükafatı Avropa bazarları ilə yanaşı, həm də Qarabağ olmalıdır. Yəqin elə buna görə də O'Brayn Rusiya sülhməramlı kontingentinin bölgədən çıxmalı olduğunu deyir. Görünür, "qarnı və gözü tox" erməni xalqının, dəqiq desək, erməni iqtidarının cəsarəti həm də Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın ləğvi olmalıdır. Nəzərə alaq ki, rus qoşunları məhz həmin sənədə görə 2025-ci ilədək Qarabağda qalmalıdırlar. Bəs, onların yerini kim tutmalıdır? ABŞ rəsmisinin nə dediyinə diqqət yetirək: "Rusiya qoşunları hazırda oradadır. Əgər Ermənistan və Azərbaycanın alternativi olarsa, o zaman Rusiya sülhməramlılarına artıq ehtiyac qalmayacaq".

### Sülh müqaviləsi, yoxsa lakmus kağızı

Görəsən, Azərbaycanın və Ermənistanın alternativi nə olmalıdır? Ümumən, nə üçün alternativ olmalıdır? Qarabağ Azərbaycanın deyilmi? Çox da düşünmədən bu suallara cavab tapmaq mümkündür. Aİ Şurasının Prezidenti Şarl Mişel bir müddət əvvəl BMT sülhməramlılarından bəhs etmişdi. Nəzərə alaq ki, hazırda BMT-də anti-Azərbaycan qətnamənin qəbulu ilə bağlı hazırlıqlar gedir. Heç şübhəsiz, həmin sənəddə haqqında söz açdığımız sülhməramlı məsələsi də yer alacaq. Bunu demək üçün əsaslar var. Kollektiv Qərb hazırda Ermənistanın Qarabağ avantürasının davamını bölgə əhalisinin tərk etdikləri ərazilərə qayıdışında görür. Qayıdış isə elə olmalıdır ki, proses Qarabağ ermənilərini ayrıca imtiyazlı təbəqə kimi rəsmiləşdirsin. Yəni, şərt kimi onların beynəlxalq hüquq və təhlükəsizlik təminatlarının mövcudluğu götürülür. Bu o deməkdir ki, prinsipial məqam Azərbaycanın konstitusyon əsasda verdiyi təminatların nəzərə alınmamasıdır. Elə lap əvvəldən də nəzərə alınmamışdı ki, Qarabağ erməniləri apar-topar bölgəni tərk etmişdilər. İndi Vaşinqtonun Cənubi Qafqaz üzrə sülh müqaviləsinin imzalanmasına sadiqliyindən danışan C.O'Braynın Azərbaycana hədə-qorxusu da bununla bağlıdır. O deyir ki, qarşıdakı bir neçə həftə həlledici, tərəflərin "hə" deməyə keçib-keçməyəcəyini yoxlamaq baxımından sınaq olacaq: "Sentyabrdan bəri ABŞ-dan İrəvana və Bakıya 13 yüksək səviyyəli səfər edilib. Biz türkiyəli tərəfdaşlarımızla da işləyirik. Dedik ki, 19 sentyabr hadisələrindən sonra sülh prosesində real irəliləyiş görməyincə, Azərbaycanla bağlı heç nə normal olmayacaq".

Qeyd edək ki, ABŞ rəsmisi yuxarıda sitatdakı fikri işlədər-işlətməz şantajın ikinci mərhələsinə keçid alır və ABŞ Konqresinin Azadlığa Dəstək haqqında akta 1992-ci ildə qəbul etdiyi 907-ci düzəlişi yada salır. Bildirək ki, ABŞ-ın Azərbaycana birbaşa dövlət yardımını qadağan edən bu düzəlişin hüquqi qüvvəsi 2001-ci ildən, yəni ölkəmizin terrorizmlə mübarizəyə dəstək verməyə başladığı vaxtdan etibarən hər il dayandırıla bilir. O'Brayn isə vurğulayır ki, dayandırılmanın aradan qaldırılması, dəqiq desək, Azərbaycana yardımın, o cümlədən, hərbi yardımın kəsilməsi sülhü təşviq etmək məqsədi daşıyır. Bu da ədalət! Bəs, niyə indi sülh vacibdir? Çünki "ilk növbədə, iqtisadi baxımdan. Mərkəzi Asiya öz malları üçün yeni marşrutlar axtarır".

### ABŞ-ın min oyunu bir armudun başındadır, yaxud Ermənistan üçün qlobal nəfəslik

Qərbin Ermənistan üzərindən oynadığı oyunun daha bir hədəfinə keçid alaq. O'Brayn Mərkəzi Asiya mallarının Avropaya daşınmasından söz açırsa, əlbəttə, söhbət həm də Çin mallarının idxalından gedir. Nəzərə alaq ki, burada Azərbaycanın "Zəngəzur dəhlizi" kimi siyasi leksikona daxil etdiyi, digər ərazilərimizi Naxçıvanla birləşdirən quru yolunun son dərəcə böyük əhəmiyyəti var. Məlum 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatda həmin yoldakı təhlükəsizlik təminatçısı Rusiya göstərilir. Ermənistan hakimiyyəti hazırda məhz bundan imtina edir və "Dünya kəsişməsi" layihəsini ortaya ataraq, dövlət suverenliyi amilini qabardaraq bəyan edir ki, Azərbaycanın qərb rayonlarını Naxçıvanla birləşdirəcək marşrutda təhlükəsizliyə cavabdeh ölkənin özü olmalıdır. Əlbəttə, rəsmi Bakı məsələnin belə qoyuluşuna razı deyil və alternativ variant kimi sözügedən yolun İrandan keçməsini irəli sürür. Çox güman, Tehranın da buna razılığı var. Türkiyə və Şərq aktorları, o cümlədən Çin üçün məsələnin elə bir önəmi yoxdur, təki yol olsun. Ancaq ABŞ başda olmaqla Qərb dünyası belə gedişatı qəbul etmir. Niyə? Səbəb çox sadədir. Məqsəd birincisi Rusiyanı, ikincisi isə İranı kənarda qoymaq. Əslində ilk baxışdan, Azərbaycana da fərq olmamalıdır. Ancaq ilk baxışdan. Çünki məsələ yalnız torpaq basma amili üzərində deyil. Ölkəmiz yaxşı dərk edir ki, təhlükəsizlik təminatının Ermənistanda olması həm onun iqtisadi iştahasını artıracaq, həm də güclü inkişafına səbəb olacaq ki, bu isə gələcəkdə ölkəmizə qarşı ərazi iddiaları doğura bilər. Ən əsası isə qlobal layihədə İrəvanın təhlükəsizlik təminatçısı kimi missiyaya sahiblənməsi gələcəkdə bu layihəni demorilizə etmək, yeni oyun qaydaları irəli sürmək şansıdır. Bakı nəzərə alır ki, Ermənistan müstəqil siyasət yürütmür, onun hər an kənar təsirlərə düşüb pozuculuğa keçməsi mümkündür. Digər tərəfdən isə ümumən Rusiyanın və İranın oyundan kənar duruma salınması regional aktorların rolunu heçə saymaqdır ki, bu da ölkəmizin balanslı siyasət kursuna tam zidd təmayüldür.

Bəli, mövcud durumda beynəlxalq aləmdə hər kəs Orta Dəhliz ideyasının reallaşdırılmasının vacibliyini anlayır. Ukrayna müharibəsi səbəbindən Rusiyadan keçən daşınma marşrutunu əldən verən Qərb üçün də məsələ son dərəcə aktualdır. Ermənistan iqtidarı bu aktuallıq fonunda özünün anti-Rusiya cəbhəsindəki dirəniş, demokratiya qalası missiyasına fokuslanır. Əlbəttə, odla oynayır.

İrəvan Qərbin İrana antipatiyası üzərinə də siyasi sərmayə yatırmaqla məşğuldur. Hərçənd, Tehranla açıq konfrantasiyadan çəkinir. Ola bilər ki, gələcəkdə çəkinməsin. Çünki Birləşmiş Ştatlar təmsilçisi, yəni ABŞ Dövlət Departamentinin rəsmisi C.O'Brayn deyir ki, əgər Ermənistan ərazisindən dəhliz gücdən istifadə etməklə və ya İranın iştirakı ilə açılsa, o zaman buna qarşı çox ciddi dirəniş olacaq və təşəbbüs uğurlu alınmayacaq. Nəhayət, "ardınca Ermənistan və Azərbaycanın seçimi sualı gəlir. Onlar gələcəkdə hansı siyasi münasibətlərin olmasını istəyirlər? Gələcəyi regional təhlükəsizliyin əsas oyunçuları kimi Rusiya və İran oxu ətrafında qurmaq istəyirlərmi?" dilemmalarını səsləndirən departament rəsmisi ölkəsinin mövqeyini ortaya qoyaraq hesab edir ki, region ölkələrinin Tehranı və Moskvanı seçməsi Cənubi Qafqaz, xüsusən Ermənistan və Azərbaycan hökumətləri üçün qeyri-sabit və arzuolunmaz durum formalaşdıracaq. O, həmçinin vurğulayır ki, Bakının və İrəvanın hazırda fərqli seçim etmək imkanı var və Vaşinqton yüksək səviyyəli əlaqələr vasitəsilə məsələni aydınlaşdırmağa çalışır.

### ABŞ Türkiyəni vasitəçi kimi görür, O'Braynın "indi hər şey Əliyevdən asılıdır" məntiqi ...əvvəllər danışıqlar masasına gətirilməyən nədir?

Deməli, başlıca məqam Azərbaycanın hansı yolu tutmasıdır. Əslində, O'Braynın diqqətə çatdırdığımız fikirləri də sırf ölkəmizə yönəlik xəbərdarlıqdır. Yəni, bu, o deməkdir ki, Birləşmiş Ştatlar Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yolu Bakı-İrəvan sülh razılaşmanın tərkib hissəsi kimi görməkdədir. Ermənistanla bağlı hər şey məlumdur. Bunu O'Brayn da çıxışına pafos qatıb N.Paşinyanı öyərək bildirir, çox əminliklə Nikolun münasibətləri şaxələndirəcəyini deyir və məsələni "erməni xalqının öz azadlıq baxışlarına uyğun gələcək seçə bilməsi" adlandırır: "Görünür, onun (Paşinyanın – red.) həqiqətən sülh arzusu var. Sual olunur ki, Prezident Əliyev də eyni şeyi istəyir?"

Bəli, amerikalılar Prezident İlham Əliyevin mövqeyinə təsir baxımından Türkiyəni əsas götürürlər. O'Braynın fikirlərindən belə qənaətə gəlmək mümkündür. Digər tərəfdən, Vaşinqtonun Ankaranı İrəvana münasibətdə loyallaşdırmaq cəhdləri var. Konqresdəki dinləmələrdən bu nəticə hasil olur ki, mövcud xüsusda Türkiyəni şantaj istəkləri də aktualdır. Məsələn, konqresmenlər O'Brayndan Türkiyəyə satılmış Amerika silahlarının Azərbaycana kömək üçün Ermənistana qarşı istifadə olunmasına nəzarət edilib-edilmədiyini soruşublar. Departament rəsmisi isə əminliklə bildirib ki, Azərbaycana qanunsuz silahların daşınması ilə bağlı müşahidələr qeydə alınmayıb. Amma...

Birincisi, "Biz Ermənistan-Türkiyə münasibətlərində sərhədlərin açılacağına ümid bəsləyirik. Ermənistanın dənizə çıxışı olmadığından, ölkə Qərbə çatmaq üçün Gürcüstan və ya Türkiyədən keçməlidir. Hesab edirəm ki, Türkiyənin öz marşrutlarını açması Ermənistanın gələcəyi baxımından həlledici olacaq. Biz bütün bunları müzakirə etməyə çox vaxt sərf edirik".

İkincisi və ən əsası, "Türkiyə ilə Azərbaycan arasında münasibətlərə gəlincə, bir neçə mühüm məqam var. Orta Asiyadan gələn, Azərbaycan və Ermənistan ərazisindən keçməli olan yol Türkiyəyə çatacaq və bu yolun son nöqtə olması Türkiyənin iqtisadi maraqlarına uyğundur. Bu, əvvəllər sülh masasına gətirilməmiş elementdir və biz buna böyük diqqət yetiririk".

Göründüyü kimi, ABŞ Azərbaycan-Ermənistan münasibətləri, o cümlədən nəzərində tutduğu sülh gündəliyi baxımından yeni oyun qaydaları müəyyənləşdirməyə çalışır. Birləşmiş Ştatlar istəyir ki, Türkiyəni regional platformada tam ayrı tutsun və yuxarıda da bildirdiyimiz kimi, Ankaranın köməyi ilə Bakının mövqeyində yumşalmalara nail olsun. Baxın, O'Brayn konspriologiyaya vararaq deyir: "Biz Türkiyə ilə bu məsələ ilə bağlı ünsiyyətdəyik və Ankaranın bu müzakirələrdə konstruktiv iştirakı son dərəcə faydalıdır, çünki Əliyev mütləq bilmək istərdi ki, o, bu qərarı tək qəbul etmir və onu çoxdankı tərəfdaşı dəstəkləyir. Bu, Türkiyənin bu danışıqlarda müstəsna roludur".

Əlbəttə, Türkiyə Cənubi Qafqazda maraqlı olan lider dövlətlərdəndir. Onun marağı İran və Rusiya kimi regional aktorlar tərəfindən də qəbul edilir. Ancaq regiondakı bu maraqlar balanslaşdırılmış əsaslara malikdir və heç bir qlobal avantüra üçün meydan tanımır. Hazırda Azərbaycanın və Türkiyənin irəli sürdüyü "3+3" regional platforması da məhz bu siyasi təfəkkürün məhsuludur. Yeri gəlmişkən, həmin platformada, könülsüz görünsə də, Ermənistan da iştirak edir. Amma indi ABŞ-Ermənistan hökumətlərarası məsləhətləşmələrinin gündəliyi "3+3"ün rəhbər tutduğu prinsipləri heçə saymaqdır. Vaşinqton isə istəyir ki, Türkiyə birbaşa onun tərəfində dayansın. O'Brayn konqresmenlərin sorğusuna cavab olaraq Türkiyəyə verilmiş ABŞ silahlarının Ermənistana qarşı istifadə olunmadığına əminlik yaradır. Bunu indi deyir. Bəs, Ağ evin "O'Braynın manifesti" şəklində açıqladığı Cənubi Qafqaz planı baş tutmasa, necə olacaq? Amerika heç bir əsası olmadan İraqda kimyəvi silahın mövcudluğunu iddia edən, sonra minlərlə qətllərə görə bir üzrxahlıq işini bitmiş sayan ölkədir. Ondan nə desən gözləmək olar. Yəni, Türkiyəni də ittiham etməsi mümkündür. Hər halda, koqresmenlər boş yerə planlı olmayan sual verməzlər...

Sonda onu da bildirək ki, Cənubi Qafqaz müstəvisində hansı proseslərin yaşanacağını söyləmək çətindir. Ancaq yuxarıda sadaladıqlarımıza görə durumun kifayət qədər, mürəkkəb və ziddiyyətli olduğunu deməyə əsas var. Bu mürəkkəblik və ziddiyyətlər fonunda ortaya çıxan başlıca məqam Qərbin, o cümlədən ABŞ-ın riyakarlığı, aşkar ermənipərəstliyidir. Göründüyü kimi, Azərbaycanın öz suveren haqlarına sahiblənməsi, ərazi bütövlüyünü tam bərpa etməsi beynəlxalq gücləri ölkəmizə qarşı hərəkətə keçirib. Ancaq biz siyasi şantajlara öyrəşikliyik. Azərbaycan dövləti illərdir ki, bu reallıqlar şəraitində fəaliyyət göstərməkdə və özündə müqavimət formalaşdırmaqda, immunitet yaratmaqdadır. Ona görə hazırkı siyasi təhdidlərin də ölkəmizi haqq yolundan döndərə bilməyəcəyi birmənalıdır. Azərbaycanın Xarici İşlər Nazirliyinin dünən yaydığı bəyanat da fikrimizin təsdiqidir.

***XQ-nın analitik qrupu***



# 20 il: milli dövlətçiliyin yeni mərhələsinə doğru

## Fəlsəfi-sinergetik təhlil

(əvvəli 1-ci səhifədə)

**Lider açıq oynayır...Lider arxasınca aparır...**

***Teodor Ruzvelt***

Beləliklə, bu məsələnin həm nəzəri-politoloji, həm də siyasi-diplomatik-praktiki aspektləri vardır. Onların ayrılıqda və sintez halında Liderin şəxsiyyətində və siyasi fəaliyyətində bir-birini tamamlaması mühüm faktor kimi qəbul edilir. Bu prizmadan baxanda fəlsəfi-sinergetik kontekstdə bir sıra aktual məqamlar meydana çıxır. Həmin məqamların sırasında biz "liderliyin sinerjisi" adlandırdığımız bir özəllik üzərində dayanmağa çalışacağıq. Amma, əvvəlcə siyasi və strateji proqnozlaşdırmanın mahiyyətinə diqqət yetirək.

Ümumiyyətlə, siyasi proqnozlaşdırma siyasi proseslər və hadisələrin mexanizmlərini səbəb-nəticə zəncirində anlamaq üçündür. Bununla yanaşı, siyasi proqnozlaşdırma geosiyasi situasiyanın qiymətləndirilməsi baxımından əhəmiyyətlidir. Bu zaman beynəlxalq münasibətlərin dəyişmə tendensiyalarını müəyyənləşdirmək əhəmiyyətlidir. Həmin kontekstdə bir tərəfdən siyasi kursu müəyyənləşdirərkən riskləri, təhlükələri və potensial imkanları nəzərə alaraq onlar arasında optimal nisbəti qura bilmək, digər tərəfdən isə ölkələr, siyasi partiyalar və siyasi liderlər arasında uzlaşma ehtimallarını və münaqişələri müəyyən etmək mühüm yer tutur.

Siyasi proqnozlaşdırma sinergetik aspektdə çoxpilləli, mürəkkəb və çoxaspektli ciddi əsaslar tələb edən dinamik prosesdir. Burada söhbətin daxili və ya xarici siyasətdən getməsinin fərqi yoxdur. Proqnozlaşdırmada siyasətin çoxlu sayda faktoru arasında qarşılıqlı əlaqələri, qarşılıqlı təsirləri nəzərə almaqla yanaşı, məsələnin iqtisadi, sosial və mənəvi tərəflərini də diqqətə almaq zərurəti vardır. Bu o deməkdir ki, əgər söhbət əsaslı, ciddi və real proqnozlaşdırmadan gedirsə, o, nəzəriyyədən çıxış etməlidir. Liderlikdə bu məqam siyasi liderin nəzəriyyə ilə praktikanı sintez edə bilmək qabiliyyətinin vacibliyini ifadə edir. Eyni zamanda, lider nəzəriyyədə meydana gələn yeni yanaşmaları dərindən bilməli, onların konkret situasiyalara tətbiqinə nail olmalıdır. Bu da özlüyündə uğurlu olmaq üçün liderin strateji analitik zəkaya sahib olması məsələsini aktuallaşdırır. Strateji zəkaya sahib olmağın yeganə təsdiqi isə praktiki siyasi-diplomatik və idarəetmə fəaliyyətində alınan konkret nəticələrdir!

Proqnozlaşdırmanın sinergetik və siyasi-nəzəri aspektlərinə dərindən nüfuz etmək imkanı burada yoxdur. Ancaq bir aktual özəlliyi vurğulamaq gərəkdir. Siyasi proqnozlaşdırma iki qrupa bölünür: axtarış xarakterli və normativ proqnozlaşdırma. Strateji xarakterli siyasi proqnozlaşdırma axtarış qrupuna aiddir. "Axtarış" termini özlüyündə proqnozlaşdırmanın dinamikliyi ilə yanaşı, açıqlığı, ehtimali xarakterli olması və müxtəlif təkamül ssenarilərinin mövcudluğunun nəzərə alınmasını ifadə edir. Sinergetik baxımdan bunlar mühüm məqamlardır. Deməli, liderin strateji proqnozlaşdırması da həmin faktorları nəzərə almağı ciddi surətdə tələb edir.

Müasir mərhələdə bir nümunəni vurğulamaqla problemin nəzəri aspektinə yekun vuraq. ABŞ-ın RAND analitik şirkəti "Delfi Metodu" adlandırılan analitik-proqnostik metod hazırlamışdır. Burada sinergetikada prinsipial mövqeyi olan əks-əlaqə prinsipindən istifadə olunur. Budan başqa, həmin metodda çoxpillələlik və strukturlaşma pinsiplərindən də yararlanırlar.

Ümumilikdə isə RAND "beyin həmləsi" (ingiliscə - "brainstorming", rusca – "мозговой штурм") metodunu geniş tətbiq edir. "Beyin həmləsi" ideyaların kollektiv generasiyası prinsipinə əsaslanır. Konkret olaraq, daha çox unikal və yeni həll yolları tapmaqla onlardan praktikada daha səmərəli olanları müəyyən etmək və tətbiqinə nail olmaq məqsədi qarşıya qoyulur.

Bu prinsiplə ABŞ-da Santa Fe Universiteti, idarə edənlərin idarəedilməsi (o cümlədən, idarəedən robotların özlərinin idarəedilməsi) istiqamətində ixtisaslaşmış xüsusi universitet (məhdud sayda kontingenti vardır, adətən istedadlı tədqiqatçıları layihə əsasında qruplaşdırırlar) və onun çoxlu sayda filialları, beyin mərkəzləri işləməkdədirlər.

Onu da deyək ki, "beyin həmləsi" sinergetik yanaşmanın bir fraqmentidir və daha mükəmməl metodlar da mövcuddur. Onlar sinergetikada proseslərin qeyri-xəttiliyinə, bifurkasiyalılığına ("bifurkasiya" "haçalanma", "budaqlanma" deməkdir və sistemin bir məqamında onun təkamül xəttinin qeyri-müəyyən və ya çoxvariantlı olmasını ifadə edir) və "sinergetik sintez" (bifurkasiya zonasından sonra sistemin hansı struktur-funksional cazibə sahəsinə düşə biləcəyinin inteqrativ şərtlərini ifadə edir) prinsiplərinə əsaslanırlar. Həmin bağlılıqda "vebometrik sistemlər" metodu getdikcə daha çox populyarlaşır. Bu, veb-resurslar əsasında siyasi proseslərin analizini və proqnozlaşdırmasını nəzərdə tutur. Çoxlu sayda müxtəlif xarakterli informasiyaların yeni elektron texnologiyaları əsasında süni intellektdən istifadə etməklə kompüterdə ümumi mənzərəsi, dəyişmə dinamikası və konkret fəaliyyət mexanizmləri vahid bucaq altında sistem halına gətirilir, həmin əsasda müxtəlif ssenarilər hazırlanır, onlar vizuallaşdırılır və proqnozlar verilir.

### Liderlik sinerjisi: gələcəkdən baxış

Siyasi və strateji proqnozlaşdırmanın bir sıra özəllikləri ilə bağlı yuxarıda vurğulanan məqamlar təsdiq edir ki, liderin real proqnozlaşdırma qabiliyyəti çox yüksək zəkadan xəbər verir. Məsələnin Azərbaycanla bağlı əhəmiyyətli tərəflərindən biri də ondan ibarətdir ki, hələlik obyektiv səbəblərdən bizim ölkədə Qərbin inkişaf etmiş ölkələrində olduğu səviyyə və miqyasda siyasi və strateji proqnozlaşdırma mərkəzləri yoxdur. Həmin analitik şəbəkə təbii ki, tədricən formalaşacaq. Lakin indiki mərhələdə siyasi liderin üzərinə bu aspektdə çox ağır yük düşür. Prezident İlham Əliyev həm də bu səbəbdən dövlətçilik və liderliyin yeni nümunəsi baxımından tarixi xidmət göstərir.

Azərbaycan Prezidenti bu prosesdə faktiki olaraq "liderlik sinerjisinin Azərbaycan nümunəsi"ni yaratmışdır. Biz bir qədər sonra "liderlik sinerjisi" və "liderlik sinerjisinin Azərbaycan nümunəsi" ifadələrinin fəlsəfi-sinergetik izahını verəcəyik. Lakin öncə liderliyin strateji aspekti üçün vacib olan, konkret məzmuna malik və mühüm saydığımız faktları vurğulayaq.

Azərbaycan dövlət başçısı konkret olaraq siyasi varislik prinsipi əsasında dövlətin gələcək uğurlu inkişafı, cəmiyyətin dövlətlə bərabər getdikcə daha güclü və demokratik olması, xarici siyasətdə milli, regional və qlobal miqyaslarda dövlətçilik maraqlarının uzlaşdırılması, uğurlu təhlükəsizlik (enerji və milli təhlükəsizlik) modelinin hazırlanması və ölkənin müdafiə qüdrətinin dinamik inkişaf etdirilməsi kimi istiqamətlərdə böyük uğurlar əldə etməkdədir. Bunun üçün İlham Əliyev həqiqi mənada XXI əsrin tələbləri səviyyəsində lider-cəmiyyət-milli+regional+qlobal kontekstində uğurlu fəaliyyət göstərmişdir. Fəlsəfi yanaşma prizmasında burada mühüm olanı İlham Əliyevin liderliyini bütövlükdə cəmiyyətin bütün kəsimləri ilə işləmək müstəvisində qurması və bunu milli-regional-qlobal miqyasların qarşılıqlı əlaqəsində vahid sistem halına gətirməsi xəttinə üstünlük verməsi təşkil edir. Çünki bir sıra tədqiqatçılar həmin məsələyə lider-tərəfdarları qarşılıqlı əlaqəsi prizmasında baxırlar ki, bu da XXI əsrin çağırışlarına tam cavab vermir.

Bütün bunlar Prezidentin fəaliyyətinin konkret nəticələrində dəqiq ifadə edilmişdir. Həmin prizmada, obrazlı desək, gələcəkdən bu günə baxanda İlham Əliyevin strateji proqnozlaşdırma potensialının mühüm aspektləri haqqında fikir yürüdə bilərik. Azərbaycan Prezidenti dövlət quruculuğunun strateji hədəflərinə çatmaq üçün sistemli, daim yeniləşən dinamika və bütün aspektlərin bir-biri ilə sıx əlaqəsi kontekstində gələcək prosesləri proqnozlaşdırır. Burada müəyən təsnifat aparmaq olar.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı strateji sənəddə yazılır: "Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır:

1. **d**ayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. **d**inamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. **r**əqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. **i**şğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. **t**əmiz ətraf mühit və "yaşıl artım".

Deməli, 2030-cu ilə qədər Azərbaycan insan kapitalı mərkəzdə olmaqla müasir innovasiyalardan geniş istifadə etməklə sistemli və ardıcıl olaraq rəqabətli iqtisadiyyatı, inklüziv ədalətli cəmiyyəti və Böyük Qayıdışa tam nail olmuş "yaşıl artım" ölkəsi olmalıdır! Bu prioritetlərin hər biri üzrə Prezidentin konkret proqramları mövcuddur. Həmin proqramlar milli, regional və qlobal miqyaslarda özünü göstərən aparıcı parametrlərin üzvi surətdə birləşdirilməsini və reallaşdırılmasını ehtiva edir. Bundan başqa, vurğulanan prioritet istiqamətlər üzrə qarşıya qoyulan strateji xarakterli məqsədlər sintez halında Azərbaycanı müstəqil, demokratik və güclü dövlət və cəmiyyət olaraq yeni səviyyəyə yüksəltməlidir.

Prezident İlham Əliyevin bu prosesdə yeni texnologiyalara, cəmiyyətin bütövlüyünün təmininə, hakimiyyət–xalq birliyinin daha yüksək səviyyəyə qalxmasına, "yaşıl iqtisadiyyat"ı formalaşdıracaq infrastrukturun yaradılmasına, ölkənin müdafiə qüdrətinin daha da yüksəldilməsinə ayrıca önəm verməsi təsadüfi deyildir. Bu, XXI əsrin dördüncü onilliyinə Azərbaycanın güclü demokratik dövlət kimi qədəm qoymasının dərin düşünülmüş inkişaf kursunun uğurlu modelidir!

Məhz həmin bağlılıqda İlham Əliyevin strateji zəka sahibi kimi müstəqil dövlət quruculuğunun perspektivli inkişaf kursunu müasir dövrün çağırışlarına uyğun müəyyən etməsi liderliyin yeni nümunəsinin fəlsəfi-sinergetik özəlliklərinin mərkəzi tezisini təşkil edir. Bu tezisin yeni liderlik nümunəsinin strateji hədəfləri aspektində daha geniş fəlsəfi izahına ehtiyac vardır. Həmin izahın lider-cəmiyyət-milli+regional+qlobal qarşılıqlı əlaqələr kontekstində liderliyin sinerjisinin Azərbaycan nümunəsi üzrə aparılması maraqlı və aktualdır!

(ardı var)

***Füzuli QURBANOV,***
***"Xalq qəzeti"nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Qarşıdurma, yoxsa Qərbin yeni "dəlləklik" ssenarisi?

## "Böyük güclər"in geosiyasi oyunları kiçik dövlətlərin başında çatlayır



**ABŞ başda olmaqla kollektiv Qərbin Cənubi Qafqazda mövcud reallığı dəyişmək cəhdləri, qitələrarası körpü rolunu oynayan strateji bölgədən Rusiyanı hər vasitə ilə kənarlaşdırmaq planları özünün kulminasiya nöqtəsinə çatmaqdadır. Brüsseldə, Parisdə və Vaşinqtonda, yaxud üçünün vahid beyin mərkəzində hazırlandığı şübhə doğurmayan bu planın reallaşması üçün "etibarlı icraçı" da iş başındadır. İndi bu "rola" Ermənistan layiq görülüb.**

ABŞ Dövlət Departamentinin, Konqresin son dönəmlər güclənən anti-Azərbaycan fəaliyyətinə də mövcud kontekstdən yanaşmaq daha doğru olar. Okeanın o tayındakı supergücün başqa dövlətlərin daxili işlərinə qarışmaq, özünə qeyri-loyal hakimiyyətləri devirmək, cəzalandırmaq, hətta hələ feodal quruluşunun hökm sürdüyü ölkələrə "demokratiya" ixrac etmək kimi zəngin "təcrübəsi və ənənəsi" var. Vaşinqton İkinci Dünya müharibəsindən sonrakı Avropada bu "təcrübədən" geniş şəkildə yararlanıb. "Köhnə qitə"ni dirçəltməyə hesablanmış həmin Marşal planı ABŞ-ı qısa müddətdə borclu ölkədən Qərbi Avropanın kreditoruna çevirdi. Məgər amerikalılar bu müdaxilənin sayəsində avropalılara sülh və demokratiya bəxş etdilər? Bəs Ağ ev Vyetnama, İraqa, Əfqanıstana, Liviyaya, keçmiş Yuqoslaviyaya nəyi qazandırdı? Otuz iki il əvvələ qədər eyni ittifaqda olduğumuz Gürcüstan və Ukrayna Qərbdən, ABŞ-dan yağlı vədlərdən, sözdən uzağa getməyən təhlükəsizlik təminatından qeyri nə gördü? İndi hər iki ölkənin ərazisinin bir hissəsi işğal altında, şəhər və kəndlərinin bir çoxu dağıdılmış durumdadır. Bəli, supergüclərin korporativ maraqlarını realizə üçün düşündükləri geosiyasi oyunlarından həmişə kiçik ölkələr əziyyət çəkiblər. Görünür, İrəvanda bu acı həqiqəti unudublar. Koalisiyanın məqsədi birdir: nəyin bahasına olursa-olsun, Rusiyanı Cənubi Qafqazdan uzaqlaşdırmaq. On beş il əvvəl Gürcüstanda bu alınmadı, indi "dəlləkliyi" Ermənistanın başında sınaqdan çıxarırlar.

* * *

Qərb özünün vəhşi caynaqları ilə Ermənistanın boğazından yapışıb, onu Rusiyadan qoparmağa çalışır. Moskva bugünədək Qərb–Ermənistan münasibətlərinə belə kəskin və birmənalı reaksiya verməmişdi. Bu sözləri Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova media üçün keçirdiyi ənənəvi birifinqdə söyləyib. M.Zaxarova deyib ki, belə təsəvvür yaranır ki, Ermənistanın öz istəyindən daha çox, ona kənardan siyasi instrumentlər sırımağa çalışırlar. O, bu missiyanı ölkənin daxilində olan və xalqın maraqlarına yad xəttin tərəfdarlarının yerinə yetirdiklərini qeyd edib. Jurnalistin "Ermənistanın strateji gələcəyi və Avropa" forumu ilə bağlı sualını Rusiya diplomatiya idarəsinin sözçüsü belə cavablandırıb: "Bəli, ölkənin Təhlükəsizlik Şurasının katibinin iştirak etdiyi həmin forumda Ermənistanın Avropaya inteqrasiyasının strateji perspektiv adlandırıldığı bəyannamə qəbul olunub. Həmin sənəddə Ermənistan hakimiyyətindən MDB, KTMT və Aİİ-dən çıxması tələbi öz əksini tapıb. Amma biz əmin deyilik ki, bununla Ermənistanın siyasi kursunu tamamilə dəyişərək kimdənsə üz çevirib, kiməsə yaxınlaşacağı barədə danışmaq olar. Hesab edirik ki, KTMT-də üzvlük Ermənistanın zəruri təhlükəsizlik səviyyəsini təmin edir".

Mövcud kontekstdə oxucularımızın nəzərinə onu da çatdıraq ki, Ermənistanın baş naziri Nikol Paşinyan iki gün əvvəl parlamentdə çıxışı zamanı bu məsələyə münasibətini açıqlayıb. Onun sözlərinə görə, ölkəsi KTMT-nin və MDB-nin himayəsi altında keçirilən tədbirlərdə iştirak etməmək qərarına gəlib. Paşinyan daha sonra bildirib ki, KTMT boynuna götürdüyü öhdəliklərinə zidd olaraq Ermənistanın təhlükəsizlik təhdidlərinə cavab vermir. Orada heç bir qərar verilmədiyi üçün bu tədbirlərə niyə qatılacağı aydın deyil: "İrəvan KTMT-dən çıxmağa hazırlaşmır, əksinə, bloka "düşünmək üçün vaxt" verir. Bu, Ermənistan hakimiyyətinə və KTMT-yə gələcək addımlar barədə qərar qəbul etməyə imkan verəcək".

Qərbli "dostlarının" Ermənistanın indiki rəhbərliyini Rusiyanın səylərindən yayındırmağa çalışdığını vurğulayan M.Zaxarova bildirib ki, Qərbin, "nato Amerikasının" məntiqi öz fəlsəfəsini daxildəki siyasi xadimlərin beyninə yeritməkdir: "Görünür, Ermənistan iqtidarı ölkənin rifahının Rusiya və Avrasiya İqtisadi İttifaqının üzvləri ilə əməkdaşlıqdan əldə etdiyi bonuslara əsaslandığı faktını unudur. Bunlar isə Qərbin verdiyi boş vədlərdən fərqli olaraq, real rəqəmlər və faktlardır. Tərəfdaşımız bütün bunları saxlamaq xahişi ilə müraciət edir, özü isə təhlükəsizlik sahəsində ikitərəfli münasibətlərə xələl gətirən, Rusiyanın maraqlarına zidd addımlar atır. Bunu necə adlandıraq: eyni vaxtda iki stulda əyləşmək cəhdi?"

Ermənistanın Qərb və Rusiya arasında ikibaşlı oyun oynaması Kremlə gün kimi aydındır. Sadəcə Moskva bu ölkədəki hərbi bazasının naminə bugünədək İrəvana sərt üzünü göstərməkdən vaz keçirdi. Amma indi onun XİN rəsmisinin dili ilə Ermənistan rəhbərliyinin nəzərinə çatdırdıqları gözlənilən ciddi cavab tədbirlərinin anonsu kimi qiymətləndirilə bilər.

* * *

Ermənistan və Azərbaycan arasında münasibətlərin nizamlanması prosesinin davam etdirilməsi məsələsinə toxunan Rusiya baş diplomatiya idarəsinin rəsmisi bundan sonra sülh danışıqlarının hansı platformalarda və necə təşkil olunacağına da aydınlıq gətirib: "Oktyabrın 5-də Avropa İttifaqının Qranadada keçirilən sammitində regional problemlərə dair bəyanat Azərbaycanın iştirakı olmadan qəbul edildi. Bunu sadəcə işin metodologiyası baxımından deyirəm. Ya üçtərəfli qrup formatında bərabərhüquqlu fəaliyyət, ya da dediyim yarıtmaz şəraitdə görüşlər və qərarlar. Nəticədə, bizim fikrimizcə, ABŞ və Avropa İttifaqının göstərişi ilə üçtərəfli razılaşma çərçivəsindən kənar hərəkət edən Ermənistan regional kommunikasiyaların gələcək konfiqurasiyasından məhrum olmaq riski ilə üzləşə bilər. Buna sübut da gətirmək çətin deyil. ABŞ və Aİ həm birlikdə, həm də ayrı-ayrılıqda təminatverici qismində çıxış ediblər. Amma onlar az yerlərdə nəsə yaxşı və pozitiv iş görməyə nail olublar. Çünki çox şey vəd edirlər, az iş görür və mövcud şəraitdən, istisnasız olaraq, öz fərdi məqsədlərinə çatmaqdan ötrü istifadə edirlər".

ABŞ-ın bugünədək kimlərə nələri vəd etdiyini və sonucda həmin ölkələrin üzləşdikləri aqibət barədə yuxarıda söz açdıq. İndi ortada Bakı və İrəvanın imzalamağa hazır göründükləri sülh sazişi, onun bölgəyə gətirəcəyi sabitlik və inkişaf perspektivi və Cənubi Qafqazda geosiyasi, eləcə də hərbi maraqları kəsişən böyük güclərin qarşıdurması var. Bu qarşıdurmada Vaşinqtonun getdikcə artan fəaliyyəti hiss olunmaqdadır. Fikrimizcə, Ağ evin son vaxtlar Ermənistana hərtərəfli dəstəyi, Azərbaycana qarşı sərtləşdirdiyi siyasi ritorikası, guya Azərbaycanın Ermənistana təcavüz ehtimalını əsaslandırmağa çalışmaq cəhdləri bu baxımdan nəzərdən keçirilməlidir. İntəhası, rəsmi Bakı ən yüksək səviyyədə, həm də dəfələrlə Ermənistana təcavüz barədə düşünmədiyini, belə bir planının olmadığını bəyan edib. Üstəlik, onun üçün Zəngəzur dəhlizi layihəsinin öz cəlbediciliyini itirdiyini bildirib. Ona görə ki, İranla əldə olunmuş razılığa əsasən, Azərbaycanın qərb rayonlarını Naxçıvanla birləşdirən dəhlizin inşasına start verilib.

Göründüyü kimi, Ermənistan və Azərbaycan arasında sülh prosesinin uğurlu sonluğu ABŞ və Qərbin arzulamadığı finaldır. Bu koalisiyaya Cənubi Qafqaza hərtərəfli nüfuz etməkdən ötrü sülhdən daha tutarlı arqument lazımdır. Onlar bu arqumenti sülh masasında deyil, reallığı təhrif etməkdə, Azərbaycana qarşı atılan böhtanlarda, bölgədə yeni gərginliyin yaradılmasında, hətta silahlı qarşıdurmada axtarırlar. Məhz bu zaman on illər boyu Rusiyanın nəzarət coğrafiyası sayılan regionda hərbi kontingent yerləşdirmək fürsətini əldə edə bilərlər. Deməli, ABŞ və Avropa İttifaqı bu hədəfə çatmaqdan ötrü Brüssel sülh masasını Ermənistanda "savaş meydanı" ilə əvəzləməyi düşünür. Bəs, Ermənistan necə, yeni savaşa hazırdırmı? Yəqin bu ritorik sualı İrəvan isteblişmenti özünə verir.

***İmran BƏDİRXANLI***
***XQ***

# Heydər Əliyev və türk dünyası

**Ümummilli lider, görkəmli dövlət və siyasət xadimi Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin qorunması, möhkəmləndirilməsində, daxili və xarici siyasətinin formalaşdırılması və həyata keçirilməsində misilsiz rolu olmuşdur. Ulu öndərin müəyyən etdiyi məqsədyönlü siyasət nəticəsində Azərbaycanın xarici ölkələr, xüsusilə türk dövlətləri ilə dostluq və qardaşlıq münasibətləri yeni məcrada uğurla inkişaf etdirilmişdir.**

Tarixdən məlumdur ki, müəyyən dövrlərdə türk dövlətləri arasında əlaqələr subyektiv səbəblərdən qırılmışdır. Əlalxüsus da sovet dönəmində müəyyən dövrləri nəzərə almasaq, Türkiyə ilə münasibət, demək olar ki, olmamışdır. Qazaxıstan, Türkmənistan, Özbəkistan və Qırğızıstan ilə münasibətlər isə İttifaq tərkibində sovet respublikaları olduğuna görə saxlanılmışdır.

SSRİ dağıldıqdan sonra Azərbaycan müstəqil türk dövləti kimi dünya ictimaiyyəti tərəfindən tanınsa da, beynəlxalq aləmdə nüfuz qazana bilməmişdi. Azərbaycan dövlətinin xarici siyasətinin mühüm istiqamətlərindən biri türk dövlətləri ilə münasibətlərin yeni təməl üzərində qurulması oldu. Prezident Heydər Əliyevin yürütdüyü ardıcıl, uğurlu beynəlxalq siyasi fəaliyyət nəticəsində 1994-cü ilin əvvəllərindən etibarən türk dövlətləri ilə münasibətlərdə əsaslı dönüş yaranmağa başladı.

Ulu öndərin xarici ölkələrə ilk səfərlərindən biri 1994-cü ilin fevral ayında məhz Türkiyəyə oldu. Səfər zamanı Azərbaycan ilə Türkiyə arasında ikitərəfli siyasi, ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlığı daha da inkişaf etdirməyi nəzərdə tutan bir sıra mühüm sənədlər imzalandı. Bütün bunlar Heydər Əliyevin iki ölkə arasında münasibətlərin yeni təməl üzərində qurulmasında və bütövlükdə türk dünyası qarşısında tarixi xidməti idi.

1996-cı il mayın 27-də "Özbəkistan Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə"nin, 1997-ci ildə Qırğızıstanla ticarət-iqtisadi əməkdaşlığa dair sazişin, həmin ilin iyun ayında Qazaxıstana rəsmi səfər zamanı ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında bəyannamə və Qazaxıstan neftinin beynəlxalq bazarlara daşınmasında əməkdaşlıq haqqında memorandumun imzalanması ilə qarşılıqlı faydalı əməkdaşlıq quruldu.

Türkmənistan Respublikası ilə də münasibətlərin möhkəmlənməsinə xüsusi diqqət yetirən Ulu öndər 1994-cü ilin oktyabr ayında bu ölkəyə də rəsmi səfər etdi. Türkmənistan Prezidenti Saparmurad Niyazov da 1996-cı ilin mart ayında Bakıda rəsmi səfərdə oldu. Bu səfərlərin nəticəsində ikitərəfli siyasi, iqtisadi və mədəni əməkdaşlığın inkişaf etdirilməsi üçün bir sıra vacib sənədlər imzalandı və mühüm məsələlərə dair ümumi razılaşma əldə olundu. Sonrakı illərdə digər sahələrdə də əlaqələr tənzimləndi və münasibətlərin yeni təməl üzərində inkişafı üçün zəmin yarandı.

Bütün bunlar onu göstərir ki, türk dövlətləri ilə münasibətlərin inkişaf etdirilməsində Heydər Əliyevin xüsusi tarixi rolu danılmazdır. Heydər Əliyev Azərbaycan Respublikasının türk dövlətləri ilə qarşılıqlı münasibətlərinin çoxtərəfli əsasda (TÜRKSOY, türk xalqlarının dostluq, qardaşlıq və əməkdaşlıq qurultayları, türk dövlət başçılarının zirvə görüşləri) həyata keçirilməsində müstəsna rol oynamış, hərtərəfli əlaqələrin qurulub inkişaf etdirilməsi üçün bütün imkanları səfərbər etmişdir.

Ulu öndərin yorulmaz siyasi fəaliyyəti nəticəsində beynəlxalq diplomatik-siyasi münasibətlərin inkişafında mühüm addımlar atılmış, bu münasibətlər yeni təməl üzərində qurulmuş, ticarət-iqtisadi, elmi-texniki, mədəni, humanitar və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi istiqamətində birgə sənədlər imzalanmışdır. Heydər Əliyevin 1998-ci ilin fevral ayında Türkiyəyə səfəri isə dövlətlərarası əlaqələrin inkişafında xüsusi əhəmiyyət kəsb edirdi.

Həmin ilin sentyabr ayında TRASEKA proqramı çərçivəsində keçirilən beynəlxalq konfransda iştirak edən Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə görüşündə Ulu öndər türk dövlətləri arasında münasibətlərin daha da inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparmışdır. Hər iki ölkə prezidenti türk dünyası arasında əməkdaşlığın genişləndirilməsinin vacibliyindən bəhs edərək türk dövlətlərinin problemlərini müzakirə etmişlər.

Prezident Heydər Əliyev türk dünyasının möhkəmlənib inkişaf etməsi ilə bağlı qeyd etmişdir: "Bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə bağlayıb, bir-birimizlə daha sıx əlaqədə saxlayıb. İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik".

"Biz bir millət, iki dövlətik" şüarını rəhbər tutan Ulu öndər türk dövlətləri arasında beynəlxalq əlaqələrin inkişafına xüsusi önəm verdiyini öz siyasi fəaliyyəti ilə sübut etmişdir. Dövlətlərarası qarşılıqlı münasibətlərin ən mühüm məsələləri Türkiyə dövlət və hökumət nümayəndə heyətlərinin Azərbaycana səfərləri zamanı geniş müzakirə edilmişdir. Ulu öndər Türkiyə ilə diplomatik-siyasi münasibətlərin möhkəmləndirilməsinə Azərbaycan dövlətinin xarici siyasətinin mühüm istiqamətlərindən biri kimi baxmışdır.

Ölkəyə rəhbərlik etdiyi dövrdə daim türk dövlətləri ilə səmimi münasibətlər yaradan, türk dünyası arasında birliyin təmin olunmasına xüsusi önəm verən Ulu öndər Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair yaradılmış beynəlxalq konsorsiumda da Türkiyənin fəal iştirakına çalışırdı. Böyük rəhbər Xəzər dənizinə türk dövlətlərini birləşdirən amil kimi baxır və enerji ehtiyatları sahəsində onların əməkdaşlığını yüksək qiymətləndirirdi. O, hesab edirdi ki, iqtisadi əlaqələrin genişləndirilməsi Azərbaycan–Türkiyə münasibətlərinə bir sıra siyasi üstünlüklər verir. 1998-ci il oktyabrın 29-da Ankarada Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinə dair bəyannamənin imzalanması Heydər Əliyevin türk dünyası qarşısında mühüm tarixi xidmətidir.



1999-cu ildə Ümummilli lider Heydər Əliyevə sülh uğrunda apardığı mübarizəyə görə "Beynəlxalq Atatürk Sülh Mükafatı" təqdim olunmuşdur. Ulu öndər özü də dövlətçilik fəaliyyətində türk dünyasının böyük öndəri Atatürkün dövlət quruculuğu təcrübəsinə həmişə yüksək dəyər verir, onun irsinin öyrənilməsi və təbliğini vacib hesab edirdi. Bu məqsədlə də 2001-ci ildə Bakıda Atatürk Mərkəzinin yaradılması haqqında sərəncam imzalamışdır.

Türk dünyası dövlətləri ilə qurulan beynəlxalq əlaqələrin elmi-nəzəri, tarixi baxımdan mühüm əhəmiyyət kəsb etdiyini daima vurğulayan Ulu öndər türkdilli ölkələrin mədəniyyət səylərini birləşdirən beynəlxalq təşkilat TÜRKSOY-un fəaliyyətinə də xüsusi qayğı göstərmişdir.

Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə Azərbaycan və Türkiyə arasında ədəbi-mədəni əlaqələr də yüksək səviyyədə inkişaf etdirilmişdir.

Hazırda Ulu öndərin bu siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və onun Türk Dünyası Dövlətlərinin birliyi, qardaşlığı və həmrəyliyi uğrunda gərgin və yorulmaz fəaliyyəti öz bəhrəsini verməkdədir. Prezident özü bu barədə Türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısında bildirmişdir: "Türk dünyası böyük dünyadır. Bizi birləşdirən aramızdakı münasibətlərdir, qardaşlığımızdır, ortaq keçmişimizdir, bugünümüzdür. İyirmi ilə yaxındır ki, ölkələrimiz müstəqil dövlətlər kimi yaşayırlar. Bu müddət ərzində ölkələrimiz gücləndi, formalaşdı, dövlətçiliyimizin əsasları quruldu. Bu gün Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan kimi ölkələr öz növbəsində Türkiyəni gücləndirir, necə ki, böyük və güclü Türkiyə bizi gücləndirir. Bizim gücümüz bizim birliyimizdədir. Biz çalışmalıyıq ki, bütün sahələrdə bu birliyi daha da möhkəmləndirək".

Ulu öndər tərəfindən müəyyənləşdirilmiş siyasi kursu uğurla davam etdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanı inamla zəfərlərə doğru apardı və indi də aparmaqdadır. Ümummilli lider Heydər Əliyevin Azərbaycan–Türkiyə qardaşlığı, Türk dünyasının birliyi, həmrəyliyi ilə bağlı fikirləri möhtərəm cənab Prezidentimiz İlham Əliyevin siyasi fəaliyyətində təsdiqini tapmaqda və bütün sahələrdə öz töhfəsini verməkdədir.

***Sultanəli QURBANOV,***
***YAP Səbail "Ü.Hacıbəyli–68" ərazi təşkilatının sədri***

# Azərbaycan ədəbi irsinin misilsiz himayədarı

## Bunu əsaslandırmaq üçün tədqiqata və ya uzağa getməyə ehtiyac olmadı

**Hər böyük dühanın xəzinəsindən**
**Sadə bir inci də dövlətdir bizə.**

**Səməd VURĞUN**

***"Nur" nura qarışanda, həqiqətən, maraqlı məqam yaranırmış. Ulu öndər Heydər Əliyevin 100 illiyi münasibətilə qələmə almaq istədiyimiz bu yazının təməlində də məhz iki nur dayanır. Onların biri Heydər Əliyev dühasının nuru, digəri isə "Nur" şəhərinin yubileyi ərəfəsində eşitdiklərimiz oldu. Fikrimizi bir az da aydınlaşdıraq. Bölgə müxbirimiz İlqar Həsənov danışır ki, Mingəçevirə şəhər statusu verilməsinin 75 illiyi münasibətilə ( həmin əlamətdar gün noyabrın 11-də qeyd olunacaq – İ.M.) hazırlamaq istədiymiz yazının qəhrəmanlarının böyük əksəriyyəti "Şəhərimizin bu səviyyəyə çatmasında Ulu öndər Heydər Əliyevin möhtəşəm xidmətləri olmuşdur" və ya "Mingəçeviri SSRİ məkanında Səməd Vurğunun "Muğan" poeması tanıtmışdır" qənaətini bölüşmək istədilər.***

Bu barədə redaksiyada da bir neçə dəfə söhbət düşdü və elə İlqar Həsənovun təşəbbüsü ilə Ulu öndərin ölkəmizə birinci dəfə rəhbərlik etdiyi dövrdə açılmış ev muzeylərindən birinə getmək qərarına gəldik. Təbii ki, ilk ünvan "Muğan" poemasının müəllifinin evi olmalıydı.

Muzeyin direktoru, böyük şairin nəticəsi, onun təxəllüsünü də, soyadını da yaşadan Vurğun Vəkilov bizi məhz bu ocağın tarixi ənənələrinə layiq qonaqpərvərliklə qarşıladı. Xatırladaq ki, Vurğun Vəkilov şair və ya ədəbiyyatçı olmasa da, öz nəslinə, şəcərəsinə Avropa miqyasında şöhrət qazandırmış gənclərimizdəndir.

Belə ki, bu istedadlı gəncin – tanınmış pianoçunun adı 2009-cu ildə Prezidentin sərəncamına əsasən Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılmış, xüsusi təqaüdə layiq görülmüşdür. O, hələ Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin VII sinifində oxuyarkən İtaliyanın Pesaro şəhərində keçirilmiş VIII "Citta di Pesaro" Beynəlxalq müsabiqəsinin qalibi olmuşdu. Həmin müsabiqəyə İtaliya, Yaponiya, Rusiya, Bolqarıstan, Koreya Respublikası, Çin və digər ölkələrin gənc musiqiçiləri qatılmışdılar. Vurğun Vəkilov "B" kateqoriyasında 12-16 yaşlı piano ifaçıları arasında fərqlənərək birinci yeri qazanmışdı.

11 il Bülbül adına orta ixtisas musiqi məktəbində təhsil aldıqdan sonra Bakı Musiqi Akademiyasına daxil olmuş, orada professor Oqtay Abasquliyevin təşəbbüsüylə Fransaya müsabiqəyə yollanmış və laureat adını qazanmışdır. Laueratlar əlavə olaraq 1 il Fransanın nüfuzlu musiqi məktəbində ödənişsiz oxumaq şansı əldə edirdilər. Həmin şans isə gənc istedada 4 il Fransada oxumaq imkanı yaratmışdır. O, indi Avropanın sayılıb-seçilən pianoçularındandır. Gənc direktor bizimlə söhbətinin əvvəlindəcə xatırlatdı ki, şəcərəmizdə çoxlu musiqiçilər olub. Elə babam Səməd Vurğun da saz və tar başda olmaqla bir neçə musiqi alətində ifa edirdi.



Direktora ilk sualım böyük bir girişdən ibarət oldu: "Biz tələbə olanda dörd yoldaş bu muzeyə gəlmişdik. Eksponatların hamısına baxmaq istədik və ona görə də saat 1-də başlayacaq dərsə gecikdik. Dekan müavini bizi məzəmmət edəndə dedim ki, ziyarətə getmişdik. O, "Gəncəyə, İmamzadəyə, yoxsa Ətağanın məzarına? " – deyərək, bizi bəhanə gətirməkdə ittiham etmək istədi. Dedim, yox, Səməd Vurğunun ev muzeyinə. Dekan müavini 180 dərəcəli bucaq altında dəyişdi: "Doğrusu, mən də getmək istəyirəm. Vaxt tapmıram. Amma, mütləq gedəcəm. Orada nə isə bir yenilik varmı?" Dostlarımdan biri dedi: "Səməd Vurğun çoxdan dünyasını dəyişib, orada nə yenilik ola bilər ki?" Dekan müavini sualını izah etdi: "Səməd Vurğunu SSRİ məkanından kənarda da tanıyanlar çoxdur. Kimsə yeni eksponat göndərər, haradansa çap olunmamış şeiri tapılar, dostlarının evindən hədiyyə gələ bilər, hansısa dövlət sənədi imzalanmış olar və sairə".

Bütün bunları xatırladandan sonra direktora dedim: – Əminəm ki , sualım sizə aydın oldu.

– Siz tələbə olanda bu muzeyin eksponatlarının sayı yəqin ki, beş mindən bir az çox idi. İndi 17 minə yaxındır. Hazırda muzeyin Qazax filialı da var. Ona "Poeziya evi" deyirlər və hər il orada poeziya bayramı keçirilir. Cənab Prezident İlham Əliyev həmin filialın "Xatirə kitabı"na ürək sözlərini yazıb. Son bir neçə ildə burada Səməd Vurğunun övladlarının yaşıdlarına həsr edilmiş "Altmışıncılar" adlı guşə yaradılıb, şairin "Azərbaycan" şeirinin əsli – öz əli ilə yazdığı nüsxə ekspozisiyalar sırasına daxil edilib (indiyədək həmin nüsxə fondda saxlanılırdı), babamın istifadə etdiyi "Pobeda" markalı minik avtomobilinin Gürcüstandan alınaraq Bakıya gətirilməsi məsələsi tam həll olunmaq ərəfəsindədir (o avtomobil sonra Qazaxda saxlanılacaq). Həmin "Pobeda"nın kiçik ölçülü maketi muzeydə nümayiş etdirilir.

O ki, qaldı sizin bu görüşü Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr etməyinizə, deyə bilərəm ki, muzeyimizin eksponatları arasında Heydər Əliyevin Səməd Vurğunun ədəbi irsinə verdiyi qiymətin miqyasını özündə əks etdirən çoxsaylı və dəyərli eksponatlar var. Heydər Əliyev birinci dəfə ölkə rəhbəri olanda Üzeyir Hacıbəyovun ev-muzeyindən sonra Səməd Vurğunun ev-muzeyinin yaradılması təşəbbüsünü irəli sürmüş və muzeyin açılışında şəxsən iştirak etmişdir. Həmin tədbirdə çəkilmiş çoxsaylı fotolar da eksponatlarımızın sırasındadır, onun ürək sözləri də. Üstəlik, Ulu öndər 1997-ci ildə də bu muzeyə gəlmiş, vəziyyətlə tanış olmuş, burada çıxış etmiş və yenə də "Xatirə kitabı"na öz ürək sözlərini yazmışdır. Həmin ürək sözləri ekspozisiyalarımızın ən dəyərlilərindən biridir. Buyurun, baxaq.

Baxdıq. Ulu öndər yazırdı: **"Bu gün böyük şair Səməd Vurğunun 90 illik yubileyini qeyd edərkən, 1975-ci ilin oktyabr ayını xatırlayıram. O günlər ölməz Səməd Vurğunun ev muzeyinin təntənəli açılışı oldu. Ötən illər muzey Səməd Vurğunun həyat və yaradıcılığını təbliğ etmək üçün çox iş görüb, xalqımızın, mədəniyyətimizin inkişafına bövük xidmət göstərib. Əminəm ki, Səməd Vurğunun ədəbi irsi daim yaşayacaq, muzey ölkəmizin görkəmli mədəniyyət ocağı kimi o şərəfli işə bundan sonra da xidmət edəcəkdir.**

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**
**6 mart, 1997-ci il."**

İndi – bu sətirləri qələmə alarkən, "Xalq qəzeti"nin o vaxtkı nömrəsinə baxırıq. Məlum olur ki, Ulu öndər həmin gün muzeydəki çıxışında bu qəbildən olan muzeylərin milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün mühüm əhəmiyyət kəsb etdiyini demişdir: "Səməd Vurğun Muzeyi də məhz buna xidmət edir. Mən çox məmnunam ki, siz, Səməd Vurğunun ailə üzvləri Xavər xanım, Aybəniz xanım bu muzeyi 21 ildir saxlayırsınız, qoruyursunuz. Bu muzey daim fəaliyyətdədir. O, xalqımıza, millətimizə xidmət edir. Bu muzeyi biz ölkəmizə ziyarətə gələn insanlar üçün gözəl bir nümunə kimi göstəririk ki, xalqımız nəyə malikdir, nəyə qadirdir, xalqımızın milli sərvətləri nədən ibarətdir. Gəlib həm bu muzeyi görənlər, həm buradakı bu kitabları oxuyan, onlarla tanış olanlar xalqımızı daha da dərindən tanıyacaqlar".

Yeri gəlmişkən, Vurğun Vəkilov xatırlatdı ki, son illər bu muzeyə gələn əcnəbi turistlərin sayı durmadan artır.

Muzeyin bələdçi və elmi işçiləri bizə nəinki istənilən otaq və ya guşə, hətta, hər bir eksponat barədə də dəqiq və müfəssəl məlumat verməyə çalışırdılar. Biz isə daha çox Ulu öndərin Vəkilovlar ailəsinə hörmət və ehtiramını əks etdirən sənəd və fotolara diqqət etdik və böyük şairin ov paltarları və ləvazimatları nümayiş etdirilən guşənin qarşısında foto çəkdirdik.

Muzeydə şairin iş otağı, qonaq və yataq otaqları onun sağlığında olduğu kimi saxlanılır. Digər üç otaqda isə Vurğunun həyat və yaradıcılığını, ictimai fəaliyyətini, xatirəsinin əbədiləşdirilməsini əks etdirən ekspozisiya yaradılmışdır.

Şairin qonaq otağı kimlərlə bağlı xatirələri yaşatmır? Bələdçi söylədi ki, bu otaqdakı royal da muzeyi ziyarət edənlərin böyük marağına səbəb olur. Bu royalda vaxtilə Səməd Vurğunun əvvəlki mənzilində tez-tez qonaq olmuş Azərbaycan milli operasının banisi Üzeyir Hacıbəyov, eləcə də, məşhur bəstəkarlarımızdan Qara Qarayev, Fikrət Əmirov, Səid Rüstəmov öz əsərlərini ifa etmişlər.

– Bəs divardakı bu möhtəşəm rəngkarlıq əsərini kim yaradıb? – deyə bələdçidən soruşdum. Dedi ki, görkəmli rəssam Mikayıl Abdullayevin hələ İkinci Dünya müharibəsinin getdiyi dövrdə – 1944-cü ildə bilavasitə naturadan yaratdığı bu əsər Səməd Vurğunun belə çəkilmiş ilk və yeganə portretidir. Qonaq otağındakı əntiq saat isə böyük şairin vəfat etdiyi anda – 1956-cı il mayın 27-də axşam saat 7:30-da Xavər xanım tərəfindən dayandırılmışdır. Amma saat sussa da, xatirələr susmur. Bələdçi dedi ki, şairin ömrünün son saatlarında əlinə aldığı kitab özünün "Aygün" əsəri olmuşdur.

Elə Aygün Vəkilovanın özü də bu muzeyin Xavər Vəkilova və Aybəniz Vəkilovadan sonra üçüncü direktoru olmuşdur. Sonra onları Nüşabə Vəkilova əvəz etmiş, 2022-ci ildən bəri muzeyin direktoru Vurğun Vəkilovdur.

Vurğun müəllim xatırlatdı ki, 2011-ci il dekabrın 13-də Azərbaycan Prezidenti İlham Əliyev "Xalq şairi Səməd Vurğunun ev-muzeyinin əsaslı təmiri haqqında" sərəncam imzalamışdır. Həmin sərəncama əsasən muzeyin əsaslı təmiri, bədii tərtibatı, zəruri avadanlıq və inventarla təchizatı üçün lazım olan bütün addımlar atılmışdır.

***P.S. Mən taleyimdən razıyam ki, Ulu öndərin 1994-cü il dekabrın 28-də böyük ədib Cəlil Məmmədquluzadənin, 1997-ci il martın 6-da isə böyük şair Səməd Vurğunun ev muzeyinə gəlməsini və oradakı çıxışlarını işıqlandıran mətbuat təmsilçilərindən biri olmuşam. Yəni Heydər Əliyevin Azərbaycan ədəbi irsinin himayədarı, qayğıkeşi və təəssübkeşi olduğunun canlı şahidiyəm. Onun da şahidiyəm ki, Ulu öndər təkcə siyasətçi və ya lider kimi deyil, həm də ədəbi-bədii əsərlərin diqqətli oxucusu, kino, teatr və konsert proqramlarının ilk tamaşaçılarından idi.***

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

**17 Noyabr Milli Dirçəliş Günüdür**



# Dirçəlişdən Zəfərə aparan yol!

**(əvvəli 1-ci səhifədə)**

Görkəmli vətənpərvər şair Tofiq Bayramın o günlərdə qələmə aldığı “Qarabağı verməərəm!” şeiri dillər əzbəri idi:

**Hər növ mərdi-məzardan,**
**cana doyub deyirəm:**
**Əlin qopmasa ordan,**
**köynəyim bayraq olub,**
**Seçilməz taləzardan,**
**mən əsgərəm, əlimdən**
**O bayrağı verməərəm,**
**öz canımı verərəm,**
**Qarabağı verməərəm!**

Milli Məclisin deputatı, tarix elmləri doktoru Anar İsgəndərov həmin hadisələri xatırlayaraq dedi ki, xalqımızın azadlıq mübarizəsinin əsas mərhələlərindən birini təşkil edən Milli Dirçəliş Günü Azərbaycanın müstəqilliyinin bərpa edilməsində tarixi rol oynayıb. Bu hadisələr haqlı olaraq istiqlalımıza aparan yolun başlanğıc səhifələrindən biri kimi dəyərləndirilir!

Tarixçi alim, həmçinin vurğuladı ki, 17 Noyabr hadisələrinin mənəvi əsasları isə əslində ötən əsrin 60-cı illərinin sonlarından Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdən başlanıbdır. Belə ki, bu dahi siyasətçi sovet ideologiyasının sərt qadağalarına baxmayaraq, milli-mənəvi dəyərlərə, elmin, mədəniyyətin dirçəlişinə xüsusi önəm verirdi. Onun respublikamıza birinci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illərdə Azərbaycan əsl dirçəliş, tərəqqi və intibah dövrünə qədəm qoymuşdu.

Ümummili lider 1987-ci ilin noyabrında Kremldə tutduğu yüksək vəzifəsindən ədalətsizcəsinə uzaqlaşdırıldıqdan sonra, erməni separatçıları Qorbaçovun himayəsi altında baş qaldırdılar. Əvvəlcə saxta akademik Abel Aqanbekyan Parisdə Qarabağın Ermənistana verilməsinin vacib olduğu barədə sərsəm fikirlər söylədi. Sonra mərkəzi mətbuatda Azərbaycan əleyhinə qərəzli təbliğat kampaniyası başlandı.

Bunun ardınca erməni vandalları Topxana meşəsində vəhşiliklər törətdilər, Ağdamda isə iki azərbaycanlı qətlə yetirildi. Bütün bunlar Azərbaycanın hər yerində milli təəssübkeşlik hisslərini daha da alovlandırdı. Xalq onun milli heysiyyatı ilə oynayanlardan haqq-hesab tələb etməyə qərar verdi! Beləcə, miqyası bu gün də çoxlarını heyrətə gətirən Meydan Hərəkatı başlandı!

XX əsrin əvvəllərində Şərqdə ilk dəfə demokratik cümhuriyyət quran Azərbaycan xalqı azad yaşamaq istəyirdi. Xalq hərəkatı bütün əzəməti ilə respublikamızın bütün şəhər və rayonlarını bürüdü. Dekabrın 4-dək davam edən kütləvi mitinqlər keçmiş SSRİ-də ən iri miqyaslı kütləvi etiraz aksiyası idi. Bütün dünya diqqətlə Azərbaycandakı kütləvi etiraz mitinqlərini izləyirdi.

Vəziyyətin nəzarətdən çıxdığını görən rəsmi Moskva Azərbaycanda ilk dəfə fövqəladə vəziyyət elan edərək, imperiyanın müxtəlif ərazilərindən dislokasiya edilmiş daxili qoşun qüvvələrini Azadlıq Meydanının ətrafında yerləşdirməklə, dekabrın 3-dən 4-ə keçən gecə etiraz mitinqini dağıtdı. Lakin Kreml bununla heç də xalqımızın azadlıq arzusunu boğa bilmədi.

Azərbaycan öz istiqlalına doğru gedən yolda qərarlı idi! 17 Noyabr Meydan Hərəkatı bir daha göstərdi ki, bütün ciddi-cəhdlərə baxmayaraq, azad yaşamaq haqqına malik olan, bu yolda bütün çətinliklərə sinə gərən Azərbaycan xalqını bundan sonra müstəmləkə əsarətində saxlamaq qeyri-mümkündür!

Təəssüf ki, 1988-ci ildə xalq hərəkatı alovlananda, Azərbaycana rəhbərlik edən siyasi qüvvələr gərgin ictimai-siyasi vəziyyəti düzgün qiymətləndirə bilmədilər. Xalqın maraqlarından daha çox, imperiyanın və özlərinin mənafelərini düşünən bu siyasətbazların səbatsızlığı üzündən xalqımıza qarşı 1990-cı ilin əvvəlində qanlı 20 Yanvar faciəsi baş verdi.

Azərbaycan xalqı öz milli azadlığına doğru inamla addımlayırdı!

Xalqımız böyük müdriklik nümayiş etdirərək bir-birini əvəzləyən o zamankı hakimiyyətlərin cəmiyyətin dirçəliş və oyanışını milli səmtə yönəltmək iqtidarında olmadığını qət edərək yenə də Ulu öndər Heydər Əliyevə üz tutdu. Dahi siyasətçi xalqını bu taleyüklü məqamda yalqız qoya bilməzdi! Xalq və Heydər Əliyev tandemi Azərbaycanın milli qurtuluş yoluna çevrildi!

1991-ci ilin mart ayında Azərbaycan SSRİ Ali Sovetinin iclasında çıxış edən Ulu öndər gələcək mübarizə və inkişaf yolunu böyük uzaqgörənliklə bəyan edərək belə deyirdi: “Azərbaycan xalqı birləşməli, öz müqəddəs torpaqlarını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır”.

Ümummilli lider Heydər Əliyev bütün həyatı boyu bu müqəddəs amala sadiq qaldı, xalqın və Vətənin istiqlalı uğrunda fədakarlıqla mübarizə apardı. Son 20 ildə isə Azərbaycan dövləti Prezident İlham Əliyevin müdrik liderliyilə öz iqtisadi, hərbi gücünü birə-on artırdı. Dövlət başçımız ən mötəbər tribunalardan dəfələrlə bəyan edibdir ki, Azərbaycan xalqı heç vaxt torpaqlarının Ermənistan tərəfindən işğalı faktı ilə razılaşa bilməz. Milli Ordumuz bunu Qarabağ uğrunda müqəddəs savaşda sübut etdi!

Xalqımız Milli Dirçəliş Gününü 30 ilə yaxın ərazilərimizin 20 faizini işğal altında saxlayan, 28 il ərzində BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin tələblərinə məhəl qoymayan Ermənistan silahlı qüvvələrinə qarşı 44 günlük Vətən Müharibəsində ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Müzəffər Ordumuzun yağı düşmən üzərində möhtəşəm zəfəri ilə qeyd edir.

Azərbaycan bu gün dünyanın ən güclü, ədalətli və azadlıqsevər dövlətlərindən biri sayılır. Xalqımız öz istiqlalını, ərazi bütövlüyünü, şərəfini özünün igid oğullarının, şəhid və qazilərinin qeyri-adi şücaətləri, qəhrəmanlıqları sayəsində qoruyub. Xalqımıza və dövlətimizə eşq olsun!

***Məsaim ABDULLAYEV***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 412** **Bakı şəhəri, 13 noyabr 2023-cü il**

**Meşəqırma həcminin təsdiq edilməsi və “Meşəqırma həcminin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 9 iyun tarixli 99 nömrəli Qərarının ləğv edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Meşə Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 693 nömrəli Fərmanının 2-ci hissəsinin üçüncü abzasına əsasən Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təklifini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** İllik meşəqırma həcmi 84 (səksən dörd) min kubmetr təsdiq edilsin.

**2.** “Meşəqırma həcminin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 9 iyun tarixli 99 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 6, maddə 464) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 413** **Bakı şəhəri, 14 noyabr 2023-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 may tarixli 216 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yerin təkinin (qiymətli və əlvan (o cümlədən nəcib) metallar, qiymətli daş yataqları və təzahürləri istisna olmaqla) istifadəyə birbaşa danışıqlar yolu ilə verilməsi hallarının Siyahısı”nda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Yerin təki haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 31 may tarixli 899-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 may tarixli 216 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 950; 2022, № 1, maddə 86, № 9, maddə 1080) ilə təsdiq edilmiş “Yerin təkinin (qiymətli və əlvan (o cümlədən nəcib) metallar, qiymətli daş yataqları və təzahürləri istisna olmaqla) istifadəyə birbaşa danışıqlar yolu ilə verilməsi hallarının Siyahısı”nın birinci hissəsinin 1-ci abzasında “müsabiqə və hərrac” sözləri “hərrac (auksion və ya müsabiqə)” sözləri ilə, “müsabiqədə və hərracda” sözləri “hərracda (auksionda və ya müsabiqədə)” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 414** **Bakı şəhəri, 14 noyabr 2023-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş “Müfəssəl planların hazırlanması, razılaşdırılması və təsdiq olunması qaydaları, habelə həmin planların razılaşdırıldığı orqanların siyahısı”nda dəyişiklik edilməsi haqqında**

“Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 aprel tarixli 2109 nömrəli Fərmanının 4.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 57, № 11, maddə 1417; 2016, № 6, maddə 1193, № 10, maddələr 1725, 1743; 2017, № 4, maddə 636, № 6, maddə 1219, № 10, maddə 1882; 2018, № 1, maddə 139, № 11, maddə 2454; 2019, № 7, maddə 1311, № 12, maddə 2074; 2020, № 2, maddə 190, № 6, maddə 813; 2021, № 2, maddə 195; 2022, № 2, maddə 183, № 4, maddə 382) ilə təsdiq edilmiş “Müfəssəl planların hazırlanması, razılaşdırılması və təsdiq olunması qaydaları, habelə həmin planların razılaşdırıldığı orqanların siyahısı”nın 6.10-2-ci bəndi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 415** **Bakı şəhəri, 14 noyabr 2023-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 4 fevral tarixli 7 nömrəli Qərarı ilə təsdiq edilmiş “Pensiya yaşına çatmasına, əlilliyinə görə könüllü işdən çıxmış, dövlət qulluğu vəzifəsində “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 23.2-ci maddəsi ilə müəyyən edilmiş minimum 15 il qulluq stajına və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçularına təyin edilən ömürlük müavinətin təyin olunması Qaydası”nda və 2019-cu il 9 iyul tarixli 294 nömrəli Qərarı ilə təsdiq edilmiş “Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün ödənilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” 2022-ci il 20 dekabr tarixli 727-VIQD nömrəli və “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” 2022-ci il 20 dekabr tarixli 743-VIQD nömrəli qanunlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 4 fevral tarixli 7 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 114, № 11, maddə 969; 2005, № 1, maddə 51; 2008, № 8, maddə 787; 2017, № 2, maddə 325, № 6, maddə 1225; 2018, № 7 (II kitab), maddə 1639; 2019, № 6, maddə 1147; 2021, № 6 (IV kitab), maddə 667; 2022, № 3, maddə 268, № 4, maddə 424) ilə təsdiq edilmiş “Pensiya yaşına çatmasına, əlilliyinə görə könüllü işdən çıxmış, dövlət qulluğu vəzifəsində “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 23.2-ci maddəsi ilə müəyyən edilmiş minimum 15 il qulluq stajına və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçularına təyin edilən ömürlük müavinətin təyin olunması Qaydası”na aşağıdakı məzmunda 4-1-ci hissə əlavə edilsin:

“4-1. Müavinətin təyin edilməsi üçün zəruri olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.”.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 9 iyul tarixli 294 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1317; 2020, № 4, maddə 495; 2021, № 3, maddə 277, № 11, maddə 1294; 2022, № 3, maddə 269) ilə təsdiq edilmiş “Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün ödənilməsi Qaydası”na aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

“2.2-1. Təqaüdün təyin edilməsi üçün zəruri olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 416** **Bakı şəhəri, 15 noyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş “Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qaydaları”nda dəyişiklik edilməsi haqqında***

“Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2181 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 56; 2017, № 3, maddə 514; 2018, № 7 (II kitab), maddə 1646; 2019, № 2, maddə 358; 2020, № 6, maddə 813; 2022, № 5, maddə 552) ilə təsdiq edilmiş “Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissə üzrə:

1.1. 1.2-ci bənd ləğv edilsin;

1.2. 1.3.1-ci yarımbəndə “Reyestrə” sözündən sonra “qeydiyyat və uçot məqsədilə” sözləri əlavə edilsin;

1.3. 1.4-cü bəndə “Komitəsi” sözündən sonra “(bundan sonra – Komitə)” sözləri əlavə edilsin.

2. 2.1-ci bəndə “qeydə” sözündən sonra “, habelə müayinə edilmiş qeyri-yaşayış binalarını uçota” sözləri əlavə edilsin.

3. 4.2-1-ci bəndin ikinci cümləsində və 4.7-ci bənddə “Reyestrin” sözü “Komitənin” sözü ilə əvəz edilsin.

4. Aşağıdakı məzmunda 4-1-ci hissə əlavə edilsin:

“4-1. Uçot məqsədilə Reyestrə daxil edilən məlumatların tərkibi və reyestrə daxil edilməsi qaydası

4-1.1. Komitənin tabeliyində olan Ərazi Tikinti-Planlaşdırma Mərkəzi aşağıdakı məlumatları uçot məqsədilə Reyestrə təqdim edir:

4-1.1.1. qeyri-yaşayış binasının sifarişçisinin (sahibinin) adı;

4-1.1.2. qeyri-yaşayış binasının ünvanı (olduqda);

4-1.1.3. tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsi;

4-1.1.4. qeyri-yaşayış binasının əsas texniki göstəriciləri (faktiki);

4-1.1.5. qeyri-yaşayış binasının döngə nöqtələrinin koordinatları;

4-1.1.6. qeyri-yaşayış binasının yerləşdiyi torpaq sahəsinə dair hüquqmüəyyənedici sənəd (mövcud olduğu halda);

4-1.1.7. qeyri-yaşayış binasının istismara hazır olub-olmaması barədə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin rəyi;

4-1.1.8. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən hazırlanan qeyri-yaşayış binasının yerləşdiyi ərazinin planı;

4-1.1.9. qeyri-yaşayış binasının tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsinin layihəçisi barədə məlumat (hüquqi şəxs olduqda - adı, hüquqi ünvanı və lisenziyasının nömrəsi, tarixi, fiziki şəxs olduqda - soyadı, adı, atasının adı və lisenziyasının nömrəsi, tarixi).

4-1.2. Bu Qaydaların 4-1.1-ci bəndində qeyd olunan sənəd və məlumatlar 3 (üç) iş günü müddətində elektron bazaya daxil edilir və Komitənin internet səhifəsində yerləşdirilir.

4-1.3. Reyestrdə uçota alınan tikinti obyektinə kod verilmir.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Sumqayıt və Kazan universitetlərinin dostluğu

**Sumqayıt Dövlət Universitetinin rektoru Rüfət Əzizov Kazan Dövlət Energetika Universitetinin 55 illik təntənəli yubiley mərasimində iştirak edib.**

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Kazan Dövlət Energetika Universitetinin rektoru Edvard Abdullazyanovla görüşüb. Görüşdə iki universitet arasında qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişafı ilə bağlı müzakirə aparılıb, o cümlədən tələbə və müəllim mübadiləsi, birgə elmi-tədqiqatların həyata keçirilməsi, müştərək praktik-innovativ laboratoriyaların qurulması, yeni məzmun hazırlığı istiqamətində müxtəlif məsələlərə diqqət yetirilib, həmçinin 2024-cü il üçün dəqiq birgə fəaliyyət planının hazırlanması barədə qərar qəbul edilib.





Daha sonra nümayəndə heyəti sürücüsüz elektromobillərin və dronların tədqiqi, elektrik və energetika sahəsində bacarıqların əldə olunması, eləcə də tətbiq edilən qabaqcıl təcrübə və yanaşmalarla bağlı Kazan Dövlət Energetika Universitetinin mühəndislik laboratoriyalarında, innovasiya mərkəzlərində və kafedralarında yeni texnoloji proseslərlə yaxından tanış olublar.

***XQ***

# Növbəti hədəfimiz yüksək gəlirli ölkələr qrupuna daxil olmaqdır



## Son 20 ildə ölkədə ÜDM-in həcmi 11 dəfədən çox artıb

**(əvvəli 1-ci səhifədə)**

Bunu İqtisadiyyat naziri Mikayıl Cabbarov Bakıda "Dayanıqlı maliyyə və investisiya" mövzusunda keçirilən II Bakı Forumunda bildirib. Onun sözlərinə görə, strategiyanın icrası bir sıra sahələri inkişaf etdirəcək: "Strategiyanın icrası nəticəsində ölkə iqtisadiyyatının hər il orta hesabla 3-4 faiz, qeyri-neft-qaz ÜDM-in isə illik orta hesabla 5 faiz artımı, habelə özəl sektorun iqtisadiyyatda payının 88 faizə çatdırılması, 2021-ci illə müqayisədə 2026-cı ildə qeyri-neft-qaz ixracının həcminin 85 faiz artırılması hədəflənir" – deyə nazir əlavə edib.

XXI əsrin ötən 20 ili Azərbaycanda genişmiqyaslı islahatlar dövrü kimi yadda qalıb. Müasir iqtisadi yanaşmaların diqqətdə saxlanılması, iqtisadiyyatın şaxələndirilməsi, əlverişli biznes mühitinin yaradılması, investisiya cəlbediciliyinin gücləndirilməsi, vergi və gömrük sistemində köklü dəyişikliklər edilməsi, şəffaflığın artırılması kimi mühüm addımlar ölkədə dayanıqlı və inklüziv sosial-iqtisadi inkişafı gerçəkləşdirib. Bunun da nəticəsində, respublikamızda möhkəm təməllərə əsaslanan milli tərəqqi modeli formalaşdırılıb.

Bütün bunlar beynəlxalq aləmdə yüksək dəyərləndirilən müsbət göstəricilərlə diqqət çəkib. Məsələn, Dünya Bankının qiymətləndirmələrinə görə, Azərbaycan 2002-2022-ci illərdə yuxarı orta gəlirli ölkələr qrupuna daxil olub. Son 20 il ərzində ümumi daxili məhsul (ÜDM) 6,2 milyard dollardan 79 milyard dollara çatıb, ÜDM-in real həcmi 4 dəfə artıb. Adambaşına ÜDM 769 dollardan 7 min 798 dollara yüksəlib. Qeyri-neft-qaz ÜDM-i isə 4,1 milyard dollardan 41,1 milyard dollara çatıb.

Ölkənin xarici ticarət dövriyyəsi həmin müddətdə 3,8 milyard dollardan 52,7 milyard dollara yüksəlib. İxracın həcmi 2,2 milyard dollardan 38,1 milyard dollara çatıb. Qeyri-neft ixracı 0,26 milyard dollardan 3,05 milyard dollara yüksəlib.

Xarici ticarətin profisiti 0,5 milyard dollardan 23,6 milyard dolları dək artıb. 2003–2022-ci illər ərzində kənd təsərrüfatı 2,2 dəfə, nəqliyyat sektoru 4,9 dəfə, turizm və ictimai iaşə 18,9 dəfə, informasiya və rabitə sahəsi isə 23 dəfə artıb. Ötən müddətdə ölkəmizin strateji valyuta ehtiyatları 1,4 milyard dollardan 58,5 milyard dollara yüksəlib. 2002-ci illə müqayisədə 2022-ci ildə yoxsulluq səviyyəsi 46,7 faizdən 5,5 faizə enib.

Azərbaycanın 2030-cu ilədək Milli Prioritetlərində və 2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyasında hədəflənən nəticələrə və sağlam prinsiplərə əsaslanmaqla gələcəkdə qeyri-neft iqtisadiyyatını bir qədər də inkişaf etdirmək, insan kapitalının inkişafı nəticəsində dünya iqtisadiyyatında Azərbaycanın mövqeyini gücləndirmək, daha yuxarı gəlirli ölkələr qrupuna daxil olmaq qarşıya mühüm vəzifələr kimi qoyulur.

Azərbaycan hazırda postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2022–2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsindədir. Bu strateji dövrdə yeni nəsil struktur və institusional islahatlar vasitəsilə iqtisadi artımın müasir və dayanıqlı mənbələrinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın innovasiya yönümünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsi, ölkə iqtisadiyyatının qlobal dəyər zəncirinə səmərəli inteqrasiya yolu ilə Azərbaycan dövləti öz qüdrətini daha da artırmaqla yüksək rifah cəmiyyətinin qurulması istiqamətində yeni hədəfləri gerçəkləşdirmək əzmindədir.

Məhz bu məqsədlə "Azərbaycan–2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə əsaslanan "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın reallaşması ilə 2026-cı ilin sonuna ölkə iqtisadiyyatında əhəmiyyətli dəyişikliklərin baş verəcəyi, iqtisadi artımın tamamilə yeni keyfiyyət amilləri bazasında formalaşacağı, xüsusilə prioritet sahələrdə artım templərinin sürətlənəcəyi, iqtisadiyyatın və məşğulluğun dayanıqlığının daha da güclənəcəyi gözlənilir.

Özəl sektorun, o cümlədən mikro, kiçik və orta sahibkarlığın inkişafının yeni və daha səmərəli stimullar və inkişaf mühiti hesabına sürətlənəcəyi, özəl və xarici investorların ölkə iqtisadiyyatında fəallığının artacağı, qeyri-xammal ixracının genişlənəcəyi də proqnozlaşdırılır. Ekspertlərin apardıqları təhlillərə əsasən, qarşıdakı dövrdə qeyri-neft-qaz sektorunun, xüsusilə, ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsinə yönələn rəqabətqabiliyyətli aqrar istehsal və emalı sənayesinə dövlət dəstəyi artırılacaq, investisiya cəlbi sürətləndiriləcək, habelə dövlət–özəl tərəfdaşlığı ilə bu sahədə resurs-xidmət təminatına xüsusi önəm veriləcək.

Bütün bunlarla bərabər, 2026-cı ilədək makroiqtisadi və maliyyə sabitliyinin qorunması, dövlət büdcəsinin dayanıqlığının və səmərəliliyinin artırılması mexanizmləri təkmilləşdiriləcək. Eyni zamanda, kapital bazarının inkişaf mühitində əhəmiyyətli dəyişikliklər baş verəcək, real sektorun və sahibkarlığın maliyyə xidmətlərinə və resurslarına çıxış imkanlarının genişləndirilməsi mexanizmləri gücləndiriləcək.

Azərbaycan beynəlxalq müstəvidə ikitərəfli əməkdaşlıq çərçivəsində 30-dək ölkə ilə investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalayıb. Davamlı islahatlarla sərmayədarlar üçün yaradılan əlverişli biznes mühiti, güzəştlər, imtiyazlar və stimullar ölkə iqtisadiyyatına qoyulan investisiyaların artmasını, yeni istehsal sahələri və iş yerlərinin yaradılmasını təmin edir.

Beynəlxalq təşkilatlar tərəfindən keçirilən sorğuların nəticələrinə görə, ölkəmizdə biznes mühitinin daha da təkmilləşdirilməsi və investorların gözləntilərinin yaxşılaşması müşahidə edilir. 154 milyard dollar xarici investisiya olmaqla 2003–2022-ci illər ərzində ölkə iqtisadiyyatına yönəldilən investisiyaların ümumi həcminin 310 milyard dollar təşkil etməsi də məhz bunun bariz ifadəsidir. Belə ki, 2002-ci ildə iqtisadiyyata yönəldilən investisiyaların həcmi 2,8 milyard dolları idisə, ötən il bu rəqəm 17,1 milyard dollara çatıb. 2003–2022-ci illər ərzində isə ölkə iqtisadiyyatına qoyulan birbaşa xarici investisiyaların həcmi 100,7 milyard ABŞ dolları təşkil edib.

Bu dövrdə ölkəmizin ticarət tərəfdaşlarının sayı artaraq 2022-ci ildə 55-dən 185-ə çatıb. Ötən il Azərbaycandan 110-dan çox ölkəyə qeyri-neft məhsulları ixrac olunub. Qeyri-neft-qaz ixracı sahəsində coğrafi şaxələnmə ilə yanaşı, məhsul çeşidlərinin şaxələnməsi üzrə də uğurlu nəticələr əldə olunub. Beynəlxalq sərgi və ticarət yarmarkalarında ölkə sahibkarlarının iştirakına və "Made in Azerbaijan" brendinin xaricdə tanıdılmasına dəstək tədbirlərİ də ixracın artımını stimullaşdırır.

Hazırlanan Milli İxrac Strategiyasında qısa və orta perspektivdə mövcud məhsulların yeni bazarlara, uzunmüddətli perspektivdə isə yeni məhsulların yeni bazarlara ixracı hədəflənir. 2021-ci illə müqayisədə 2026-cı ildə Azərbaycanın qeyri-neft ixracının 85 faiz, yəni təxminən 5 milyard dollar səviyyəsində artırılması nəzərdə tutulur.

***Vaqif BAYRAMOV***
***XQ***

# Büdcəyə 5,2 milyard manat gömrük vəsaiti daxil olub

**2023-cü ilin yanvar–oktyabr aylarında gömrük xətti ilə büdcə daxilolmaları 12,7 faiz artaraq 5 milyard 235,8 milyon manata çatıb. Ötən ilin eyni dövründə isə bu rəqəm 4 milyard 646,7 milyon manat təşkil edib.**



Bu barədə XQ-yə Dövlət Gömrük Komitəsindən məlumat verilib. Məlumata görə, hesabat dövründə gömrük rüsumları üzrə daxilolmalar 1 milyard 356,9 milyon manat (ötən ilin eyni dövrünə nisbətən 19,3 faiz çox), əlavə dəyər vergisi üzrə daxilolmalar 3 milyard 655,7 milyon manat (10 faiz çox), aksizlər üzrə daxilolmalar 186,5 milyon manat (39,3 faiz çox), yol vergisi üzrə daxilolmalar isə 36,5 milyon manat (30,6 faiz az) təşkil edib.

# Yeni nəzarət-kassa aparatları ilə dövriyyə 18 milyard manata çatıb

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən ölkədə yeni nəsil nəzarət-kassa aparatlarının (NKA) tətbiqi istiqamətində işlər davam etdirilir.**



Dövlət Vergi Xidmətinin məlumatına görə, indiyədək ölkə ərazisində 94 min 20 ədəd yeni nəsil NKA quraşdırılıb. Nəzarət-kassa aparatlarından istifadə hesablaşmaların daha şəffaf aparılmasına, malların qanunsuz dövriyyəsinin qarşısının alınmasına və dövriyyəyə nəzarətin təmin edilməsinə imkan yaradıb.

Qeyd edək ki, 2023-cü ilin yanvar–oktyabr ayları ərzində yeni nəsil NKA-lar vasitəsilə qeydə alınan dövriyyə 18 milyard manata yaxın olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 15 faiz çoxdur.

# 10 ayda 25,3 milyon ton neft və 40,1 milyard kubmetr qaz çıxarılıb

**Operativ məlumatlara əsasən, cari ilin 10 ayında Azərbaycanda neft-kondensat hasilatı 25,3 milyon ton, ixracı isə 21 milyon ton olub.**



Bunu energetika naziri Pərviz Şahbazov "X" sosial şəbəkəsindəki hesabında bildirib. "Bu dövrdə 4,2 faiz artımla hasil edilmiş 40,1 milyard kubmetr qazın 19,8 milyard kubmetri ixrac olunub",– deyə nazir əlavə edib.

Azərbaycan Cənub Qaz Dəhlizi (CQD) ilə Avropaya qaz tədarükünə 2020-ci il dekabrın 31-də də başlayıb. Nəhəng enerji dəhlizi ilə Xəzər dənizi regionundan hasil olunan qaz Gürcüstan və Türkiyə vasitəsilə Avropa ölkələrinə nəql olunur. Layihə 33 milyard ABŞ dolları dəyərindədir. CQD-nin əsaslı xərclərinin 8-10 il ərzində tam çıxarılacağı gözlənilir.

Xatırladaq ki, ötən ilin iyul ayında Azərbaycan və Avropa İttifaqı CQD vasitəsilə qaz tədarüklərinin həcmini 2027-ci ilədək hazırkı 10 milyard kubmetrdən 20 milyard kubmetrə çatdırmaq barədə razılığa gəliblər.

***XQ***

# Azərbaycan Çin Beynəlxalq İdxal Sərgisində

## Qarşılıqlı təqdimatlar iki ölkənin iqtisadi əməkdaşlığına yeni meydan açıb

**Xəbər verildiyi kimi, noyabrın 5–10-da Çinin iri maliyyə-biznes mərkəzi olan Şanxay şəhərində 6-cı Beynəlxalq İdxal Sərgisi ("China International Import Expo" – CIIE 2023) keçirilib.**




İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) məlumatına görə, "Shanghai World Expo" Sərgi və Konqres Mərkəzində təşkil olunan bu sərginin təşkilatçıları qismində Çinin Ticarət Nazirliyi, Şanxay Xalq Hökuməti və Çin Beynəlxalq İdxal Sərgi Bürosu çıxış ediblər. Yeri gəlmişkən, 2018-ci ildən keçirilən ənənəvi Çin Beynəlxalq İdxal Sərgisi dünya üzrə ölkə səviyyəsində yeganə, həm də ilk böyük idxal sərgisidir.

Çin Xalq Respublikasının Sədri Si Cinpinin himayəsi ilə keçirilən sərgi idxal məhsullarının və xidmətlərinin Çin bazarına daxil olmasını təşviq etmək və bu işə dəstək məqsədi daşıyır. Builki sərginin gedişində 442 məhsul, texnologiya və xidmət ictimaiyyətə ilk dəfə təqdim olunub. Şanxay sərgisində 70-dən çox ölkənin milli stendi ilə yanaşı, müxtəlif sahələr üzrə şirkətlərin biznes pavilyonları da fəaliyyət göstərib. Sərgidə 154 ölkə və beynəlxalq təşkilatdan 3400 iştirakçı, o cümlədən "Global Fortune 500" siyahısından 289 şirkət iştirak edib. Bütövlükdə isə, sərgini 400 mindən çox şəxs, o cümlədən idxalçı şirkətlərin nümayəndələri ziyarət edib.

6-cı Beynəlxalq İdxal Sərgisində Azərbaycanı Baş nazirin müavini, Azərbaycan–Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərliyi ilə dövlət qurumlarının rəhbər şəxslərindən ibarət nümayəndə heyəti təmsil edib. Azərbaycanın İqtisadiyyat Nazirliyi və Çindəki Ticarət Nümayəndəliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin təşkilatçılığı ilə sərgidə vahid ölkə və kommersiya stendləri fəaliyyət göstərib. Birinci stenddə Azərbaycanın turizm, innovasiya, "yaşıl enerji", sənaye, kənd təsərrüfatı, mədəniyyət, xalçaçılıq kimi sahələrdə əldə olunmuş nailiyyətlər, perspektivlər, həmçinin ölkəmizdə yaradılmış əlverişli biznes və investisiya mühiti, o cümlədən potensial investisiya layihələri nümayiş olunub.

Sərgi təşkilatçılarının "Made in Azerbaijan" stendində isə ziyarətçilərə Azərbaycan şirkətlərinin istehsal etdikləri müxtəlif çeşiddə şərablar, alkoqollu və alkoqolsuz içkilər, qənnadı məmulatları, fındıq, nar şirəsi, konservlər və digər məhsullar nümayiş olunub. Yüksək marağa səbəb olan "Made in Azerbaijan" stendində ziyarətçilərə ölkəmizdə istehsal edilən məhsullara dair kataloqlar da təqdim olunub, həmin məhsulların dequstasiyası keçirilib. Stenddə, həmçinin B2B görüşlər üçün ayrılmış xüsusi yerlərdə Azərbaycan sahibkarları xarici ölkələrdən olan həmkarları ilə görüşlər keçirib, məhsul ixracına dair müzakirələr aparıblar.

Eyni zamanda, "Made in Azerbaijan" stendində AZPROMO və Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) də təmsil olunub. Sərginin gedişində ziyarətçilərə ölkəmizdə sahibkarlara göstərilən dəstək, mövcud əlverişli biznes və investisiya mühiti barədə müvafiq materiallar təqdim edilib. Şanxayda səfərdə olan Baş nazirin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi dövlət rəsmilərindən ibarət Azərbaycan nümayəndə heyəti də ölkə stendi ilə tanış olub.

6-cı Beynəlxalq İdxal Sərgisi çərçivəsində ölkə stendində KOBİA və Çin-ŞƏT Yerli İqtisadi və Ticarət Əməkdaşlıq Nümayiş Ərazisi (SCODA) arasında Anlaşma Memorandumu imzalanıb. Ümumilikdə isə, Şanxayda keçirilmiş sərgidə 78,41 milyard ABŞ dolları dəyərində ticarət və xidmət razılaşmaları əldə olunub. Sərginin təşkilat komitəsinin yaydığı məlumatda bildirilir ki, bu rəqəm ötənilki göstəricidən 6,7 faiz çoxdur.

Qeyd edək ki, son bir neçə onillikdə Çinin sosial-iqtisadi inkişafı əhalinin maddi gəlirlərinin yüksəlməsi ilə müşayiət olunur. Çində əhalinin orta gəlirli təbəqəsinin sayının 400 milyon nəfərə çatması ölkədə daha keyfiyyətli və geniş çeşiddə məhsullara ehtiyacı artırıb. Statistikaya əsasən, son illər dünyada ümumi idxalın təxminən 10 faizi məhz bu ölkənin payına düşüb. Çin qarşıdakı 15 il ərzində 4,3 trilyon ABŞ dolları dəyərində məhsul idxal etməyi planlaşdırır. Ekspertlər Şanxay sərgisini ölkənin idxal planının reallaşdırılması baxımından əla fürsət kimi dəyərləndirirlər.

Yeri gəlmişkən, hazırda Çin Azərbaycanın iqtisadi sahədə fəal əməkdaşlıq etdiyi ölkələrdən, əsas ticarət tərəfdaşlarındandır. Son illər ölkələrimiz arasında ticarət dövriyyəsinin dinamikası da bunu təsdiqləyir. Belə ki, 2015-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 561 milyon ABŞ dolları təşkil etdiyi halda, 2022-ci ildə bu rəqəm, təqribən, 2 milyard 160 milyona yüksəlib. Cari ilin 6 ayında isə Azərbaycanla Çin arasında 1 milyard 321,8 milyon dollarlıq idxal-ixrac əməliyyatları həyata keçirilib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 37,7 faiz və ya 361,9 milyon dollar çoxdur. Qeyd edək ki, Azərbaycan Çinə, əsasən, xam neft və neft-kimya sənayesi məhsulları ixrac edir. Çindən isə ölkəmizə çox geniş çeşiddə məhsullar (elektrotexnikadan tutmuş ətriyyata qədər) gətirilir. Bununla yanaşı, ölkələrimiz arasında qarşılıqlı investisiya yatırımları sahəsində də fəal əməkdaşlıq əlaqələri mövcuddur.

Çin, həm də ölkəmizin fəal nəqliyyat-logistika tərəfdaşıdır. Təkcə onu qeyd etmək kifayətdir ki, Tarixi İpək Yolunun üstündə yerləşən Azərbaycan 2013-cü ildə Çin lideri Si Cinpin tərəfindən irəli sürülmüş "Bir kəmər – bir yol" təşəbbüsünü də yaxından dəstəkləyir və layihənin gerçəkləşdirilməsi istiqamətində fəal iş aparır.

Göründüyü kimi, Çində keçirilən ənənəvi Beynəlxalq İdxal Sərgisi illik ticarət dövriyyəsinin, eləcə də investisiya sahəsində əməkdaşlığın genişləndirilməsi baxımından hər iki ölkə üçün faydalı hesab oluna bilər.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri Azərbaycan üçün də prioritetdir

**Növbəti 7 ildə Dayanıqlı İnkişaf Məqsədləri (DİM) sahəsində ciddi işlər həyata keçirilməlidir. Ölkələr, dövlətlər 2030-cu ilə qədər daha böyük səylər göstərməlidirlər ki, bu qlobal layihə uğurla həyata keçirilsin. Bu və digər məsələlər barədə noyabrın 15–16-da Dayanıqlı İnkişafa dair 2-ci Bakı Forumunda ətraflı bəhs edilib.**



Tədbirdə çıxış edən Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov DİM layihəsinin həyata keçirilməsi üçün 2030-cu ilə qədər vaxt ayrıldığını xatırladaraq bildirib ki, Azərbaycan bu qlobal sənədin icrasını özünün prioriteti hesab edir. Qeyd olunub ki, bu gün dünyada insanların çoxu müharibələrin, müharibədən sonra ərazilərdə basdırılan minaların qurbanına çevrilir. Ə. Əhmədov Azərbaycanın dünyada minalardan ən çox əziyyət çəkən ölkələrdən biri olduğunu diqqətə çatdıraraq deyib ki, işğaldan azad edilmiş ərazilərimizdə minaların partlaması nəticəsində 3 mindən çox insan həyatını itirib. Mina problemini təkcə Azərbaycanın deyil, dünyanın da aktual problemi kimi səciyyələndirən Baş nazirin müavini Bakı forumunda DİM-in minalarsız cəmiyyət, minalarsız dünya strategiyasını qəbul etməyə həssaslıqla yanaşacağına əminliyini bildirib.

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov çıxışında qeyd edib ki, ölkəmiz Dayanıqlı İnkişaf Məqsədlərinin icrasına böyük önəm verir. Bildirilib ki, Azərbaycan hökumətinin qlobal çağırışları nəzərə alaraq təsdiq etdiyi 2030-cu ilədək 5 milli prioriteti və "2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyası" DİM-lərə sıx inteqrasiya olunub. Bu amil "Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi" üzrə ölkəmizin götürdüyü öhdəliklərin icrasının sürətləndirilməsinə xidmət edir.

Azərbaycanın regionda ilk olaraq DİM-lərin icrası istiqamətində görülmüş işlərin yekunu kimi BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna üç Könüllü Milli Hesabat təqdim etdiyini vurğulayan nazir növbəti sənədin 2024-cü ildə təqdim ediləcəyini diqqətə çatdırıb. "Bu il ölkəmizdə ilk dəfə olaraq, BMT-nin İnkişaf Proqramının dəstəyi ilə dövlət xərclərinin DİM-lər ilə əlaqələndirilməsi üzrə metodologiya hazırlanıb. Büdcə xərc maddələrinin DİM hədəfləri ilə ilkin əlaqələndirilməsi göstərir ki, 2022-ci ildə icmal büdcənin ümumilikdə 80 faizdən çoxu DİM hədəfləri ilə əlaqəlidir. Bu rəqəm 2022-ci il üzrə ümumi daxili məhsulun təxminən 23 faizinə bərabərdir",–deyə o əlavə edib.

DİM-lərin icrasına dövlət sektoru ilə yanaşı, özəl sektorun da cəlb edilməsini olduqca vacib hesab edən M. Cabbarov deyib ki, bu məqsədlə BMT-nin İnkişaf Proqramının ölkə nümayəndəliyinin dəstəyi ilə beynəlxalq və yerli investorlar, həmçinin təsir yaratmaq potensialı olan müəssisə və startaplar üçün bir sıra tədbirlər görülüb, Dayanıqlı İnkişaf Məqsədlərinə investisiyanın cəlb edilməsinə dair DİM İnvestisiya Xəritəsi və İnvestisiya Ekosisteminin Tədqiqatı təşəbbüsləri icra olunub.

Azərbaycanda aktiv sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayının 683 mindən çox olduğunu vurğulayan nazir bildirib ki, hazırda ölkəmizdə özəl bölmənin ÜDM-də payı 86,5 faiz, məşğulluqda payı isə 78 faizdən artıqdır. Onun sözlərinə görə, güclü özəl sektor rəqabətqabiliyyətli layihələrin icrasına, eləcə də yeni müəssisələrin və iş yerlərinin yaradılmasına öz töhfəsini verir. Bu da DİM hədəfləri arasında çox önəmli istiqamətlərdəndir. Qeyd olunub ki, Azərbaycanda dövlət-özəl sektoru tərəfdaşlığı çərçivəsində görülən işlər də DİM-lərə nail olunması baxımından əhəmiyyətli mexanizmlərdən biri kimi qiymətləndirilə bilər. Bu məqsədlə ölkəmizdə ötən il dekabrın 9-da dövlət-özəl tərəfdaşlığı haqqında qanun qəbul edilib.

M. Cabbarovun sözlərinə görə, qlobal çağırışlar fonunda ölkə iqtisadiyyatında bir çox ölkələrlə müqayisədə müsbət nəticələrə nail olunması, məhz möhkəm təməllərə əsaslanan milli iqtisadi inkişaf modeli ilə şərtlənir. Son 20 ildə Azərbaycanda Ümumi Daxili Məhsulun 4 dəfə artdığını diqqətə çatdıran nazir ölkəmizdə həyata keçirilən iqtisadiyyatın şaxələndirilməsinin, qeyri-neft-qaz sektorunun, eləcə də sahibkarlığın inkişafının, xüsusən də uğurlu sənayeləşmə siyasətinin iqtisadiyyatın davamlı və dayanıqlı inkişafına öz töhfəsini verdiyini bildirib. Natiq, həmçinin ölkəmizdə iqtisadiyyatın inkişafına, ixrac potensialının artırılmasına, rəqabətqabiliyyətli məhsul istehsalına töhfə verən sənaye parklarının uğurlu fəaliyyətindən bəhs edərək deyib ki, son illər onların sırasına işğaldan azad edilmiş bölgələrimizdə fəaliyyət göstərən Ağdam Sənaye Parkı və Araz Vadisi İqtisadi Zonası da qoşulub.

2026-cı ildə Azərbaycanda qeyri-neft-qaz ixracının həcminin 85 faiz artırılmasını qarşıya başlıca məqsəd kimi qoyulduğunu vurğulayan nazir qeyd edib ki, Azərbaycanın Milli Prioritetlərində və "2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyası"nda qeyri-neft iqtisadiyyatını daha da inkişaf etdirmək, insan kapitalının inkişafı nəticəsində dünya iqtisadiyyatındakı mövqeyi gücləndirmək və yüksək gəlirli ölkələr qrupuna daxil olmaq hədəflənir. Onun sözlərinə görə, strategiyanın icrası nəticəsində ölkə iqtisadiyyatının hər il orta hesabla 3-4 faiz, qeyri-neft qaz ÜDM-in isə illik orta hesabla 5 faiz artımı, habelə özəl sektorun iqtisadiyyatda payının 88 faizə çatdırılması, 2021-ci illə müqayisədə 2026-cı ildə qeyri-neft-qaz ixracının həcminin 85 faiz artırılması hədəflənir.

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycandakı rezident əlaqələndiricisi və nümayəndəsi Məhəmməd Nasar bildirib ki, BMT-nin ölkə üzrə qrupu Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin əldə edilməsini dəstəkləyir. BMT-nin Azərbaycanın DİM-in əldə edilməsindəki irəliləyişini sürətləndirmək məqsədilə maraqlı tərəfləri cəlb etməyə və əməkdaşlıq üçün uyğun mühit yaratmağa çalışdığını vurğulayan nümayəndənin fikrincə, Bakı forumu ölkələr arasında bilik və təcrübə mübadiləsi üçün platforma təmin etməklə Dayanıqlı İnkişaf Məqsədlərinin əldə edilməsində irəliləyişin sürətlənməsinə imkan yaradır. "İki gün ərzində məzmunlu panel müzakirələri, bilik və aparıcı praktikaların mübadiləsi regionda da DİM-in maliyyələşdirilməsinin maksimallaşdırılması üçün yeni yanaşmaların hazırlanması və innovativ həllərin təşviqi üçün mühüm vasitə olacaq", – deyə o əlavə edib.

Qeyd edək ki, 2030-cu ilədək BMT gündəliyinin reallaşdırılmasında region ölkələri və beynəlxalq təşkilatlarla təcrübə mübadiləsi və əməkdaşlığın möhkəmləndirilməsi məqsədi daşıyan Dayanıqlı İnkişafa dair II Bakı Forumunda Avropa və MDB ölkələrinin yüksək vəzifəli şəxsləri, BMT, beynəlxalq maliyyə və regional təşkilatların, dövlət institutlarının, vətəndaş cəmiyyətinin və özəl sektorun nümayəndələri, eləcə də ekspertlər iştirak ediblər.

Yeri gəlmişkən, Dayanıqlı İnkişaf Məqsədləri BMT Baş Assambleyasının 2015-ci il sentyabrın 25-də qəbul etdiyi qətnamə ilə təsdiq olunub. Bu qlobal sənəd növbəti 15 il müddətinə insan inkişafı üçün son dərəcə əhəmiyyətli imkanların yaradılmasına, planetimizi qorumaqla qlobal inkişafın dayanıqlılığını təmin edilməsinə təkan verəcək 17 məqsəd və 169 hədəfdən ibarətdir. "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də əks olunan Dayanıqlı İnkişaf Məqsədləri 1 yanvar 2016-cı il tarixində rəsmi şəkildə qüvvəyə minib. Hər kəsi əhatə edən və universal xarakter daşıyan bu yeni məqsədlər fonunda qarşıdakı 15 il ərzində ölkələr "heç kəsi kənarda qoymamaq" prinsipini rəhbər tutaraq yoxsulluğun bütün formalarının aradan qaldırılmasını hədəfləyir.

***M. YAQUBZADƏ***
***XQ***

# 2024-cü ilin dövlət büdcəsində sosial hədəflər önəmli yer tutur

**Milli Məclisdə 2024-cü ilin dövlət büdcəsi zərfinə daxil olan qanun layihələri birinci oxunuşda qəbul ediləndən dərhal sonra bəzi media qurumlarında bu sənəddə əvvəlkilərdən fərqli olaraq gəlir və xərclərlə bağlı ciddi artımlar "gözə dəymədiyi" bildirilib. Əslində belə bir iddianın səsləndirilməsi ilə mövcud reallıq təhrif olunub və bununla hakimiyyətə qara yaxmaq məqsədi güdülüb.**






Fikrimin təsdiqi kimi bir məqama aydınlıq gətirmək istərdim. Belə ki, gələn ilin büdcəsi tərtib olunarkən əvvəlki ilin büdcə göstəriciləri, ölkə iqtisadiyyatının növbəti ildə inkişaf parametrləri və digər bir sıra göstəricilər əsas götürülür. Bu göstəricilərin sırasında isə əsas yeri əvvəlki ilin büdcəsinin gəlir və xərcləri tutur. Bu səbəbdən də 2024-cü ilin büdcə göstəricilərini dəyərləndirərkən cari il iyun ayında 2023-cü ilin büdcəsində aparılmış dürüstləşməni xatırlatmaq zəruridir.

Qeyd edim ki, 2023-cü ilin büdcəsi keçən ilin dekabr ayında qəbul edilərkən onun gəlirləri 30 milyard 744 milyon manat, xərclər isə 33 milyard 353 milyon manat səviyyəsində müəyyənləşdirilmişdi. Lakin cari ilin iyun ayında Milli Məclis büdcənin gəlirlərini 3 milyard 5 milyon manat, xərclərini isə 3 milyard 216 milyon manat artıraraq bu göstəriciləri müvafiq olaraq 33 milyard 779,5 milyon manata və 36 milyard 568,8 milyon manata çatdırdı. Bu, cari il üçün təsdiq olunmuş büdcənin gəlir və xərclərinin müvafiq olaraq 9,8 faiz və 9,6 faiz artırılması deməkdir. Əgər gələn ilin büdcəsinin gəlir və xərclərini cari ilin dövlət büdcəsinin ilkin variantında nəzərdə tutulmuş gəlir və xərclərin səviyyəsi ilə müqaisə etsək, o halda növbəti ildə büdcə gəlirlərinin 11,2 faiz, xərclərinin isə 10,2 faiz artdığı aydın görünər.

Növbəti ilin büdcəsinin də gələn ilin ortalarında yenidən baxılmayacağına heç kim təminat verə bilməz. Bu, ilk növbədə, dünyada gedən iqtisadi-siyasi proseslərin hansı axarla davam edəcəyindən asılı olacaq. Beynəlxalq aləmdə baş verən ciddi siyasi hadisələr dünyanın iqtisadi müstəvisində əsaslı dəyişikliklərə gətirib çıxara bilir. Çünki bu gün gələn il dünya bazarlarında neftin və ya qazın qiymətlərində hansı dəyişikliklər baş verəcəyini, yaxud dünya iqtisadiyyatını silkələyəcək hər hansı yeni bir virus növünün ortaya çıxacağını proqnozlaşdırmaq qeyri-mümkündür. Bütün bu riskləri göz önünə almadan büdcədə növbəti il üçün real olmayan gəlir və xərcləri proqnozlaşdırmaqdansa, onu bü günün reallıqları ilə səsləşən göstəricilərlə qəbul etmək daha doğru seçimdir.

Bu ilki büdcəni tənqid edənlərə xatırlatmaq istərdim ki, onların hakimiyyətdə olduğu cəbhə hakimiyyəti dövründə – 1992-ci ilin büdcəsini parlament təsdiq etmədi və həmin il tarixə büdcəsiz il kimi düşdü. 1993-cü ilin dövlət büdcəsi isə o zaman dekabr ayının son günündə təsdiq olundu. Belə bir vəziyyəti yaradanlar isə indi hakimiyyətə "büdcə dərsi" verməyə cəhd edirlər…

Qeyd edim ki, artıq bir neçə ildir ki, ölkəmizin dövlət büdcəsinin formalaşmasında qeyri-neft sektorunun rolu sürətlə artır. Belə ki, əgər 2015-ci ildə dövlət büdcəsinə qeyri-neft sektorundan cəmi 7,3 milyard manat vəsait daxil olmuşdusa, gələn il bu vəsaitin həcminin 42,9 faiz artırılaraq, 17 milyard manata çatdırılması nəzərdə tutulur.

Dövlətin ölkə iqtisadiyyatının real sektorunun inkişafı istiqamətində apardığı siyasətin nəticəsidir ki, müqaisə aparılan illər ərzində dövlət büdcəsinin gəlirlərində qeyri-neft sektorundan daxilolmaların xüsusi çəkisi 2015-ci ildəki 41,6 faizdən 8,2 faiz artaraq 2024-cü ildə 49,8 faizə yüksələcək. Bu, bir neft ölkəsinin büdcəsinin gəlirlərinin formalaşmasında neftdən asılılığın aradan qaldırılmasını ortaya qoyan ciddi bir faktdır.

Növbəti ildə dövlət büdcəsinin xərclərinin 42,9 faizini sosialyönümlü xərclər təşkil edəcək. Təkcə bu bu göstərici dövlətin sosial xarakterini diqqətə çatdırır. Dövlət büdcənin sosialyönümlü xərclərinin 2020-ci ildəki 9 milyard 755,2 milyon manatdan 61,7 faiz və ya 6 milyard manatdan çox artırılması dövlətin vətəndaşına olan qayğısının gerçək təzahürüdür.

2024-cü ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat xərcləri 4 milyard 542,2 milyon manat nəzərdə tutulub ki, bu da 2022-ci ilin dövlət büdcəsinin icra göstəricilərindən 1 milyard 77,8 milyon manat və ya 31,1 faiz çoxdur.

Büdcədə sosial xərclərin əhalinin daha həssas qrupları üzrə də üstün artımları nəzərdə tutulur. Belə ki, gələn il vətəndaşlarımızın gəlir əldə etmək imkanlarının və rifahının yaxşılaşdırılması, yoxsulluq səviyyəsinin azaldılması, aztəminatlı ailələrin, xüsusilə də insanlarımızın sosial cəhətdən daha həssas hesab edilən təbəqəsinin sosial müdafiəsini gücləndirmək üçün 2024-cü ilin büdcəsində 2 milyard 630,7 milyon manat vəsait nəzərdə tutulmuşdur ki, bu da 2023-cü ilin büdcəsində bu məqsədlər üçün ayrılmış vəsaitdən 649,6 miyon manat və ya 32,8 faiz çoxdur.

Şübhəsiz ki, gələn ilin büdcəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpa-quruculuq və ölkəmizin müdafiə qüdrətinin möhkəmləndirilməsi xərcləri də prioritet istiqamətlər sırasındadır.

Bir sözlə, gələn ilin büdcəsi ölkə iqtisadiyyatının və onun aparıcı həlqəsi olan qeyri-neft sektorunun sürətli inkişaf parametrlərinə uyğun olaraq tərtib edilən tam optimal bir büdcədir.

***Fikrət YUSİFOV,***
***iqtisad elmləri doktoru, professor***



# Naxçıvanda şəhid ailələrinə, qazilərə mənzillər və avtomobillər təqdim olunub

**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli şəhid ailəsi və qazilərlə görüşüb. Mərasimdə 3 şəhid ailəsinə, 14 qaziyə və daha bir imtiyazlı sakinə yeni mənzillərin orderləri, 5 qaziyə və 2 sağlamlıq imkanları məhdud şəxsə isə avtomobillər təqdim edilib.**



Səlahiyyətli nümayəndə Fuad Nəcəfli qeyd edib ki, dövlətimiz şəhid ailələrinə və qazilərimizə davamlı qayğı göstərir. Onların sağlamlığı daim diqqətdə saxlanılır, həyat şəraitinin yaxşılaşdırılması məqsədilə ardıcıl sosial layihələr həyata keçirilir. Naxçıvanda şəhid ailələri və qazilərlə bağlı ictimai birliklərin yaradılması bu layihələrin daha tez şəkildə yerinə yetirilməsinə, problemlərin operativ həllinə imkan verəcək.

Şəhid Yaqub Nəcəfovun atası Məhəmməd Nəcəfov şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlıq edib.

Şəhid ailələrinə və qazilərə ayrılan mənzillər Naxçıvan, Ordubad, Babək, Şahbuz, Culfa şəhərlərində, eləcə də Sədərək rayonunun Heydərabad və Kəngərli rayonunun Qıvraq qəsəbələrindəki yaşayış binalarında yerləşir.

***Səbuhi HƏSƏNOV***
***XQ***

**Ermənistan hökuməti bir tərəfdən Azərbaycanla sülh müqaviləsinin tezliklə imzalanmasına çalışdığını bildirir, bunun üçün siyasi iradəyə malik olduğunu qeyd edir, digər tərəfdən isə ölkəni, necə deyərlər, cəbbəxanaya çevirmək istiqamətində səylərini gücləndirir. Üstəlik, gələn ilin dövlət büdcəsində hərbi sahəyə ayrılan vəsait əhəmiyyətli dərəcədə artırılır. Baş nazir Nikol Paşinyan noyabrın 16-da parlamentdə çıxış edərkən yenidən bu məsələyə toxunub. Deyib ki, hərbi xərclərin artırılması, guya, Azərbaycana qarşı yönəlməyib: "Bu, müharibəyə deyil, sülhə hazırlıqdır, çünki vətəndaşların təhlükəsizliyinin təmin edilməsi sülh və sabitliyin ən mühüm təminatıdır. Biz heç kimə hücum etmək niyyətində deyilik. Əminəm ki, bütün qonşu dövlətlər də bunu anlayışla qarşılayır". Hərbi xərclərin artırılmasının müharibəyə deyil, sülhə hazırlıq olduğu fikrini yalnız Paşinyan kimi macərapərəst, düşünmədən hərəkət edən hökumət başçısı səsləndirə bilərdi.**

# İrəvanın revanşizmə sürüklənməsinin Qərb "ssenarisi"



## *Ermənistanı silahlandırmaq ona üstünlük deyil, təhlükə gətirir*

Qeyd etdiyimiz kimi, Ermənistan bir sıra ölkələrdən, əsasən, Fransa və Hindistandan silah-sursat idxalını davam etdirir. Aydın məsələdir ki, həmin silahlar anbarda pas atması üçün alınmır. İrəvan onlardan Azərbaycana qarşı istifadəyə çalışacaq. Paralel olaraq, Qərbin müxtəlif ölkələri və təsisatları tərəfindən Ermənistana verilən siyasi dəstək də artırılır. Cənubi Qafqazda sülh, sabitlik və əmin-amanlıq görmək istədiklərini hər zaman bəyan edən Qərb ölkələri əslində hərəkətləri ilə Ermənistanı şüurlu şəkildə revanşizmə sürükləyirlər.

Son aylarda Ermənistana silah tədarükü ilə bağlı məlumatlar intensivləşib. Bununla bağlı demək olar ki, hər gün yeni məlumat yayılır. Dünən yayılan xəbərdə Hindistanın Ermənistana iki cür qumbara tədarük edəcəyi bildirilib. Bu barədə Hindistanın "Indian Aerospace Defense News" hərbi xəbər portalı məlumat yayıb. Qeyd edilib ki, "Munitions India Limited" şirkəti tərəfindən Ermənistana 30 və 40 mm kalibrli 150 min ədəd qumbara çatdırılacaq. Mənbə yazır ki, "MIL" şirkəti isə iki ay əvvəl Ermənistana 5 milyon ədəd 7,62 millimetrlik patron tədarük edib.

Fransa da artıq Ermənistana "ACMAT Bastion" zirehli nəqliyyat vasitələrini tədarük edib. Noyabrın 11-dən 12-nə keçən gecə Gürcüstanın Poti limanında Ermənistan ordusuna çatdırılması üçün nəzərdə tutulan həmin çoxməqsədli zirehli maşınlar və müxtəlif hərbi avadanlıqlar yüklənərək göndərilib. Ancaq Paşinyan hökumətinin korafəhmliyi hərbi ehtiyacların qiymətləndirilməsi məsələsində də özünü nümayiş etdirib. Məsələn, hərbi ekspert Hayk Nahapetyan yerli nəşrlərdən birinə müsahibəsində bildirib ki, "Bastion" zirehli transportyorları açıq düzənliklərdə yaxşıdır, Ermənistanın dağlıq şəraitində isə qeyri-effektiv olacaq. Onun sözlərinə görə, "Bastion"lar, ilk növbədə, şəxsi heyətin daşınması üçün nəzərdə tutulub. Əsas üstünlüyü isə düzənlik ərazidə yüksək sürətlə hərəkət etməsi və birbaşa görünmə şəraitində hərəkətdə olan rəqib texnikasını vurmaq bacarığıdır: "Bizim dağlarımız, təpələrimiz və dərələrimiz arasında bu texnika düşmənin asan hədəfinə çevriləcək. Üstəlik, "Bastion"lar zəif qorunur və istənilən tank əleyhinə vasitə onları bir neçə kilometr məsafədən məhv etməyə qadirdir. Bizim dağlıq şəraitimizdə tamamilə fərqli silah növləri effektiv olur".

Hərbi ekspert ironiya ilə deyib ki, Fransa zirehli transportyorları yalnız hazırkı hakimiyyətin tanınmış simalarını İrəvanda daşımaq üçün yararlıdır. Bununla da bir neçə yüz polisi və təhlükəsizlik işçisini azad etmək olar.

Bir neçə gün öncə isə Fransanın Ermənistana Ukraynanın imtina etdiyi zirehli maşınları göndərdiyi məlum olmuşdu. "Ouest France" nəşri yazmışdı ki, Emmanuel Makron hökumətinin Ermənistana göndərdiyi "ACMAT Bastion" zirehli maşınlarının Ukraynaya tədarükü nəzərdə tutulubmuş. Kiyev isə həmin hərbi texnikanın zirehinin artilleriya və tank əleyhinə raketlərə qarşı zəif olduğunu bildirib.

Digər erməni hərbi ekspert Leonid Nersisyan Ermənistanın nə qədər Hindistan antidronu ala biləcəyini, onların Fransa radarları ilə uyğunluğunu qiymətləndirib. Deyib ki, Ermənistanın Hindistandan alacağı "Zen Anti-Drone System" (ZADS) mobil sistemdir, maşına quraşdırılır və xüsusi olaraq dronlara qarşı işləyir. O, rəqibin lokatorlarına qarşı işləyən Rusiyanın "Krasuxa" sistemindən fərqlənir. Nersisyan qeyd edib ki, ZADS-ın döyüş şəraitində istifadəsi ilə bağlı təcrübə məlum deyil, buna görə də onun real effektivliyini qiymətləndirmək çətindir. Hərbi ekspert silahların alınmasından əvvəl onların hərtərəfli öyrənilməsinin vacibliyinə diqqət çəkib: "Bu silahın Rusiya analoqu Ermənistan tərəfinin əvvəllər aldığı "Repellent" sistemidir. Lakin 44 günlük müharibə zamanı onun effektivliyi kifayət qədər aşağı idi".

Qeyd edək ki, bundan əvvəl media orqanlarında Ermənistanın Hindistanla "ZADS" anti-dron sisteminin alınması üçün 41,5 milyon dollarlıq müqavilə imzaladığını yazmışdı. Ancaq göründüyü kimi, həmin sistemlərin Ermənistan şəraitində istifadəsi problemlidir. Bundan əlavə, Hayastan ordusunda istifadə olunan silahlar, əsasən, Rusiya silahlarıdır. Rusiya silahları ilə Qərb ölkələrinin, o cümlədən Hindistanın silahlarının uyğunluğu da müşkül görünür.

**Hərbi ekspert, ehtiyatda olan polkovnik Şair Ramaldanov** "Xalq qəzeti"nə bildirib ki, Ermənistanın silahlandırılması ilə bağlı N.Paşinyan öz mövqeyini açıqlayıb. Ekspert bildirib: "Ermənistanın silahlandırılması Azərbaycana qarşı ola bilməz. Olsa da ölkəmizə heç nə edə bilməzlər. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev çox aydın şəkildə bildirdi ki, ölkəmizə qarşı təhlükə yaranarsa, bunun cavabı dərhal veriləcək. Bunu Paşinyan da, onun generalları da çox yaxşı bilirlər. Onlar öz ordularını Azərbaycan Ordusuna təhlükə yaradacaq səviyyədə silahlandıra bilməzlər".

Şair Ramaldanov qeyd edib ki, Ermənistan rəhbərliyinin hərbi büdcəni artırmasında da təəccüblü heç nə yoxdur. Ancaq nə qədər artırsa da, Azərbaycan Ordusuna ayrılan vəsaitdən çox olmayacaq və ola da bilməz.

Fransanın Ermənistanı silahlandırması barədə son zamanlar çoxlu məlumat yayılmasına diqqəti yönəldən hərbi ekspert bunun daha çox siyasi xarakter daşıdığını vurğulayıb: "Birincisi, bu qədər söhbət getməsinə baxmayaraq, Fransa Ermənistana indiyədək cəmi iki radiolokasiya stansiyası və "Bastion" zirehli nəqliyyat vasitəsi göndərib. Radiolokasiya stansiyaları prinsipcə elə bir əhəmiyyət daşımlır. Ona görə ki, Ermənistanın hava hücumundan müdafiə sistemi Rusiyanın hava hücumundan müdafiə sisteminə bağlıdır. Bu iki fərqli sistem biri-biri ilə uzlaşa bilmir. "Bastion" çoxməqsədli zirehli texnikası isə, demək olar ki, heç nədir. Həmin texnika, əsasən, Afrika ölkələri üçün nəzərdə tutulub və əsas alıcısı da onlardır. Çünki orada zirehli texnikaya böyük tələb yoxdur. Orada ağır qurğulardan istifadə edilməklə döyüşlər getmir. Hansısa lokal döyüşlər gedir. Bu texnika həm də ucuzdur. Digər tərəfdən "Bastion"un zirehi zəifdir. İri qəlpəyə davam gətirmir. Yalnız gülləyə davam gətirəcək zirehi var. Ekipaj üzvləri iki nəfərdir. Silahlanması iri və orta çaplı pulemyotdan ibarətdir və səkkiz nəfərlik şəxsi heyət daşıya bilir. Yəni, belə bir zirehli texnikadır. Dağlıq ərazidə, keçilməsi çətin olan yollarda, yerdə palçıq olduqda, "Bastion"ların istifadəsi olduqca məhduddur".

Ehtiyatda olan polkovnik onu da qeyd edib ki, Ermənistan indiyədək Rusiyanın köhnə silahları ilə silahlanırdı, indi isə bu funksiyanı Fransa öz üzərinə götürüb: "Bilirsiniz ki, "Bastion"lar Ukraynaya tədarük üçün nəzərdə tutulmuşdu. Kiyev onlardan imtina etdi. Belə olan halda ehtiyat variant kimi Ermənistanın üzərində dayanıldı. Ermənistan hazırda kimdən olsa, hansı silah olsa, onu almağa hazırdır. Ermənistanın "Bastion"lar üçün nə qədər pul ödədiyi də sual altındadır. Hindistanın verdiyi dron əleyhinə silahlar da Azərbaycana ciddi təsir edə biləcək gücə malik deyil. Ordumuzda həmin qurğuların işini poza bilən radioelektron mübarizə vasitələri mövcuddur".

Onu da bildirək ki, noyabrın 15-də Brüsseldə "Avropa İttifaqı–Ermənistan yüksək səviyyəli siyasi və təhlükəsizlik dialoqu" keçirilib. Müzakirələr zamanı Avropa Sülh Fondu vasitəsilə Ermənistana öldürücü olmayan silahların verilməsinə dəstək" məsələsi müzakirə olunub. Güman etmək olar ki, Aİ-dən Ermənistana silah tədarükü Bakı ilə Brüssel arasında münasibətlərin dinamikasını da xeyli dəyişəcək. Aİ bununla əvvəla, Azərbaycanla Ermənistan arasında danışıqlar prosesində iştirak imkanını itirəcək. İkincisi isə Aİ Bakı ilə İrəvan arasında münasibətlərin yaxşılaşmasına töhfə vermir, əksinə, gələcəkdə mümkün eskalasiyaya şərait yaradır. "Öldürücü olmayan silahlar" anlayışına nəyin daxil olduğu da aydın deyil. Nəticədə Azərbaycanın Aİ və Ermənistana inamsızlığı üçün əsasları artacaq. Bu da regionda növbəti silahlanma yarışına gətirib çıxaracaq. Beləliklə, Ermənistana silah tədarükü Azərbaycanın da adekvat addımlar atmasına gətirib çıxaracaq ki, nəticədə İrəvan özünü daha çox təhlükədə hiss edəcək. Zənnimcə, bu reallığı İrəvanda, Brüsseldə və Parisdə, nəhayət, anlamalıdırlar.

***Səxavət HƏMİD***
***XQ***

# "Media haqqında qanun", Media Reyestri kimləri və niyə narahat edir?

**"Media haqqında" yeni qanun mükəmməldir. Sənəd "Jurnalist kimdir", "KİV qurumu nədir, onun missiyaları harada tamamlanır?" kimi suallara aydınlıq gətirir. Qanun əhatə etdiyi sahədə intizam yaradır; sui-istifadə hallarının qarşısını alır. Onun faydasını təsəvvür etmək üçün statistik müqayisələrə baxaq.**



***Müşfiq ƏLƏSGƏRLİ,***
***media eksperti***

Azərbaycan Mətbuat Şurasının açıqladığı hesabatlarda maraqlı bir məqam var. Bəlli olur ki, 2022-ci ilə qədər, yəni, "Media haqqında" qanun qüvvəyə minəndən öncəyədək vətəndaşların bu quruma ünvanladıqları müraciətlərin sayı yüksək kəmiyyətlə ifadə olunub. Orta hesabla hər il 600-dən yuxarı müraciət daxil olub ki, onların da mütləq əksəriyyəti şikayət xarakteri daşıyıb. Vətəndaşlar KİV-də rastlaşdıqları neqativlər, sui-istifadə halları barədə narahatlıqlarını bildirərək tədbir görülməsini istəyiblər. Qeyd edilən rəqəmlərə istinad etsək, hər gün KİV-lərdən ən azı 2 şikayət gəlib.

Məlumat üçün qeyd edim ki, digər Avropa dövlətlərində durum bizdən fərqlidir. Avropa Müstəqil Mətbuat Şuraları Alyansının (AİPCE) hesabatlarından görünür ki, məsələn, Belçikada, Avstriyada, Danimarkada və digər ölkələrdə Mətbuat Şuralarının hər biri ildə təqribən 10-15 şikayətə baxır. Bu, orta hesabla ayda bir şikayət deməkdir. Bizimlə müqayisədə statistikanın belə fərqli olmasının səbəbi sadədir. Qərb ölkələrində KİV-lər qanun çərçivəsində fəaliyyət göstərirlər, jurnalistlər peşəkardırlar. Öz əhalisi üzərində neqativ əməllərə, KİV-dən sui-istifadə hallarına yol vermirlər. Deməli, şikayət hədəfinə də çevrilmirlər.

Azərbaycan jurnalistləri də peşəkardırlar. Əlavə olaraq, I və II Qarabağ savaşları göstərdi ki, jurnalistlərimiz həm də milli təəssübkeşdirlər. Təkcə qələmlərini deyil, canlarını da fəda edirlər. Vətən uğrunda savaşda öz sıralarından 11 şəhid vermələri sözümüzün əyani təsdiqidir.

Paradoks budur. Vətən, torpaq uğrunda müharibənin önündə gedən, informasiya savaşına qatılıb milli maraqları müdafiə edən, peşəkar davranışları ilə diqqət çəkən Azərbaycan jurnalistlərindən az qala hər gün şikayətlər verilməsini necə anlamaq olar?

Məsələ ondadır ki, şikayət doğuran, narazılıq yaradan "KİV" və "jurnalistlərin" Azərbaycan mediası ilə nə hüquqi, nə də mənəvi bağları yoxdur. Qanunla hesablaşmayan, xəbər standartlarını nəzərə almayan xüsusi bir zümrə formalaşıb. Media məkanına kənardan pərçim edilmiş bu zümrənin fəaliyyəti Azərbaycanda yeni deyil, 1990-cı illərdən etibarən strukturlaşıb. Tərkibi dəyişir, simalar yenilənir, amma mahiyyəti olduğu kimi qalır. Şantaj, hədə-qorxu, sui-istifadə üzərində biznes qurublar. Bir sözlə, jurnalist, KİV qurumu deyillər. Amma özlərini jurnalist və KİV qurumu adlandırırlar. KİV adından faydalanaraq neqativ əməllərini pərdələyirlər. Aralarında hər cür işbazlara rast gəlmək mümkündür. Hər gün şikayət doğuran, narazılıq yaradan da onlardır.

Bu zümrə qanunun möhkəmlənməsini, nizam-intizamın yaranmasını özü üçün təhlükə bilir. Belələri Azərbaycan media məkanında inkişafa, nizam–intizama köklənmiş bütün yeniliklərə qarşı çıxırlar. Jurnalistikamıza uğur gətirən, imicinə şərəf qatan bütün hadisələrə müqavimət göstərir, davranışlarını təkrarlayırlar. Hətta 2022-ci ildə qüvvəyə minmiş "Media haqqında" qanuna da müqavimət göstərirlər. Çünki sənəd bu zümrənin əl-qolunu bağlayır. Media Reyestrinin tətbiqi onların mövcudluğuna son qoyur. Çapalayırlar, vəziyyətdən çıxmağa çalışırlar. Kampaniyalar keçirirlər, məhkəməyə müraciət edirlər, digər üsullara əl atırlar ki, ictimai rəyi çaşdırsınlar, qanunu gözdən salsınlar, onun tətbiqini ləngitsinlər.

Amma bacarmırlar. Mətbuat Şurasının son açıqlamalarından görünür ki, 2023-cü ildə cəmi 85 şikayət daxil olub. O deməkdir ki, KİV olmayıb KİV adından çıxış edənlərin mühiti daralır, əl-qolları bağlanır. Müvafiq olaraq, şikayətlərin intensivliyi də azalır. Yəni, "Media haqqında" qanun, Media Reyestri müsbət nəticələrini göstərir.

Amma problemin tezliklə aradan qalxacağını söyləmək olmaz. Məsələ ondadır ki, jurnalistikadan sui-istifadə edənlər təkcə "daxili mənbələrdən" deyil, həm də xarici himayədən yararlanırlar. Media Reyestrinin ləğvini tələb edən, məhkəmələrə üz tutan "KİV"-ləri, "hüquqşünasları", "media ekspertlərini" ümidləndirən səbəblərdən biri də xaricdən alınan qrant layihələridir. Azərbaycanda mübahisəli hüquqi mövzuların Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) müstəvisinə çıxarılması üçün xüsusi layihə icra olunur. Layihə onun müəllifləri üçün siyasi məqsədlidir. Belə ki, AİHM-ə göndərilən işlərin kəmiyyətcə çoxalmasını nəticə etibarilə, ölkəmizə qarşı siyasi təzyiq elementinə çevirmək istəyirlər. Məsələn, Avropa təsisatlarında məskunlaşmış "erməni lobbi qrupları" "Azərbaycanı qeyri-demokratik ölkə" adlandırırlar. Bu tezisi beynəlxalq ictimai rəydə möhkəmləndirməyə çalışırlar. Mövcud kontekstdə Azərbaycandan AİHM-ə göndərilən işləri də nümunə kimi göstərirlər. Sadə avropalı da bilmir ki, Azərbaycandan AİHM-ə göndərilən işlər süni şəkildə stimullaşdırılır. Xüsusi qrantlar ayrılmaqla bu iş təşviq edilir. Təsdiq edilmiş faktdır ki, Avropadakı "erməni şəbəkəsi" Azərbaycanda mübahisəli hüquqi məsələlərin AİHM müstəvisinə çıxarılmasını ehtiva edən qrant layihələrinin ayrılması üçün lobbiçilik edirlər. AİHM-ə göndərilən işlərin intensivləşdirilməsi üçün imkanlar təklif edirlər. Layihə icraçılarından olan "hüquqşünasların" və "media ekspertlərinin" açıqlamalarından görünür ki, Media Reyestri ilə bağlı məsələni də AİHM müstəvisinə çıxarmağa hazırlaşırlar.

Media Reystrində qeydiyyata düşə bilməyən "KİV" subyektlərinə, "jurnalistlərə" müraciət edirlər. Onları məhkəmələrə müraciət etməyə həvəsləndirirlər. Xərclərini də qrant layihəsi çərçivəsində ödəyirlər. Yerli məhkəmələrdə hüquqları tanınmayacaqsa, işi AİHM müstəvisinə çıxaracaqlar.

Onlar əmindirlər ki, yerli məhkəmələr bu KİV-lərə bəraət qazandırmayacaqlar. Çünki Media Reyestrinə düşə bilməyən KİV-lərin sənədlərində problemlər mövcuddur. Əgər problem olmasaydı, Reyestr Xidməti onları qeydə alardı. "Hüquqşünaslar" və "media ekspertləri" bu nüansdan sui-istifadə edirlər. Reyestrdə qeydə alınmamış KİV-lərə öz sənədlərini qaydaya salmaq üçün gerçək dəstək vermirlər. Əksinə, belə KİV-lərə dəstək verirlər ki, məhkəmələrə məhz öz qüsurlu sənədləri ilə getsinlər. Orada uduzsunlar. Təbii ki, məhkəmələr bu KİV-lərin sənədlərindəki qüsurları görüb onları haqsız sayacaq. Beləliklə, şərait yaranacaq ki, "hüquqşünaslar" işi AİHM müstəvisinə çıxarsınlar.

Bu proses "hüquqşünaslar" və "media ekspertləri" üçün, sadəcə, yem mənbəyidir. Nə qədər çox iş hazırlayıb AİHM müstəvisinə çıxarırlarsa, bir o qədər çox qrant layihəsi, qonorar alacaqlar. Siyasi tərəflərini, milli maraqlar üçün yaratdığı fəsadları isə düşünmürlər. Media Reyestri ətrafında cərəyan edən proseslərin yenidən gündəmə gətirilməsinin bir səbəbi də budur.

**Avropa İttifaqının Belçikanın paytaxtında yerləşən mənzil-qərargahının divarları, çox güman, indiyədək eyni vaxtda bu qədər yalanı eşitməmişdi. Azərbaycana hərbi-siyasi cəhətdən məğlub olan Ermənistan indi revanş götürməyə fəal cəhdlər etməkdədir. Həmin cəhdlərin özünün ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycana hansı cinahdan ediləcəyinin konturları tam aydınlaşmaqdadır.**

# Brüsseldə yüksək səviyyəli ...yalan

## *Ermənistana 25 milyon avro yardım ayıran "Avronest" altməqsədini ortaya qoydu*

Hələlik məsələ hərbi xarakter daşımasa da, Fransanın erməniləri durmadan silahlandırmasını müşahidə edirik. Artıq ABŞ da, zəruri hərbi texnika daxil olmaqla, İrəvana hərtərəfli dəstək verməyə hazır olduğunu bəyan edib. Sayca ikinci sayılan siyasi və təhlükəsizlik məsələlərinə dair Aİ-Ermənistan dialoqunun həmsədrləri qismində Ermənistan XİN başçısının müavini Vaan Kostanyan və Aİ-nin siyasi məsələlər üzrə Avropa xarici fəaliyyət xidmətinin baş katibinin müavini Enrike Mora çıxış ediblər.

* * *

ABŞ-ın və Fransanın yaxından dəstəyini hiss edən İrəvan Avropada Azərbaycana qarşı diplomatik hücum taktikasına üstünlük verməyə başlayıb. Ermənistan parlamentinin "Ermənistan" blokundan olan deputatı Elinar Vardanyan "Avronest"in Brüsseldəki birgə toplantısındakı çıxışında bəyan edib ki, Azərbaycanın "Avronest"in Parlament Assambleyasında üzvlüyünün dayandırılması məsələsinin müzakirəsinin vaxtı çatıb. Bu zaman Vardanyan erməni xislətinə sadiq qalaraq Qarabağ ermənilərinin, guya, məruz qaldıqları "etnik təmizləmə" barədə çirkin uydurmadan yararlanmağa çalışıb.

Ölkəmizin ərazisində qanunsuz yaşayan həmin "100 mindən çox erməninin "Dağlıq Qarabağ Respublikasından köçməyə məcbur edildiklərini" ərz edən hay deputat növbəti yalanını avropalıların üzünə üfürüb. Dünyanın heç bir dövləti, hətta rəsmi İrəvan tərəfindən tanınmayan və heç vaxt mövcud olmayan xəyali "dqr"dan bəhs edən Vardanyana xatırlatmağı lazım bilirik ki, Qarabağın Azərbaycan ərazisi olduğunu baş naziriniz Nikol Paşinyan etiraf edib, Xankəndidəki "dqr" dediyiniz separatçı-xunta rejiminin buraxılması barədə sərəncamı isə psevdo-prezidentiniz Samvel Şahramanyan imzalayıb. İndi siz Avropanın göbəyində ağ yalanlarınızla Aİ parlamentarilərinin gözünə kül üfürməyinizdə olun. Bölgənin lideri Azərbaycan isə özünün iqtisadi qüdrətini artırmaqdadır. Görək bu qeyri-bərabər yarışda kim qalıb gələcək?

Həm "qoca qitə"dəki, həm də okeanın o tayındakı dirijorlarından "oxu" komandasını alan Ermənistan hakimiyyətinin reallıqdan uzaq, dünya ictimaiyyətini çaşdırmağa yönəlik, şər-böhtanla dolu "solo ifalarla" heç nəyə nail olmayacağı indidən bəllidir.

* * *

Hazırda Bakının pəncərələri metal hörüklü həbsxana kameralarında çaylarını içən Qarabağ separatçılarının (biri də deputatın soyadaşıdır – red.) rəhbərlərinin taleyindən narahatlığını dilə gətirən erməni deputat utanıb-qızarmadan bu məxluqları "demokratik seçkilərdə qalib gələn və Dağlıq Qarabağ (?) xalqının (?) qanunu nümayəndələri kimi onlara rəhbərlik edən adamlar" adlandırır. İlk sözündən sonuncu kəlməsinə qədər yalan danışan Elinar Vardanyanın yadına daha bir həqiqəti salaq: İşğal etdikləri Azərbaycan torpaqlarında "demokratik seçkilər" keçirmiş hayların, Azərbaycanın dədə-baba torpaqlarında qeyri-qanuni yaşayan həmin "xalqın" nümayəndələrinin bir qismi hazırda Ermənistan Respublikasının Cinayət Məcəlləsinin konkret maddələri ilə itiham olunurlar. Təkcə azərbaycanlılara qarşı deyil, eyni zamanda, özlərinin soydaşlarına qarşı cinayətlər törətmiş xunta rejiminin quldur başçılarını müdafiə etmək, sadəcə, mənəviyyatsızlıqdır. Elə erməni bloqeri Roman Baqdasaryanın onlar haqqında sənədlərə əsasən danışdıqlarına qulaq asmaq kifayətdir ki, deputatların kimlərin tərəfini tutduğu özlərinə də bir daha əyan olsun.

"Ermənilərin və azərbaycanlıların genetik cəhətdən birgə yaşamalarının mümkünsüzlüyü" nəzəriyyəsini irəli sürmüş Qarabağın ilk separatçılarından, Ermənistanın korrupsioner prezidentlərindən biri – Robert Koçaryanın silahdaşlarından hesab olunan Vardanyanın başdan-ayağa yalandan ibarət çıxışını avroparlamentarilərinin hansı səbirlə dinlədiklərini deyə bilmərik, amma onun dirijor tapşırığını yüz faiz yerinə yetirdiyini söyləmək olar. Bu "özfəaliyyət dərnəyinin repitisiyasının" hansı effekti verəcəyini zaman göstərəcək. Zaman isə İrəvanın xeyrinə işləmir. İndi heç işləmir!

***İ.HƏSƏNQALA***
***XQ***



### Ekspert rəyi



**Piter TEYS,**
**politoloq, beynəlxalq münasibətlər üzrə ekspert**

"Azərbaycanın Qarabağ regionunun 30 illik işğalı zamanı Ermənistan silahlı qüvvələrinin törətdikləri cinayətlərə məhəl qoymayan Avropa İttifaqı (Aİ) və onun strukturları indi rəsmi Bakıya qarşı ikili standartlar siyasəti yürüdür".

Bu sözləri "Report"a açıqlamasında ABŞ-dan olan politoloq və beynəlxalq münasibətlər üzrə ekspert Piter Teys deyib. Onun fikrincə, ikili standartlar siyasəti ondan ibarətdir ki, bir tərəfdən, Avropa İttifaqı Cənubi Qafqazdakı vəziyyətdən kifayət qədər məlumatlı olmadığına görə, rəsmi Bakını sanksiyalarla hədələyir. Digər tərəfdən isə, öz enerji təhlükəsizliyini təmin etmək üçün məhz Azərbaycana ümid bəsləyir: "Əlbəttə ki, Azərbaycan Aİ ölkələrindəki istehlakçılar üçün mühüm təbii qaz və neft tədarükçüsüdür. Buna baxmayaraq, rəsmi Bakı dəfələrlə diplomatik baxımdan, Avropa və Transatlantik ölkələrin təhdidlərinə məruz qalıb. Fransa hökuməti də öz növbəsində daim anti-Türkiyə əhval-ruhiyyəsi nümayiş etdirib və Azərbaycanı fəal şəkildə tənqid edib".

Ekspertin sözlərinə görə, Qərb rəsmilərinin, xüsusən də Belçika, Fransa və Kanadanın xarici işlər nazirlərinin mütəmadi olaraq Azərbaycan əleyhinə bəyanatları uydurma erməni təbliğatının əsassız məlumatlarına və saxta bəyanatlara əsaslanır.

Gülarə Əliyeva–90

**Onun adı gələndə ilk növbədə piano arxasında oturmuş mehriban baxışlı, sadə və səmimi bir xanım gəlir göz önünə. Bir də şirmayi dillərə toxunan barmaqların yaratdığı lirik, həzin musiqilər. Ətrafa nur saçan sönməz "Dan ulduzu"nu yaratmış Gülarə Əliyeva Şərqdə ilk qadın ansambl rəhbəri olub. Gülarə xanım 1955-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirdikdən sonra Səid Rüstəmov adına xalq çalğı alətləri orkestrində, Əhsən Dadaşov adına ansamblda çalışıb. 1968-ci ildə "Dan ulduzu" ansamblını yaradıb və ömrünün sonuna kimi rəhbərlik edib. Bu qrupla Əlcəzair, Suriya, Livan, Anqola, İtaliya, Bolqarıstan, Efiopiya, İsveçrə, Hindistan, Finlandiya və digər xarici ölkələrdə çıxış edib. Eyniadlı muğamlar əsasında "Şüştər" rapsodiyası, "Humayun" süitası, "Bayatı-kürd", "Şur" fantaziyalarının müəllifidir. Ansambl üçün bir çox xalq mahnısını aranjeman edib. Sənətşünaslıq elmləri namizədi, Əməkdar incəsənət xadimi titul və fəxri adlar qazanıb...**

# Şərqin "Dan ulduzu"

## *Bu ansambl Azərbaycanla yanaşı, xairici ölkələrdə də tanınır və sevilirdi*



**Unudulmaz sənətkarın yubileyi ərəfəsində onu yeganə yadigarı, Bakı Musiqi Akademiyasının müəllimi Ayəndə Əliyeva ilə birlikdə anırıq:**

– Gülarə xanım görkəmli dövlət və elm xadimi, tibb elmləri doktoru Əziz Əliyevin ailəsində dünyaya göz açıb. Musiqiyə həvəsi olduğunu görən babam onu Bülbül adına orta ixtisas musiqi məktəbinə yazdırıb – Kövkəb Səfərəliyevanın sinfinə.

Daha sonra anam Konservatoriyaya daxil olub.Üzeyir Hacıbəylinin imtahanından uğurla keçərək eyni vaxtda iki fakültədə – fortepiano və tarix-nəzəriyyə fakültəsində paralel təhsil alıb. "Bəstəkar Fikrət Əmirovun yaradıcılığı" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 23 il İncəsənət İnstitutunun Musiqi nəzəriyyəsi kafedrasının rəhbəri, institutun elmi şurasının üzvü olub.

Ayəndə xanımın dediyinə görə, anası daim musiqidə yeniliklər etmək istəyib. Buna görə də 1968-ci ildə klassik və milli alətlərin sintezindən ibarət ansambl yaradıb. Bu, o dövr üçün bir inqilab sayılırdı. Ansamblın adını isə AzTV-nin ovaxtkı sədr müavini Nəbi Xəzri təklif edi və kollektiv "Dan ulduzu" adı ilə fəaliyyətə başlayıb. Çox keçmədən "Dan ulduzu" Azərbaycanın musiqi aləmində parlamağa başlayıb. Ansamblda ilk solistlər Leyla Şərifova və Yalçın Rzazadə, daha sonra Şövkət Ələkbərova, Elmira Rəhimova, Flora Kərimova, Akif İslamzadə, Hüseynağa Hadıyev, Səkinə İsmayılova, Məmmədbağır Bağırzadə, Məhəbbət Kazımov, Aybəniz Haşımova çıxış ediblər.

–Ansamblın əksər məşqləri bizim evimizdə olurdu. Bu zaman şənlik aşıb-daşırdı. Səmimi ortam, ab-hava olurdu. Anam ansamblın üzvlərini öz övladları, bacı-qardaşları kimi sevirdi. Onları yedirib-içirmədən məşqə başlamırdı – deyə Ayəndə xanım söhbətinə davam edir.

–Atam Adil Adilov kulturoloq idi. İncəsənət İnstitutunda çalışdıqları zaman tanış olmuşdular. Sonradan bu tanışlıq səmimi münasibətə, məhəbbətə çevrilib və 1969-cu ildə ailə qurublar. Atam anamın istedadına vurğun idi.

"Dan ulduzu"nun şöhrəti ildən-ilə artıb Azərbaycanın hüdudlarından kənarda da tanınıb, sevilib. Təxminən 20 il ərzində "Dan ulduzu" şöhrətin zirvəsində olub. Amma 80-ci illərin sonlarında ansamblın fəaliyyətinə süni maneələr yaradılmağa başlayıb. Çəkilişlərə çağırmır, qastrol səfərlərinə aparmır, konsert proqramlarından adını çıxarırdılar. Hansısa konsertə və ya səfərə bir gün qalmış xəbər gəlirdi ki, "Dan ulduzu"nu siyahıdan çıxarıblar. Anam başa düşürdü ki, bu, siyasi məsələlərlə bağlıdır. Bütün bunlar onun mənfi təsir edirdi. Ayəndə xanım bu barədə kədərlə danışır.

– Beləliklə, anamın səhhətində ciddi problemlər yarandı. Böyrəyinin biri əməliyyat olundu. Günlərin birində isə məlum oldu ki, AzTV-nin Musiqi redaksiyasında "Dan ulduzu"nun əksər köhnə lent yazıları silinib, cəmi 5-6 konsert saxlanılıb. İndi efirdə, internetdə gördüklərimiz həmin salamat qalan lent yazılarıdır…

1991-ci il iyulun 27-si axşam saat 6 olardı, atam xarici səfərə gedirdi. Mən atamı yola salmaq üçün onunla birlikdə aşağı düşdüm. Anam, bacım Nuridə və "Dan ulduzu"nun violonçelisti Minirə isə atamın ardınca su atmaq üçün eyvana çıxdılar. Biz hələ aşağı çatmamış dəhşətli bir gurultu eşitdik. Evin köhnə eyvanı uçmuşdu. Anamla Minirə elə həmin anda canlarını tapşırmışdılar. Nuridə isə 6 gün xəstəxanada qaldı və o da dünyasını dəyişdi.

Gülarə Əliyevanın vaxtsız ölümü "Dan ulduzu"nu da söndürdü. Ansambl AzTV-nin ştatından çıxarıldı. Doğrudur, ansambl bu gün də fəaliyyət göstərir, amma bu fəaliyyət Gülarə xanımın sağlığında olduğu kimi parlaq deyil. Həyat isə davam edir. İncəsənətimizin "Dan ulduzu" Gülarə Əliyevadan yadigar qalan lent yazıları onun işıqlı xatirəsini yaşadır. Gülarə xanımın adını və soyadını isə indi nəvəsi daşıyır...

***R.QURBANLI***
***XQ***

# Fədakar ömrün kinoportreti

## *Akademik Xoşbəxt Yusifzadənin xatirəsinə*

**Cismani yoxluğunun 40-cı günündə onun haqqında düşünəndə, nədənsə, ilk növbədə 2015-ci ildə məşhur neft mütəxəssisinin 85 illik yubileyi münasibətilə çəkilmiş "Fədakar" filmini xatırladım və kadrlara yenidən baxdım. Nə yaxşı ki, texnoloji proseslərin inkişafı zəminində vizual janrların təkmilləşməsi bizə itirdiklərimizi görmək, dinləmək imkanı verir. Bu baxımdan Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sabiq birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadənin fədakar ömründən bəhs edən həmin film çox dəyərlidir.**



Ekran əsəri Azərbaycan neft sənayesinin canlı əfsanəsi, tanınmış geoloq, görkəmli alim, "Heydər Əliyev", İstiqlal", "Şərəf", "Şöhrət" və 1-ci dərəcəli "Əmək" ordenli Əməkdar mühəndis Xoşbəxt Yusifzadənin həyat hekayələri əsasında qələmə aldığı "Ömrümün illəri və izləri" kitabının epizodları üzrə ssenariləşdirilib. Təsvirlərə baxdıqca 1930-cu ildə Xəzərin qumlu sahillərində – Bakının Pirşağı kəndində dünyaya göz açan Xoşbəxtin ağır repressiya və müharibə illərinə düşən uşaqlığı və yeniyetməliyi göz önündə canlanır. Lakin bütün bu çətinliklər onu ruhdan salmayıb, əksinə, erkən yaşlarından zəhmətə alışdırıb. Xoşbəxt gələcəyini düşünən Xoşbəxt hər gün kilometrlərlə yolu piyada qət edərək qonşu kənddəki məktəbə – bilik dalınca gedib. Onun çətinliklərə sinə gərməsində, sınaqlardan üzağ çıxmasında əzabkeş anasının fədakarlığı da çox rol oynayıb, çünki hələ 5 yaşı olanda atası repressiya "dalğasında" həbs olunmuşdu.



İllər ötdükcə təhsilini artıran, neft geoloqu kimi, "qara qızıl"ın emalı, yeni yataqların tapılıb istismara verilməsi arzuları ilə alışıb yanan gənc Xoşbəxt taleyini bu sahəyə bağlayıb, nəzəri bilikləri fədakar zəhmətinin onu ucaltmasında təməl rolunu oynayıb.

"Fədakar"a baxır və ondan düz 100 il əvvəl – 1915-ci ildə Qafqazda Pirone qardaşlarının səhmdar cəmiyyətləri tərəfindən neft sənayeçilərinin pulu ilə İbrahim bəy Musabəyovun "Neft və milyonlar səltənətində" romanı əsasında çəkilən eyniadlı ilk bədii filmimizi xatırlayıram. Orada hadisələr XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Azərbaycanda baş alıb gedən neft bumu ətrafında cərəyan edir. Başqa bir film – Azərfilm"in 1935-ci ildə ərsəyə gətirdiyi ilk səsli kino isə Xoşbəxtin doğulub böyüdüyü yerə uyğun olaraq "Mavi dənizin sahilində" adlanır.

"Fədakar"ın kadrlarında gənc alimin ölkəmizin neft strategiyasına töhfələri, iqtisadiyyatın əsas sütununa çevrilmiş neft sənayesinin ayrı-ayrı mərhələləri, dəniz neftçilərinin riskli həyat və əmək şəraiti, 50-ci illərdən bu günümüzədək texnoloji inkişaf dövrü canlandırılır. Filmboyu dünya şöhrətli geoloqun vətəninə, el-obasına necə bağlılığının, milli təəssübkeşliyinin şahidi oluruq. Moskvaya yüksək vəzifəyə təyinat alan X.Yusifzadə bundan imtina edir, hətta respublikanın ovaxtkı rəhbəri Vəli Axundovun təkidli təklifini də Bakıdan başqa heç harada yaşayıb işləyə bilməyəcəyi bəhanəsi ilə qəbul etmir.

O zaman SSRİ-nin birinci kreslosunu tutan Nikita Xruşşovun, mötəbər xarici qonaqların, neft mütəxəssislərinin ölkəmizə, dünyanın "səkkizinci möcüzəsi" sayılan Neft Daşlarına səfərləri, buradakı görüşləri də filmin maraqlı səhnələridir və neftçilərimizin bacarığını, şöhrətini, neft-qaz sənayemizin əhəmiyyətini kinoxronikanın "dili" ilə bir daha təsdiqləyir.

Ekran əsərində müasir Azərbaycanın qurucusu və memarı, 100 illik yubileyini böyük qədirbilənliklə qeyd etdiyimiz Heydər Əliyevin hələ sovet dönəmində neftçi əməyinə verdiyi önəm, qiymət, dəyər də öz əksini tapıb. Ulu öndərin iqtisadiyyatımızın tərəqqisi naminə həyata keçirdiyi işlər, akademik Xoşbəxt Yusifzadə barədə söylədiyi fikirlər, eləcə də Prezident İlham Əliyevin təcrübəli geoloqla görüşləri "Fədakar"ın unudulmaz epizodlarıdır. Bütün bu və digər üstün, detallı, real hadisə və faktları ehtiva edən məziyyətləri filmə tarixi epopeya məzmunu verir və tamaşaçı sevgisini artırırır. Bu ekran əsərində həm də bir Azərbaycan kişisinin böyük obrazı canlandırılıb.

Unudulmaz Xoşbəxt müəllim haqqında həmin filmin çəkilişlərindən 8 il keçəndən sonra belə, ssenarist Eldar İskəndərzadə, rejissor Vasif Məmmədzadə, quruluşçu operator Rafiq Quliyev, Xalq artistləri Rasim Balayev, Səidə Quliyeva, İlham Əsgərov, Şamil Süleymanov, Əməkdar artistlər Azad Şükürov, Fərhad İsrafilov, Əlican Əzizov, Mirzə Ağazadə, aktyorlar Rauf Hüseynov, Günəş Mehdiyeva, Hikmət Rəhimov, Könül Şahbazova və başqalarına yüksək peşəkarlıqlarına görə bir daha "afərin" deməyə dəyər. Xoşbəxt Yusifzadə özü kinolentə baxandan sonra deyib ki, 2 saatlıq film böyük bacarıq və zəhmətin bəhrəsidir: "Yaradıcı heyət bu filmdə Xoşbəxti xoşbəxt kimi göstərməyə nail olub".

Bəli, gec-tez insanlar dünyadan köçür, əməlləri isə qalır. Həyatdakı missiyasını layiqincə yerinə yetirən, Azərbaycan elminə böyük töhfələr verən, təmsil etdiyi sahəni möhtəşəm kəşfləri ilə zənginləşdirən, bacarıqlı kadrlar hazırlayan akademik, görkəmli şəxsiyyət Xoşbəxt Yusifzadə də belə xoşbəxt taleli soydaşlarımızdandır. Onun əziz xatirəsi neft salnaməmizdə, kino lentlərində, kitablarda, məqalələrdə, başlıcası isə insanların və tarixin yaddaşında əbədi yaşayacaq.

***Qurban CƏBRAYIL,***
***"Mədəniyyət" jurnalının redaktoru***

Zəfər yolçuları

**Qarabağ davasında əsgər və zabitlərimiz güllə, qəlpə yaraları alırdılarsa, söz cəbhəsində qələmlə vuruşan yazarlarımız da qəlb yarası alırdılar. Belə yara almış yazarlarımızdan biri 30 ildir qələmi ilə erməni faşistləri ilə vuruşan tanınmış yazıçı, Əməkdar jurnalist Zemfira Məhərrəmlidir.**

# Qəlpə yaralarının qəlb yarası

Tarix boyu Türk qadını at belində əri ilə yanaşı yürümüşdür, onun arxası, silahdaşı olmuşdur, yolunu davam etdirmişdir. Hökmdar ərinin ölümündən sonra azyaşlı oğlunun yerinə Turan taxtında oturmuş Tomris ana ölkəsinə hücum edən İran şahı Kirin "şahlığımı qəbul et, mənə ərə gəl. Yoxsa ölkəni yerlə-yeksan edəcəyəm" təklifini rədd edərək döyüşə girmiş, oğlunun öcünü alaraq onun başını kəsib qanla doldurulmuş tuluğa atmış, "qan hərisi idin, indi iç!" demişdir.

Farsın tarixi tör-töküntüsü sayılan erməni neofaşistləri ilə döyüşlərin ilk günlərindən Azərbaycan qadınları ulu nənələri Tomristəki ərləri, anaları, oğulları ilə düşmənin qarşısına çıxdılar. Hələ sovet dönəmində mən Ağdamda qarabağlı qızların özünüqoruma könüllü dəstələrə qoşulmasının şahidi olmuşam.

I Qarabağ savaşı zamanı ölkəmizə dəvət etdiyim türkiyəli həmkarım, "Günaydın" qəzetinin yazarı Ərdan Zəntürklə Ağdama getmişdik. Məqsədimiz Türkiyə mətbuatı vasitəsilə silahlı daşnak dəstələrinin ruslara arxalanaraq Azərbaycan kəndlərinə hücum etməsini, etnik təmizləmə aparmasını ölkəmizdən kənarda yaymaq idi. Ərdan bəy Milli Qəhrəman Şirin Mirzəyevin Şahbulaqda yaratdığı ilk milli alayında, Qatır Məmmədin könüllülər dəstəsində çəkilişlər etdi. Burada əsgər paltarı geyinmiş qızlarımızı gördükdə riqqətə gəldik. Hələ Azərbaycanın nizami milli ordusunun yaranmadığı dönəmdə qızlarımızın döyüşçü, əsgərlərimizin yaralarını sarıyan tibb bacısı, həkim kimi ön xəttə atılması məni çox qürurlandırdı.

O çətin illərdə Azərbaycanın gənc yazarı, "Bakı" qəzetinin əməkdaşı Zemfira Məhərrəmlinin döyüşçü qızlarımız haqqında yazdıqlarının toplandığı "Döyüşə qızlar gedir" kitabı işıq üzü gördü. Bu kitab şəhid qızlarımızın kövrək xatirəsinə ərməğan, qazi qızlarımızın yarasına məlhəm, oğullarımızın qanlarını coşdurub ələ silah götürməsinə çağırış oldu.

Zemfira xanım jurnalistlik, yazıçılıq missiyasını, özəlliklə Qarabağ davasında ərləri, oğulları ilə bərabər döyüşə atılmış qız-gəlinlərimizin qəhrəmanlıqlarını kağıza köçürdüb, ölkə içində və dışında dünya ictimaiyyətinə çatdırmaqda görürdü. Bu yaxınlarda onun Türkiyədə "Ocaq" nəşriyyatı tərəfindən buraxılmış "Zəfər yolçuları" kitabında toplanmış esse, məqalə və hekayələrində aparıcı yeri Qarabağ döyüşçüləri tutur. Bəli, yuxarıda qeyd etdiyim kimi Qarabağ davası qəlb yarası alan yazarlarımızdan biri də Zemfira xanımdır. Böyük qələbədən sonra bu kitabla Zemfira xanım öz prioritet mövzusuna bir daha qayıtdı.




Mən 30 il Qarabağ davasından yazmış, girov götürülmə təhlükəsi ilə üzləşmiş jurnalist, 1150 səhifəlik "Qara qan" tarixi roman-trilogiyasının müəllifi kimi Zemfira xanımın bu yazıların faktlarını toplayarkən, onları yazıb redaktə edərkən nələr çəkdiyini, qəlb ağrılarına necə dözdüyünü, gah için-için, gah da hönkürtü ilə hıçqırdığını təsəvvür edirəm. Çünki eyni duyğuları özüm də yaşamışam. Ancaq Tanrı kişiləri bir az güclü yaratmışdır.

Bu ağrıları duyub çəkə bilməzdi zərif qadın ürəyi. Zemfira xanım ağır ürək xəstəliyinə tutuldu, açıq ürək əməliyyatı keçirdi. Uzun müalicədən sonra sağalıb yenə qələmi ələ götürdü, birinci bölümü "Şuşa artıq bizimdir!" adlandırdırdığı bu sonuncu kitabını nəşr etdirdi. Amma bu kitab öncəkilərtək ürək ağrısı ilə yazılmadı. Qələbələrimiz, Azərbaycanı dünyada tanıdan zəfərimiz onun ürək ağrılarına məlhəm oldu.

***Fazil ABBASOV,***
***Əməkdar jurnalist***

# "Qayıdışın mübarək", "İgidlərin sözü"



**Beynəlxalq Muğam Mərkəzində Mədəniyyət Nazirliyinin dəstəyi ilə Dünya Azərbaycanlıları Beynəlxalq Fondunun təşkil etdiyi "İgidlərin sözü" layihəsi çərçivəsində "Qayıdışın mübarək" adlı ədəbi-musiqili gecə keçirilib.**

Tədbiri giriş sözü ilə açan Dünya Azərbaycanlılarının Beynəlxalq Fondunun baş katibi, Ukrayna Ali Radası sədrinin müşaviri, hüquq elmləri doktoru Hikmət Cavadov bildirib ki, 44 günlük Vətən müharibəsi müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, xalqımızın qəhrəman oğullarının yüksək döyüş hazırlığı nəticəsində zəfərlə başa çatdı. Bu qələbənin memarlarından sayılan şəhid və qazilərimiz bütün Azərbaycanın, eyni zamanda ölkəmizdən kənarda yaşayan soydaşlarımızın başını uca edib. Bu tədbir də onlara həsr olunub.

Beynəlxalq Fondun həmtəsisçisi, İsveç Azərbaycanlıları Konqresinin sədri Emil Mirzəyev tarix yazan qəhrəman Milli Ordumuzun, əsgər və zabitlərimizin xalqımızın milli qürurunu, qələbə ruhunu özünə qaytardığını deyib. Qeyd edib ki, bu kimi tədbirləri təşkil etməkdə məqsəd onların qəhrəmanlıqlarının hər zaman xatırlanması üçündür.

**"Söz" və "İgidlərin sözü" layihələrinin müəllifi, Dünya Azərbaycanlılarının Beynəlxalq Fondunun Mədəniyyət, Təhsil və Humanitar Komitəsinin sədri, şair Nigar Həsənzadə gecədə iştirak edən hər kəsə təşəkkür edib. Şəhid və qazi analarına isə bu qələbədə əvəzolunmaz paylarının olduğuna görə minnətdarlığını bildirib:**

– Bu layihə 44 günlük Vətən Müharibəsində əzmkarlıqla döyüşmüş və qazi olmuş şairləri bir yerə yığıb. Layihə üçün əsas təkan Şuşada keçirilmiş "Vaqif Poeziya Günləri" olub. Onların dahi Molla Pənah Vaqifin məqbərəsi önündə səsləndirdikləri şeirlər "İgidlərin sözü" layihəsinə daxil olunub.

Zəfər Gününün 3-cü ildönümünə həsr olunmuş tədbirdə müharibə veteranları olan gənc şairlər və musiqiçilər çıxış ediblər. Bayram gecəsində ilk dəfə olaraq sözləri şair Arif Abdullazadəyə, musiqisi Əməkdar incəsənət xadimi Cavanşir Quliyevə məxsus "Şəhidlərin andı", sözləri şairə Nigar Həsənzadə, musiqisi bəstəkar Xanım İsmayılqızının olan "Qayıdışın mübarək" mahnıları səsləndirilib.

Muğam Mərkəzinin foyesində "Accent Group"un dəstəyi ilə Azərbaycan Dövlət Televiziyasının "Döyüşən rəssamlar" layihəsi çərçivəsində qazi rəssamların əsərləri nümayiş etdirilib.

Mərasimdən sonra qazi şairlərlə söhbət etdik. Baş leytenant Vüsal Hətəmov vaxtilə işğalda olmuş torpaqların azad olunduğu günləri böyük sevinc hissi ilə qeyd etdiyini dedi.

Azərbaycan dili və ədəbiyyatı fənnini tədris edən qazi şair Eyvaz Əyyub da yaşadığı qürur hissini bizimlə bölüşdü.

Şair, yazıçı Oğuz Alp Arslan isə savaş meydanında təkcə silahla deyil, qələmlə döyüşməyin vacibliyini vurğuladı. Onun dediklərinə görə, biz təkcə torpaqlarımızı işğaldan azad etməmişik, həmçinin xalq, millət olaraq dünya qarşısında sözümüzlə, gücümüzlə sübut etmişik ki, bu torpaqlar bizimdir. Silahlar sussa da qələmimiz hər zaman yazacaq.

***S.FİDAN***
***XQ***




# Si–Bayden görüşü: missiya baş tutdumu?

**ABŞ prezidenti Co Bayden və Çin Xalq Respublikasının sədri Si Cinpin Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq sammiti çərçivəsində görüşüblər. Bu, Çin liderinin 2017-ci ildən bəri ABŞ-a ilk səfəridir. İki dövlət arasında ziddiyyətlərin əhəmiyyətli dərəcədə kəskinləşdiyi bir dövrdə baş tutan şəxsi görüşü dünya da yaxından izləyirdi. Gözlənildiyi kimi, görüşdə ikitərəfli münasibətlərin gələcəyinə dair ciddi irəliləyişin əldə olunmasa da, danışıqların müsbət tonlarla yekunlaşdığı vurğulanır. Hətta bir sıra siyasi şərhçilər ABŞ-Çin münasibətlərində müəyyən istiləşmənin baş verəcəyini də ehtimal edirlər. Ancaq görüşdən sonra Co Baydenin Çin liderini “diktator” adlandırması və Çin Xarici İşlər Nazirliyinin ABŞ liderinin bu sözlərinə dərhal reaksiya verməsi iki supergüc dövlət arasında münasibətlərin sabit xətt üzrə inkişaf edəcəyinə olan nikbinliyi azaldır.**

Çin lideri Si Cinpin və ABŞ prezidenti Co Bayden San-Fransisko yaxınlığında keçirilən görüşdə iki gücün hərbçiləri arasında birbaşa rabitə kanallarının bərpası barədə razılığa gəliblər. Bu əlaqə keçən il Nümayəndələr Palatasının sədri Tayvana səfər etdikdən sonra çinlilər tərəfindən kəsilmişdi. Hərbçilər arasında birbaşa əlaqənin bərpasına dair razılıq Bayden və Si arasında keçirilən görüşdən sonra Çin dövlət televiziyası CCTV tərəfindən bildirilib. Pentaqonun mətbuat xidməti bu münasibətlə bildirib ki, “ordularımız arasında rabitə xətlərinin açıq saxlanılması vacibdir, çünki o, böhrana və ya münaqişəyə səbəb ola biləcək anlaşılmazlıqların və səhvlərin qarşısını alır”. Nümayəndələr Palatasının sabiq spikeri Nensi Pelosinin ötən ilin avqust ayında Tayvana gözlənilməz səfərindən sonra Çin birbaşa rabitə kanallarını kəsmişdi. Bu jest Pekini son dərəcə qəzəbləndirmiş və onu adanın turulmasını təqlid edərək, Tayvan ətrafında genişmiqyaslı təlimlər keçirməyə təşviq etmişdi.

Bununla belə, Ağ Evin yüksək rütbəli rəsmisi anonimlik şərti ilə jurnalistlərə bildirib ki, cənab Cinpin görüşdə ABŞ liderini Çinin Tayvanı ələ keçirməyə hazırlaşmadığına və sülh yolu ilə birləşməyə üstünlük verəcəyinə inandırıb. Lakin o, ÇXR-in hansı şəraitdə güc tətbiq edə biləcəyi barədə də danışmağa başlayıb. Çin lideri Si Cinpin danışıqlardan sonra açıqlaıb ki, Çin-Amerika əlaqələrinin “parlaq gələcəyi”nin olduğuna əmindir. “Çin və ABŞ-ın fərqli inkişaf yollarına, fərqli mədəniyyətlərə, tarixlərə, sosial sistemlərə sahib olmasına baxmayaraq, hər iki ölkə qarşılıqlı hörmət, dinc yanaşı yaşamaq və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə riayət etdikləri müddətcə fikir ayrılıqlarını aradan qaldıra və iki böyük dövlətin düzgün bir yerdə yaşaması üçün bir yol tapa bilərlər”. Danışıqlar zamanı Si Cinpin Çin və ABŞ arasında mümkün münaqişənin dözülməz nəticələrə səbəb olacağı fikrini də bildirib. Onun fikrincə, Pekin və Vaşinqton birbaşa hərbi qarşıdurmadan qaçmaq üçün hər şeyi etməlidir.



Məlumdur ki, dünya iqtisadiyyatının gələcəyi ABŞ-Çin münasibətlərinin vəziyyətindən asılıdır. Buna görə də, hamı ikitərəfli görüşdə liderlərin səsləndirəcəkləri bəyanatları səbirsizliklə gözləyirdilər. Görüşün nəticələri belə düşnməyə əsas verir ki, tərəflər iqtisadi əlaqələrin inkişaf etdirilməsində maraqlıdır. Belə ki, cənab Cinpin görüş zamanı Vaşinqtonun Çinə qarşı əvvəllər tətbiq etdiyi birtərəfli sanksiyaların ləğvini gözlədiyini bildirib. “ABŞ Çinə və onun şirkətlərinə qarşı davamlı olaraq ixrac nəzarəti və birtərəfli sanksiyalar tətbiq edir. Bu, Çinin maraqlarına ciddi ziyan vurur. Mən həqiqətən ümid edirəm ki, ABŞ Çinin narahatlığını ciddi qəbul edəcək və Çin müəssisələri üçün vicdanlı, ədalətli və ayrı-seçkiliyə yol verilməyən mühiti təmin etmək üçün tədbirlər görəcək və birtərəfli sanksiyaları ləğv edəcək”. Si Cinpin, həmçinin əlavə edib ki, ABŞ-ın sanksiyaları və digər dövlətlərin qeyri-dost hərəkətləri Çin iqtisadiyyatının vəziyyətinə kritik təsir göstərmir. Onun sözlərinə görə, “Çinin inkişafı və böyüməsi daxili məntiqə malikdir və xarici qüvvələr tərəfindən dayandırılmayacaq”.

Co Bayden də Çin ilə münasibətlərin normal məcrada inkişaf etməsinin tərəfdarı olduğunu bildirir. Noyabrın 14-də səhər Vaşinqtondan Kaliforniyaya uçmazdan əvvəl cənab Bayden medianın gözləntiləri ilə bağlı suallarını cavablandırarkən bildirib ki, əsas vəzifə Çin lideri ilə “normal qarşılıqlı əlaqə kursuna qayıtmaqdır”. Bunun üçün, sadəcə, bir-birinizə zəng etmək yetər. ABŞ prezidenti əlavə edib ki, “Biz Çindən uzaqlaşmağa çalışmırıq. Münasibətləri yaxşılığa doğru dəyişməyə çalışırıq”. Bundan əlavə, Prezident Bayden görüşdən sonra mətbuat konfransında bildirib ki, rabitə xətləri təkcə Çin və ABŞ hərbçiləri arasında deyil, həm də liderlərin özləri də daxil olmaqla digər səviyyələrdə daim açıq olacaq: “O və mən razılaşdıq ki, ikimiz də telefonu götürə, birbaşa zəng edə və dərhal eşidilə bilərik”. Si Cinpinə güvənib-güvənmədiyini soruşduqda, Bayden “güvən, amma yoxla” məsəli ilə cavab verib və sonra əlavə edib ki, o və Si Cinpin Barak Obama və Hu Tszintaonun vitse-prezidentləri olanda çox görüşüblər. Ağ Ev sahibi, həmçinin diqqətə çatdırıb ki, cənab Sini “birbaşa və səmimi” həmsöhbət kimi tanıyır.

Ancaq görüşündən sonra Co Baydenin Çin liderini “diktator” adlandırması görüşün nəticələrinə kölgə salmasa da, ikitərəfli münasibətlərin gələcəyinin buludsuz olmayacağı fikrini də ortaya atır. Analitiklər də razılaşırlar ki, indiki vəziyyətdə ABŞ və Çin arasında münasibətlərin əhəmiyyətli dərəcədə yaxşılaşacağına ümid etmək qeyri-realdır. Əsas odur ki, bu münasibətlər daha da pisləşməsin. Belə görüşlər də məhz bu missiyaya xidmət edir. Buna görə də, missiyanın baş tutduğunu düşünmək olar.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Azərbaycan UNESCO Proqramı Şurasına üzv seçilib

**Azərbaycan UNESCO-nun İnsan və Biosfer Proqramının Beynəlxalq Əlaqələndirmə Şurasına 2023–2027-ci illər üçün üzv seçilib.**




Bu barədə Azərbaycanın UNESCO yanında Daimi Nümayəndəliyi sosial şəbəkədə məlumat yayıb.

“Təbrik edirik, Azərbaycan 110 səslə UNESCO-nun İnsan və Biosfer Proqramının (MAB) Beynəlxalq Əlaqələndirmə Şurasına 2023–2027-ci illər üçün üzv seçilib”, – nümayəndəlik diqqətə çatdırıb.

***XQ***

# Qısa Filmlər Festivalının böyük uğuru

**Nizami Kino Mərkəzində 14-cü Bakı Beynəlxalq Qısa Filmlər Festivalının bağlanış-mükafatlandırma mərasimi keçirilib. Bakı Beynəlxalq Qısa Filmlər Festivalının direktoru Fehruz Şamıyev festivalda nümayiş olunan filmlər haqqında danışıb.**



Layihəyə verdikləri dəstəyə görə, Mədəniyyət Nazirliyinə, Kino Agentliyinə təşəkkür edən Fehruz müəllim deyib: - İnanırıq ki, növbəti illərdə əməkdaşlığımız davam edəcək. Festivalı tanıdan yaxşı filmləri və peşəkar münsiflər heyəti oldu.

Mədəniyyət nazirinin müşaviri Orxan Fikrətoğlu festivalın fəaliyyətini təqdir edərək, qaliblərə təbriklərini çatdırıb: - Bu gün burada Kino Agentliyi (ARKA) işçilərindən mükafat alanlar da var. Düşünürəm ki, bu məqam ARKA-nın hansı tərkibdə formalaşması və fəaliyyətinə dair çox şey deyir. Kinematoqrafiya elə bir sahədir ki, burada müxtəlif baxış bucaqları mövcuddur. Biz heç bir baxış bucağını redaktə etməkdə maraqlı deyilik. Qəbul olunmuş kino kriteriyaları çərçivəsində ərsəyə gələn ekran əsərlərinə dəstək veririk.

Sonra qaliblərə nominasiyalar üzrə “Qızıl nar” mükafatı və xüsusi diplomlar təqdim olundu. Beynəlxalq müsabiqə üzrə “Ən yaxşı animasiya filmi” mükafatına rejissorlar Vuk Palibrk və Tanja Brzakoviçin ərsəyə gətirdiyi “Fabuladakı canavar” filmi (Serbiya) layiq görüldü. “Ən yaxşı sənədli film” nominasiyasında rejissor Nikita Lovetskinin “Qalina Petrovna” filmi (Qırğızıstan) mükafatlandırıldı.“Ən yaxşı bədii film” mükafatını rejissor Patrisio Martines və Fransisko Kantonun “Heç biri” filmi (Argentina) qazandı. Yerli müsabiqədə “Ən yaxşı bədii film” kimi rejissor Səməd Ağayevin “Salam İsa” filmi (Azərbaycan) elan edildi. “Ən yaxşı sənədli film” nominasiyasında rejissor Kürçaylı Məmədovun “Sabahın xeyir, Sübh anası” ekran işi qalib oldu.

“Ən yaxşı rejissor” işinə görə rejissor Elmar Bayramovun “Nəfəs” filmi mükafata layiq görüldü. “Ən yaxşı ssenari”yə görə isə rejissor Şirin Əhmədovun “Qütb ulduzu” filmi mükafat qazandı.

Sonda “Ən yaxşı bədii film” nominasiyası üzrə “Qızıl nar” mükafatı almış Səməd Ağayevin “Salam, İsa” filmi nümayiş olundu.

Builki festivala 78 ölkədən 704 film təqdim olunmuşdu. Seçim komissiyası festivalın beynəlxalq müsabiqəsinə 32 ölkədən 42 film, yerli müsabiqəyə isə 26 film daxil etmişdi. Asiya istedadları müsabiqəsində 11 ölkədən 17 film qatılmışdı. Əlavə olaraq, “Sinema1” müsabiqə proqramı, nümayiş xarakterli panoram və retrospektiv proqramlar da tamaşaçılara təqdim olundu.

Festivalın əsas tərəfdaşları Nizami Kino Mərkəzi, Azərbaycan Film Fondu, Azərbaycanfilm kinostudiyası, Azərbaycan Prodüserlər Gildiyası, Yunus Əmrə İnstititu, “ÖzFilm” şirkəti, “Sinetur” Dünya Film Festivallarının Beynəlxalq Komitəsi, “Radisson” hoteli və “Özsüt” restoranı idi.

***Fidan HÜQUQQIZI***
***XQ***

# Səudiyyə səfiri jurnalistlərlə görüşüb



**Dünən Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteyli Azərbaycan mediasının tanınmış nümayəndələri ilə görüşüb.**

Dost ölkənin diplomatı jurnalistlərlə söhbətdə Ər-Riyad – Bakı dostluq və tərəfdaşlıq münasibətlərinin ildən-ilə genişlənməsindən danışdı, bu il oktyabrın 5-də öz etimadnaməsini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim edərkən eşitdiyi fikirlərdən və gördüyü səmimiyyətdən məmnunluqla söz açıb. Səfir qeyd edib ki, bizim məqsədimiz Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etdiyi illərdən bəri davam edən əməkdaşlığı daha yüksək səviyyələrə qaldırmaqdan ibarətdir. Bu işdə Azərbaycan mətbuatının oynadığı rolun böyüklüyünü xatırladan diplomat vurğuladı ki, bu ölkənin siyasətçiləri, diplomatları və dövlət rəsmiləri kimi mətbuat təmsilçiləri də İslam dünyasının İki Müqəddəs ocağının yerləşdiyi Səudiyyə Ərəbistanına daim inam və etimadla münasibət bildiriblər.

Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsindən, işğaldan azad edilmiş şəhər və kəndlərdə aparılan bərpa-quruculuq işlərindən, eləcə də xalqımızın İslami dəyərlərə verdiyi önəmdən söz açan səfir qeyd edib ki, yaxın günlərdə ölkəmizin aparıcı kütləvi informasiya vasitələrinin, eləcə də “Xalq qəzeti”nin redaksiyalarını ziyarət edəcək.

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 250 (30366) 17 noyabr 2023-cü il, cümə

İdman xəbərləri

## Futbol millimiz millətimizi sevindirdi



**Futbol üzrə Azərbaycan millisi AVRO–2024-ün seçmə mərhələsində növbəti oyununu keçirib.**

Bakıda Tofiq Bəhramov adına Respublika Stadionunda oynanılan qarşılaşmada yığmamız İsveç komandası üzərində 3:0 hesablı qələbə qazanıb. Rəqib qapısından ilk qolları 3-cü dəqiqədə Emin Mahmudov, 6-cı dəqiqədə isə Renat Dadaşov keçirib. Matçın 57-ci dəqiqəsində Bəhlul Mustafazadənin qırmızı vərəqə alaraq meydandan qovulması səbəbindən yığmamız azlıqda qalmasına baxmayaraq inamlı oyununu davam etdirib. Görüşün 89-cu dəqiqəsində kapitan Emin Mahmudov rəqib qapısından daha bir qol keçirib.

Beləliklə, komandamız matçı 3:0 hesablı qələbə ilə başa vurub. Bununla da, yığmamız tarixində ilk dəfə Skandinaviya komandasını məğlub etməyə nail olub. Bu nəticə ilə millimiz İsveçlə xallarının sayını bərabərləşdirib. Hər iki komandanın aktivində hazırda 7 xal var.

## Gimnastımız Ümumdünya Oyunlarında

**Azərbaycan gimnastı Mixail Malkin 12-ci Ümumdünya Oyunlarına vəsiqə qazanıb.**



İdmançımız Böyük Britaniyanın Birminqem şəhərində keçirilən dünya çempionatında ilk dəfə tamblinq üzrə qızıl medal qazanmaqla buna nail olub. Qeyd edək ki, oyunlar 2025-ci ildə Çinin Çendu şəhərində təşkil ediləcək.

## Qadın boksçumuz Avropa yarımfinalında

**Azərbaycan boksçusu Marjona Savriyeva Avropa çempionatının yarımfinalına yüksəlib.**




Monteneqronun Budva şəhərində 22 yaşadək boksçular arasında keçirilən qitə birinciliyində 50 kiloqram çəkidə mübarizə aparan təmsilçimiz 1/4 finalda İrina Vinaradavanı (Belarus) 3:0 hesabı ilə məğlub edib. Marjona yarımfinala yüksəlməklə özü üçün ən azı bürünc medalı da təmin edib.

Boksçumuz final uğrunda rusiyalı Arina Vostrikova ilə döyüşəcək. Qarşılaşma noyabrın 17-də olacaq.

*Leyla SABİRQIZI*
*XQ*



# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

## *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.


Qarabağ Azərbaycandır!
Xalq qəzeti
Varislik ənənəsində Qələbə ovqatı
Biz öz haqqımızı geri qaytardıq
Polad kimi qəhrəman...
Zəfər zirvəsinə ucalan bayrağım!
Lider xalqa söykənəndə

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**



Hadisə

## Canavar sürüsü Xınalıqda vurnuxur

**Qubada yağan güclü qardan sonra sürü halında dolaşan canavarlar Xınalıq kəndinin yaxınlığında müşahidə edilib.**



Kənd sakinlərinin dediklərinə görə, qar yağandan sonra ətrafda çox sayda canavar dolaşmağa başlayıb. Sürüdə qurdların sayı 7-8, bəzən isə daha çox olub.

Camaat ayıq-sayıq olduğundan hələ ki, sakinlərə heç bir ziyan dəyməyib. Amma canavarların adamlar üçün təhlükəli olduğu istisna edilmir.

Sakinlər bildiriblər ki, canavarların ovlanması qadağan olduğundan onlar yırtıcıları tüfənglə vurmağa çəkinirlər.

*XQ*

Mədəniyyət

# “Nəfəs” həqiqətlərimizə nəfəs verir

**Amerika Birləşmiş Ştatlarında yaşayan azərbaycanlı rejissor Elmar Bayramovun müəllifi olduğu “Nəfəs” (Breath) qısametrajlı filmi 14-cü Bakı Beynəlxalq Qısa Film Festivalında yerli müsabiqənin “Ən yaxşı rejissor” nominasiyasının qalibi olub.**

Diasporla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən verilən məlumata görə, bugünlərdə “Nəfəs” filmi Haaqa Beynəlxalq Film Festivalının əsas proqramına daxil edilib.

Haaqa Beynəlxalq Film Festivalının direktoru Avniş Rajvanşinin adından Elmar Bayramova ünvanlanan məktubda bildirilib ki, azərbaycanlı rejissorun ekran əsəri 80 ölkədən 600 film arasından seçilib.

Qeyd edək ki, bu ilin əvvəlində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə “Nəfəs” filminin ABŞ-ın Nyu-York və Boston şəhərlərində təqdimatı keçirilib.

“Nəfəs” qısametrajlı filmi Birinci Qarabağ müharibəsində əsir düşənlərə həsr olunub. Filmdə müharibənin ağır təsirləri, insanların həyatında qoyduğu ağır psixoloji fəsadların post-müharibə dövründə də davam etdiyi, müharibə sonrası şəxsiyyətin cəmiyyətə reinteqrasiyasının çətinlikləri diqqətə çatdırılıb. Çəkilişləri Azərbaycanda aparılan film “Old stone pictures” və “Black Garden Company” şirkətlərinin Azərbaycan Diasporuna Dəstək Fondu ilə əməkdaşlığı çərçivəsində istehsal olunub.



*XQ*

Ekologiya



## Dünya okeanı da istiləşir

***Okean tərəfindən istinin udulması 1990-cı illərdən başlayaraq kəskin şəkildə sürətlənib və 2010-2020-ci illərdə, demək olar ki, 1990-2000-ci illərlə müqayisədə təxminən iki dəfə artıb. Bu barədə “Nature Communications” jurnalı məlumat verib. Məlumatda bildirilir ki, Yeni Cənubi Uels Universiteti alimlərinin araşdırmasına görə, dünya okeanı Yer kürəsində insan fəaliyyəti nəticəsində yaranan izafi istilik enerjisinin böyük hissəsini özündə toplayır.***

Beləliklə, su hövzəsi atmosferdəki temperaturun artmasına mane olur. Lakin qlobal istiləşmə sürətlənir və bununla yanaşı, okeanlar da dəyişikliyə məruz qalır. Suyun istiliyinin artması bütün dərinliklərdə qeydə alınsa da, okeanın üst 2000 metrinə daha güclü təsir göstərir. Eyni zamanda, enerjinin udulması qeyri-bərabər şəkildə baş verdiyi üçün ən böyük dəyişikliklər Cənub okeanında baş verir.

Alimlər xəbərdarlıq edirlər ki, su kütlələrinin temperaturunun yüksəlməsi dəniz suyunun mütləq şəkildə artmasına gətirib çıxarır, həmçinin ekoloji sistemlərə mənfi təsir göstərir. Üstəlik, okeanın istiliyi udma qabiliyyəti azalmağa doğru gedərsə, bunun ardınca iqlim dəyişikliklərinin tempi yüksələcək.

*XQ*

Kosmos

## Saturna bənzər planet

**Astronomlar yeni nəhəng ekzoplanet kəşf ediblər. TOI-5344 b adlı obyekt çox kiçik ulduz (qırmızı cırtan) ətrafında fırlanır. Ölçüsü və kütləsi baxımından Saturna bənzəyir. Planet TESS kosmik teleskopu vasitəsilə kəşf edilib. Bildirilib ki, bu günə qədər 6900 ekzoplanet müəyyən edilib, 398-i artıq təsdiqlənib.**



TOI-5344 b planetinin ölçüsü Yerdən təxminən 10 dəfə, kütləsi isə 135 dəfə böyükdür. Hər kubsantimetr üçün sıxlıq 0,8 qramdır, ana ulduzdan 0,04 astronomik vahid məsafədədir. Alimlər planeti ekzosaturn kimi təsnif ediblər.

Qırmızı cırtan TOI-5344 isə Yerdən təxminən 444 işıq ili uzaqlıqda yerləşir. Ulduzun radiusu təxminən 0,56 Günəş radiusu, kütləsi isə 0,59 Günəş kütləsidir. Onun yaşı 7,1 milyard ilə çatır. Bu ulduz metalla zəngindir.

*XQ*

## Rusiya Aya kosmonavt göndərəcək



**“Energia” Raket Kosmik Korporasiyasının pilotlaşdırılan kosmik sistemlər və komplekslər üzrə baş konstruktoru Vladimir Solovyov bildirib ki, onun ölkəsi kosmonavtlarını Aya göndərəcək.**

“2031-2040-cı illərdə biz peykə pilotlu ekspedisiyalar, o cümlədən ilk eniş, geoloji tədqiqatlar və Ay bazasının yerləşdirilməsi üçün hazırlıq işləri aparmağı planlaşdırırıq. Ay bazasına gəlincə, tikintinin özü 2041-2050-ci illər üçün nəzərdə tutulub”, – deyə Solovyov qeyd edib.

Məlumata görə, bu müddət ərzində peykdə su və oksigen istehsalına və istifadəsinə başlanılması planlaşdırılır.

*XQ*

Hava

## Hava küləkli, həm də yağıntılı olacaq



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, noyabrın 17-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.**

Gecə və səhər duman olacaq. Gün ərzində əsən güclü şimal-qərb küləyi axşama doğru mülayimləşəcək. Gecə 9-12°, gündüz 13-16° isti olacaq. Atmosfer təzyiqi 754 mm civə sütunundan 764 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 80-90, gündüz 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşama doğru yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 7-11°, gündüz 14-19° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 5-9° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) karyera planlaşdırılması və inkişafı kafedrasının kollektivi kafedranın müəllimi Asəf Zeynalova atası

**ZAHİD ZEYNALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4806
SİFARİŞ 2966
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00